RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 130 (9585) 25 iyun 2024-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Azərbaycan beynəlxalq əməkdaşlıq platformasına çevrilir

## COP29 dünyanın diqqətini respublikamıza yönəldəcək

**Azərbaycan növbəti mötəbər beynəlxalq tədbirə hazırlaşır. Noyabr ayında respublikamız BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi edəcək. Bununla bağlı qərar COP28-in ötən il dekabrın 11-də Dubayda keçirilmiş plenar iclasında qəbul olunub və bu, ölkəmizə göstərilən beynəlxalq etimadın növbəti nümunəsidir.**

### Artıq işğaldan azad edilmiş ərazilərimizdə də mötəbər tədbirlər keçirilir

Ümumiyyətlə, respublikamız xeyli müddətdir ki, beynəlxalqmiqyaslı tədbirlərin əsas ünvanlarından birinə çevrilib. İndiyə qədər paytaxt Bakıda və regionlarda müxtəlifməzmunlu beynəlxalq tədbirlər keçirilib və bu davam etməkdədir. Hətta bu tədbirlərin bəzilərinin keçirilməsi ənənə halını alıb. Olduqca qürurvericidir ki, belə tədbirlər artıq işğaldan azad edilmiş ərazilərimizdə də təşkil olunur.

Ən əsası odur ki, ölkəmizdə təşkil edilən tədbirlər dünyada sülhə, mədəniyyətlər və sivilizasiyalararası dialoqa böyük töhfələr verir. Buna görə Azərbaycanda keçirilən tədbirlərin etibarlı sülh və tərəfdaşlıq platforması olması artıq beynəlxalq səviyyədə qəbul olunan reallıqdır. Eyni zamanda respublikamız bu sahədə daim öz təcrübəsini nümayiş etdirməklə və beynəlxalq səviyyədə mükəmməl nümunələr ortaya qoymaqla birləşdirici və barışdırıcı faktora çevrilib. Bu mənada Azərbaycanın müstəqillik illərində qazandığı ən mühüm nailiyyətlərdən biri böhranlara qarşı birgə beynəlxalq mübarizənin səfərbər olunması, mövcud olan və ya yarana biləcək problemlərin aradan qaldırılması yollarının müəyyənləşdirilməsi ilə bağlı qlobal fəaliyyətin istinad nöqtəsinə çevrilməsidir.

Azərbaycanın yürütdüyü siyasət həm region, həm də beynəlxalq səviyyədə pozitiv prosesləri stimullaşdırır. Belə ki, ölkəmiz öz müstəqil siyasəti ilə yalnız əməkdaşlıq və inteqrasiya istiqamətində fəaliyyət göstərir. Bütün bunların nəticəsi olaraq Azərbaycan uzun müddətdir ki, aktual qlobal problemlərin həllində aktiv iştirak edən ölkə kimi tanınır. COP29 isə respublikamızın beynəlxalq tədbirlərin ünvanı kimi nüfuzunu daha da yüksəldəcək.

→ 7

## "Terrorizmin bütün forma və təzahürləri ilə mübarizəni dəstəkləyirik"

Rusiya Federasiyasının Prezidenti
zati-aliləri cənab Vladimir Putinə

Hörmətli Vladimir Vladimiroviç!

Dağıstanda törədilmiş terror aktları nəticəsində dinc vətəndaşların və hüquq-mühafizə orqanlarının əməkdaşlarının həlak olması xəbəri məni dərindən sarsıtdı.

Bu qanlı cinayətləri qətiyyətlə pisləyir, terrorizmin bütün forma və təzahürləri ilə mübarizəni dəstəkləyirik.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verir, bütün zərərçəkənlərin tezliklə şəfa tapmasını arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyun 2024-cü il*

## "Bütün Dağıstan xalqına dərin hüznlə başsağlığı verirəm"

Rusiya Federasiyasının
Dağıstan Respublikasının
rəhbəri cənab Sergey Məlikova

Hörmətli Sergey Alimoviç!

Dərbənddə və Mahaçqalada törədilmiş və çoxsaylı insan tələfatı ilə nəticələnən terror aktları barədə xəbəri dərin kədər hissi ilə qarşıladım.

Bu ağır itkinin kədərini bölüşərək, Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Dağıstan xalqına dərin hüznlə başsağlığı verirəm. Bütün yaralıların tezliklə şəfa tapmasını arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyun 2024-cü il*

## Dünya Bankı "Qlobal iqtisadi perspektivlər" hesabatını açıqlayıb

### Azərbaycanda bu il 2,3, 2025-2026-cı illərdə 2,4 faiz iqtisadi artım olacağı proqnozlaşdırılır

2024-2025-ci illərdə dünya əhalisinin 80 faizindən çoxunu əhatə edən iqtisadiyyatların təxminən 60 faizində iqtisadi artımın 2010-cu illərin orta səviyyəsindən aşağı olacağı proqnozlaşdırılan hesabatda qlobal iqtisadi artımın 2024-cü ildə 2,6 faiz səviyyəsində olacağı göstərilir. Bu rəqəm 2010-2019-cu illərin orta göstəricisindən yarım faiz bəndi aşağı səviyyədədir. Azərbaycan iqtisadiyyatı üçün təqdim edilən proqnozlar isə 2024-cü il üçün 2,3, 2025-2026-cı illər üçün isə 2,4 faiz səviyyəsindədir. Bu, ölkənin iqtisadi dayanıqlılığını və gələcək illərdə mülayim böyümə gözləntilərini əks etdirir. Dünya Bankı bildirir ki, qlobal iqtisadiyyat geosiyasi gərginliklər, ticarətin parçalanması, uzun müddət davam edən yüksək faiz dərəcələri və iqlimlə bağlı fəlakətlər də daxil olmaqla bir sıra risklərlə qarşı-qarşıyadır. Bu risklərin aradan qaldırılması üçün qlobal əməkdaşlığı genişləndirmək, xarici ticarəti qorumaq, yaşıl və rəqəmsal keçidi dəstəkləmək, borcları azaltmaq və ərzaq təhlükəsizliyini yaxşılaşdırmaq vacibdir.




→ 9

## Konstitusiya Məhkəməsinin Plenumu Milli Məclisin buraxılmasının konstitusiyaya uyğunluğu barədə Prezidentin sorğusuna baxacaq

**İyunun 24-də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Palatasının növbəti iclası keçirilib.**

Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-ci bəndinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 21 iyun tarixli 1174-VIQR nömrəli "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Qərarı əsasında Azərbaycan Respublikası Milli Məclisinin buraxılmasının və növbədənkənar seçkilər təyin edilməsinin Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğu barəsində Azərbaycan Respublikası Prezidentinin sorğusuna baxılaraq, plenumun icraatına qəbul olunması haqqında qərardad qəbul edilib.

Sorğuya mahiyyəti üzrə, tərəflərin iştirakı ilə Konstitusiya Məhkəməsi Plenumunun iyunun 27-də saat 10:00-a təyin edilmiş iclasında baxılacaq.

## Borel indi də hərbi canilərə azadlıq istəyir

Borelin "erməni məhbuslar" adlandırdığı və azadlığını istədiyi şəxslər kimlərdir: milli kimliyimizə düşmən kəsilərək qoca, uşaq, qadın demədən xalqımızın qanına susayan, onlara qarşı bəşər tarixində rastlanmamış cinayət əməlləri törədən, Qarabağda, digər işğal etdikləri ərazilərimizdə əliyalın insanlarımıza divan tutmaları, o cümlədən Gəncədə, Tərtərdə, Bərdədə terror törədərək mülki insanlarımızı qətlə yetirmələri ilə öyünən qatillər, terrorçular - Vaqif Xaçatryan, Ruben Vardanyan, Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan...



Çirkinniyyətli çağırışından da aydın görünür ki, hazırda "humanist" C.Borel məhz bu qaniçən məxluqların, azərbaycanlılara qarşı soyqırımı törədən canilərin azadlığını əsas məqsədi kimi müəyyənləşdirib. Hansı ki Azərbaycan dövləti həmin terrorçuları beynəlxalq hüquq və qanunlar çərçivəsində mühakimə edir, layiqli cəzalarını çəkmələri üçün ədalət məhkəməsi qarşısında sorğulayır. Amma Borelin timsalında Avropanın qərəzli siyasətçiləri bu halı görməzdən gəlirlər və öz çaldıqları, daha doğrusu, erməni lobbisinin çaldığı havaya oynamaqla məşğuldurlar.

→ 8

## 2024-cü ildə ABŞ-də polis 545 nəfəri qətlə yetirib

**2024-cü ilin ilk günündən bu günədək ABŞ-də polis 545 nəfəri qətlə yetirib.**

AZƏRTAC-ın polis zorakılığına dair rəsmi məlumat bazasına (mappingpoliceviolence.us) istinadən verdiyi xəbərə görə, bu ilin 5 ayı ərzində cəmi 9 gün polisin törətdiyi qətl hadisəsi qeydə alınmayıb. 2023-cü ildə polisin öldürdüyü şəxslərin sayı 1247 nəfər olub. Onlardan 27 faizi qaradərili insanlardır. Ümumilikdə son 10 ildə polisin törətdiyi ən çox qətl hadisəsi 2023-cü ildə qeydə alınıb. 2024-cü ilin ilk 5 ayı ərzindəki göstəricilər artım tendensiyasını göstərir.

2013-2023-cü illərdə qətl hadisəsi törədən polislərdən 98,1 faizi cinayət məsuliyyətinə cəlb olunmayıb. 2023-cü ildə polis ən çox qətli Nyu-Meksiko ştatında törədib.

Ümumilikdə 2013-cü ildən indiyədək polis 12 910 nəfəri qətlə yetirib.

## Üzü "demokrat", astarı kolonial



Fransa bu gün də Afrika ölkələrinin bir hissəsini nəzarətində saxlayır. Mərkəzi və Qərbi Afrikanın 15 ölkəsi birbaşa Fransanın təsiri altındadır. Bu nəzarət valyuta ittifaqı, ədalətsiz ticarət müqavilələri və hərbi qəyyumluqlar vasitəsilə həyata keçirilir. Xatırladaq ki, fransızlar 1945-ci ildən Fransız Afrikasında yeni pul vahidi tətbiq edirlər. Əvəzində koloniyaların pul ehtiyatlarının 50-65 faizi Fransa xəzinəsinə keçirilir. Bundan başqa, koloniyaların pul ehtiyatlarının 20 faizi xarici öhdəliklərin yerinə yetirilməsinə ayrılır. Beləliklə, bütün koloniyalar pul vəsaitlərinin yalnız 15-30 faizinə nəzarət edə bilirlər. Bir çox tərəqqipərvər ölkələr, o cümlədən Azərbaycan Afrika xalqlarının və ölkələrinin öz hüquqları uğrunda apardıqları mübarizəyə dəstək verir.

→ 8

# "Vergitutma bazasının aşınması və mənfəətin köçürülməsinin qarşısının alınması məqsədilə Vergi Sazişi üzrə tədbirlərin həyata keçirilməsinə dair Çoxtərəfli Konvensiya"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2016-cı il noyabrın 24-də Paris şəhərində imzalanmış "Vergitutma bazasının aşınması və mənfəətin köçürülməsinin qarşısının alınması məqsədilə Vergi Sazişi üzrə tədbirlərin həyata keçirilməsinə dair Çoxtərəfli Konvensiya" Azərbaycan Respublikasının ona dair qeyd-şərtləri və bildirişləri ilə təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2024-cü il*

# Dövlət qulluqçularının təltif edilməsi haqqında

## Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

1. Dövlət qulluğunda səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Hacıyev Rauf Vahid oğlu
Yusifov Cavanşir Əmiralı oğlu

**"Tərəqqi" medalı ilə**

Abdullayev Əlimərdan Rəcəb oğlu
Alxasov Vahid Feyruz oğlu
Babayev Elturan Ağasəfər oğlu
Babayev Mürvət Sıracəddin oğlu
Cəlil Xoca Nailə Səyyad qızı
Əhmədov Sabir Əhməd oğlu
Əliyev Etibar İsmayıl oğlu
Əliyev Səlaəddin Balağa oğlu
Əliyeva Yeganə İsrafil qızı
Əmənov İlham Lətif oğlu
Əsədov Novruz Yunis oğlu
Hacıyeva Elmira Qənbər qızı
Həsənov İsmayıl Çoban oğlu
Hüseynov Azad Əlibala oğlu
Xəlilova Rəhilə Baxış qızı
İmanov Mehdi Aydın oğlu
Kərimova Şəhla Baxış qızı
Qasımov Adəm Həsən oğlu
Qasımov Osman Məstəli oğlu
Qurbanov Elçin Hüseyn oğlu
Məmmədov Cəlal Mirzağa oğlu
Mirzəyev Əziz Mirzəağa oğlu
Musayev Səid Əhəd oğlu
Müslümov Fazil Ağaqulu oğlu
Nəcəfov Etibar Əli oğlu
Osmanova Ətayə Kərim qızı
Pənahov Şəmsəddin Səlim oğlu
Rəhimova Gülnarə Yusif qızı
Səfərov Mahir Oruc oğlu
Səmədzadə Əjdər Elman oğlu
Şabanov Abdulkərim Şaban oğlu
Şahbazi Bəhruz Əli oğlu
Vəliməmmədova Arzu Həmzə qızı
Vəliyev Akif Sozalı oğlu
Zeynalov Əlipaşa Eldar oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Abaszadə Səidə Rizvan qızı
Abbasəliyev Hüseynqulu Murtuza oğlu
Abbasov Şahin Nazim oğlu
Abbasova Nuranə Qulam qızı
Abbaszadə Qəzənfər Aydın oğlu
Abdullayev Hikmət Şamil oğlu
Abdullayev İbrahim Fərrux oğlu
Abdullayeva Şölə Tofiq qızı
Ağalarbəyli Nuranə Məhərrəm qızı
Ağamuradova Şamama Kamil qızı
Ağayev Namiq Ataxan oğlu
Ağayev Rüfət Surxay oğlu
Ağazadə Afaq Məzahir qızı
Alıyeva Ayna Xudat qızı
Alqayev İlqar Yusif oğlu
Alşanlı Aytən Suddar qızı
Aşurova Dərya Zakir qızı
Babayev Nazim Məhərrəm oğlu
Babayev Zamiq Nurəli oğlu
Bağırov Tahir Cahangir oğlu
Bağırova Fatma Fərrux qızı
Bayramov Anar Məmməd oğlu
Bayramov Yusif Valeh oğlu
Bədəlov Ataxan Əkbər oğlu
Bədirxanov Zamin Ədalət oğlu
Caniyev Səbuhi Fəxrəddin oğlu
Cəfərov İsmayıl Həmid oğlu
Cəfərov Ziya Mirzəbala oğlu
Cəlilov Mustafa Məcid oğlu
Cəlilov Ramin Ramiz oğlu
Çələbizadə Lalə Vaqif qızı
Dəmirçiyeva Sona Nəsib qızı
Eyvazov Emin Rafail oğlu
Əhmədli Yusif Elçin oğlu
Əhmədov Süleyman Zahid oğlu
Əhmədov Vüqar İlyas oğlu
Ələkbərov Fərhad İslam oğlu
Əlili Amil Ağaismayıl oğlu
Əliyev Azad İbrahim oğlu
Əliyev Babək Əbülfət oğlu
Əliyev Cabir Həsən oğlu
Əliyev Cavanşir Sərdar oğlu
Əliyev Elxan Fərrux oğlu
Əliyev Rauf Nurulla oğlu
Əliyev Şəhriyar Yusif oğlu
Əliyev Tural Rauf oğlu
Əliyev Vəfadar Fariz oğlu
Əliyeva Elnarə Yaşar qızı
Əliyeva Fatimə Əsədulla qızı
Əliyeva Gülnarə Şahvələd qızı
Əlizadə Hüsaməddin Əbülfət oğlu
Əlizadə Tural Azər oğlu
Əmirov Elşən Həsənağa oğlu
Əsgərov Mübariz Səhrab oğlu
Əsgərova Şəkibə Əmirəhməd qızı
Əzimova Kəmalə Mustafa qızı
Əzizli Elçin İmran oğlu
Feyzullayev Sənan Nadir oğlu
Hacıyev Nəsir Fazil oğlu
Hacıyeva Sevinc Məmməd qızı
Hacızadə Anar İlham oğlu
Həmidov Elşad İntiqam oğlu
Həmidov Əhməd Ənvər oğlu
Həmidova Aynur Eldar qızı
Hənifəyev Elşən Oktay oğlu
Həsənova Nəzrin Tərlan qızı
Hüseynəliyev Kazım Yaşar oğlu
Hüseynli Yaşar Şamil oğlu
Hüseynov Arzu Lətif oğlu
Hüseynov Emil Elman oğlu
Hüseynov Hafiz Ədalət oğlu
Hüseynov Hüseyn Əmrah oğlu
Hüseynov Xoca Rafiq oğlu
Hüseynova Ülkər Sahib qızı
Xankişiyeva Emma Məhəmməd Nəbi qızı
Xəlilov Anar Əhməd oğlu
Xudiyev Ceyhun Vaqif oğlu
İbrahimli Pərviz Oqtay oğlu
İbrahimov Şahsoltan Yusif oğlu
İmanov Məhəmməd Məhəbbət oğlu
İsgəndərov Rasim Tofiq oğlu
İsmayılov Asif Əlif oğlu
İsmayılov Elman Ömər oğlu
İsmayılov Tərlan Nazim oğlu
İsmayılov Tural Vaqif oğlu
İsmayılov Vəkil Eldar oğlu
İsmayılova Fəzilə Həsənqulu qızı
İsmayılova Nigar Rabil qızı
İsmayılzadə Fuad Kamal oğlu
Kərimov Əli Fikrət oğlu
Kərimov Füzuli Təvəkgül oğlu
Kərimov Rüfət Sədrəddin oğlu
Kərimov Samir Elmi oğlu
Kərimov Söhrab Məhərrəm oğlu
Qarayev Cəmil Azər oğlu
Qasımov Ceyhun Əli oğlu
Qasımov Mahir Hüseyn oğlu
Qazaxov Əli Bədrəddin oğlu
Qəhrəmanov Elnur Əhliman oğlu
Qəhrəmanov Vasif Vaqif oğlu
Qəhrəmanova Almaz Oruc qızı
Qəmbərova Ceyran Sətdər qızı
Quliyev Emil Soltan oğlu
Quliyev Nurəddin Süleyman oğlu
Quliyev Ramiz Səmərxan oğlu
Quliyeva Cəmilə Sabit qızı
Quliyeva Natiqə Elçin qızı
Quluzadə-Verdiyeva Aytəkin Yusif qızı
Qumuxov Elsevər Əsgər oğlu
Qurbanov Anar Famil oğlu
Qurbanov Cavanşir Məmməd oğlu
Qurbanov Xəqani Sayad oğlu
Qurbanov Şahhüseyn İmamqulu oğlu
Lətifova Esmira Nazim qızı
Mamedov Abid Şaban oğlu
Mansurova Qərənfil İsrayıl qızı
Mehdiyev İlham Məmmədxan oğlu
Mehdiyev Tehran Musa oğlu
Mehraliyev Rövşən Ağabba oğlu
Mehtiyev Babək Rasim oğlu
Məcidova Gülər Tahir qızı
Məmmədov Azad Tahir oğlu
Məmmədov Azər Adil oğlu
Məmmədov Bəxtiyar Elman oğlu
Məmmədov Xəyal Asif oğlu
Məmmədov Mehman Rza oğlu
Məmmədov Orxan Məhəmməd oğlu
Məmmədov Rza Məmməd oğlu
Məmmədova Esmira Vaqif qızı
Məmmədova Şamama Ələmməd qızı
Məmmədova Vəfa İbrahim qızı
Məmmədrəhimov Azər Şahverdi oğlu
Mikayılova Vüsalə Mübariz qızı
Mirzəhmədova İradə Xoca qızı
Muxtarov Anar Ramiz oğlu
Muradov Ceyhun Nizami oğlu
Muradova Gülsabah Heybət qızı
Mustafayev Rasim Yaqub oğlu
Nəbiyev Rəhman Qoca oğlu
Nəcəfova Zülfiyyə Zöhrab qızı
Nəsibov Emin Səfyar oğlu
Nəsirov Elnur Nəsir oğlu
Novruzov Elçin Səfəralı oğlu
Nurəliyeva Mənzərxanım Fikrət qızı
Nuriyev Seymur Malik oğlu
Orucov Elmar Ömər oğlu
Paşayev Elman Faxrəddin oğlu
Pirverdiyev Mübariz Ramiz oğlu
Rəcəbov Elçin Həsən oğlu
Rəhimli Fəxri Kəlbi oğlu
Rəsulov Anar Mənsur oğlu
Rəşidov Mürşüd Fəxrəddin oğlu
Rumzadə Rəşid Faiq oğlu
Rüstəmov Məmməd Vaqif oğlu
Rüstəmov Vitali Baxış oğlu
Rzayev Anar Məmməd oğlu
Rzayev Orxan Vəli oğlu
Rzayev Yaşar Əziz oğlu
Sadıqova Rəna Gündüzovna
Sarıkişiyev Sərvər Vaqif oğlu
Seyfullayev Məhəmmədəli Seyfulla oğlu
Seyidova Günel Miryusif qızı
Səfərova Nuranə Sabir qızı
Szorg-Eminova Sərvinaz Şahin qızı
Tağıyev Anar Əflan oğlu
Tağıyev Əcəmi Sabir oğlu
Tağıyeva Aynurə Natiq qızı
Talıbzadə Təyyar Vasif oğlu
Usubəliyev Asif Adil oğlu
Vahidov Vahid Habil oğlu
Vəliyev Vüqar Yusif oğlu
Yusifov Rəşid İsmayıl oğlu
Yusif-zadə Tamerlan Namiq oğlu
Zamanov Kazım Həsən oğlu
Zamanova Aynurə Fəqani qızı
Zamanova Leyla Zaman qızı
Zülfüqarov Asim Asəf oğlu.

2. Dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslərə "Əməkdar dövlət qulluqçusu" fəxri adı verilsin:

Babayeva Ülkər Əskər qızı
Dadaşov Mehdi Tələt oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyun 2024-cü il*

# Qara və əlvan metal qırıntı və tullantıları ixracının tənzimlənməsi sahəsində əlavə tədbirlər və "Qara və əlvan metal qırıntı və tullantıları ixracının müvəqqəti dayandırılması barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 17 aprel tarixli 457 nömrəli Fərmanının ləğv edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkə ərazisində yaradılan əlavə dəyərin həcminin davamlı artırılması, yerli emal müəssisələrinin xammal təchizatının yaxşılaşdırılması və emal prosesinin dərinləşdirilməsi istiqamətində tədbirlərin davam etdirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. qara və əlvan metal (qiymətsiz metal) qırıntı və tullantılarının (sınma, kəsilmə, dağılma və ya digər səbəblər nəticəsində təyin edilmiş məqsədlər üçün istifadəyə tamamilə yararsız olan metal məmulatları daxil olmaqla) ixracına tətbiq olunan gömrük rüsumlarının artırılmasını və (və ya) müəyyən edilməsini üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. bu Fərmanın 1.1-ci bəndində nəzərdə tutulan ixrac gömrük rüsumlarının ödənilməsindən yayınmanın qarşısının alınması üçün metal qırıntı və tullantılarının emalı nəticəsində əldə olunan məmulatlar üzrə ixrac gömrük rüsumlarının müəyyən edilməsini və (və ya) mövcud ixrac gömrük rüsumlarının optimallaşdırılmasını dörd ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi metallurgiya sənayesi müəssisələrinin qara və əlvan metal qırıntı və tullantı xammalına olan ehtiyacının ödənilməsi ilə bağlı, "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tədbirlər görülməsinə zərurət yarandığı təqdirdə, təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi bu Fərmandan irəli gələn məsələləri həll etsin.

4. "Qara və əlvan metal qırıntı və tullantıları ixracının müvəqqəti dayandırılması barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 17 aprel tarixli 457 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 4, maddə 227 (Cild I) ləğv edilsin.

5. Bu Fərmanın 4-cü hissəsi bu Fərmanın 1.1-ci bəndində nəzərdə tutulan qara və əlvan metal (qiymətsiz metal) qırıntı və tullantılarının ixracına gömrük rüsumlarının artırılması və (və ya) müəyyən olunması barədə normativ hüquqi akt qüvvəyə mindikdən 60 (altmış) gün sonra qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyun 2024-cü il*

# Azərbaycan-Braziliya münasibətləri ilə bağlı fikir mübadiləsi aparılıb



Milli Məclis Sədrinin müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev və Milli Məclisin Braziliya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Müşfiq Məmmədli iyunun 24-də Braziliya İşçi Partiyasının Beynəlxalq əlaqələr üzrə katibi Romenio Pereyra ilə görüşüblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonağı salamlayan vitse-spiker Adil Əliyev ölkələrimiz arasındakı əlaqələrin tarixindən söz açıb, Azərbaycan-Braziliya münasibətlərinin bugünkü əməkdaşlıq səviyyəsinə yüksəlməsində hər iki dövlətin ali rəhbərlərinin rolunu vurğulayıb.

Azərbaycanın beynəlxalq humanitar təşəbbüslərindən bəhs edən Adil Əliyev ölkəmizin Qoşulmama Hərəkatına uğurla rəhbərlik etməsindən, hərəkatın Parlament Şəbəkəsinin yaradılmasından danışıb. Bu il ölkəmizdə COP-29 kimi əlamətdar tədbirin keçiriləcəyini diqqətə çatdıran vitse-spiker məhz belə möhtəşəm tədbirə evsahibliyinin Azərbaycana həvalə edilməsini ölkəmizin beynəlxalq nüfuzunun göstəricisi kimi dəyərləndirib.

Vitse-spiker Azərbaycan parlamentinin fəaliyyəti, rəhbərlik etdiyi komitənin gördüyü işlər barədə məlumat verib, Azərbaycan və Braziliya arasında parlamentlərarası əlaqələrin inkişaf perspektivləri, beynəlxalq platformalar, o cümlədən COP-29 çərçivəsində səmərəli əməkdaşlığın qurulması və digər məsələlər barədə fikirlərini bölüşüb.

Braziliya İşçi Partiyasının Beynəlxalq əlaqələr üzrə katibi Romenio Pereyra Braziliya siyasi sistemi barədə məlumat verib, partiyasının siyasi mövqeyindən, nüfuzundan söz açıb, ölkələrimiz arasında əlaqələrin müxtəlif müstəvilərdə inkişaf etdirilməsindən danışıb. Qonaq qarşılıqlı səfərlərin münasibətlərin inkişafındakı xüsusi rolunu vurğulayıb.

Görüşdə Azərbaycan və Braziliya arasında ikitərəfli münasibətlərin dərinləşdirilməsi, o cümlədən parlamentlərarası əlaqələrin inkişaf potensialı və tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Azərbaycan ilə Qırğızıstan arasında birgə layihələrin həyata keçirilməsinə dair müzakirə olub

**İyunun 24-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Qırğız Respublikasının ölkəmizə yeni təyin olunmuş səfiri Maksat Mamıtkanovu qəbul edib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı səfir etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib. Səfiri təyinatı münasibətilə təbrik edən nazir ona fəaliyyəti müddətində uğurlar arzulayıb.

Görüş zamanı tərəflər ikitərəfli əməkdaşlıq gündəliyinin müxtəlif aspektləri, o cümlədən siyasi, iqtisadi, nəqliyyat, humanitar, mədəni sahələrdə əməkdaşlığın möhkəmləndirilməsi və birgə layihələrin həyata keçirilməsinə dair fikir mübadiləsi aparıblar.

Nazir ölkələrimiz arasında əsrlər boyu mövcud olan etnik, mədəni, dini bağlara əsaslanan dostluq münasibətlərindən danışaraq bu əlaqələrin inkişaf perspektivlərini vurğulayıb. Hazırda Azərbaycan və Qırğızıstan arasında bütün səviyyələrdə qarşılıqlı anlaşmanın mövcud olduğu bildirilib. Ölkələrimizin rəhbərləri arasında son zamanlar daha da artan təmasların, qarşılıqlı səfərlərin ölkələrimiz arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi ilə əlamətdar olduğu vurğulanıb.

Ölkələrimiz arasında çoxtərəfli platformalarda, xüsusilə də Türk Dövlətləri Təşkilatı (TDT), SPECA, İslam Əməkdaşlıq Təşkilatı və digər regional təşkilatlarda əməkdaşlığın inkişafından məmnunluq ifadə olunub. Xüsusilə TDT çərçivəsində əməkdaşlığın geniş perspektivlərinin mövcudluğu, habelə mövcud potensialdan istifadə olunması istiqamətində TDT-yə üzv dövlətlər arasında intensiv təmasların vacibliyi vurğulanıb. Bu xüsusda, TDT-nin cari ilin iyul ayında Şuşa şəhərində keçiriləcək növbədənkənar Zirvə görüşünün və oktyabr ayında Bişkekdə keçiriləcək rəsmi sammitin Təşkilatın inkişafına xidmət edəcək təmaslardan biri olacağına dair inam ifadə olunub.

Görüş zamanı COP29 çərçivəsində geniş əməkdaşlıq imkanlarının olduğu qeyd edilib.

Qırğızıstanın sülh və quruculuq prosesinə dəstəyinin təqdirəlayiq olduğu, habelə Qırğız Respublikasının təşəbbüsü ilə Ağdamın Xıdırlı kəndində təməli qoyulmuş orta məktəbin bu dəstəyin bariz nümunəsi olduğu vurğulanıb.

Səfir Maksat Mamıtkanov ölkələrimiz arasında əlaqələrin daha da möhkəmləndirilməsi üçün əlindən gələni əsirgəməyəcəyini bildirib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Dəyişikliklər bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsinə xidmət edəcək

**İyunun 24-də Milli Məclisin Regional məsələlər komitəsinin video-konfrans formatında növbəti iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Siyavuş Novruzov bildirib ki, gündəliyə birinci oxunuşda "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi daxil edilib. Layihə barədə məlumat verən Siyavuş Novruzov qeyd edib ki, təklif olunan dəyişikliklər bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsinə xidmət edən bir sıra mühüm məsələlərin həllini nəzərdə tutur.

Müzakirə zamanı çıxış edən deputat Səbinə Xasayeva layihənin ölkə Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə daxil olduğunu diqqətə çatdırıb. Bildirib ki, təklif olunan dəyişikliklər bələdiyyələrin fəaliyyəti sahəsində yaranan münasibətlərin tənzimlənməsi üçün hüquqi əsasların yaradılmasını nəzərdə tutur. Həmçinin diqqətə çatdırılıb ki, qanunlara təklif olunan bir qrup düzəlişlər isə bələdiyyələrin işinin təşkili ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi üçün zəmin yaradacaq.

Müzakirələrdə komitənin üzvləri Məzahir Əfəndiyev, Kamran Bayramov çıxış edərək, qanun layihəsinin aktuallığını qeyd ediblər, təklif olunan düzəlişlərlə bağlı fikirlərini bildiriblər.

Qanun layihəsi birinci oxunuşda baxılması üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# Xankəndi şəhərində elmi-praktik konfrans keçirilib

**İyunun 24-də Xankəndi şəhərində Baş Prokurorluğun təşkilatçılığı ilə "Ətraf mühitin gücləndirilməsində maarifləndirmə və hüquq-mühafizə tədbirlərinin rolu" mövzusunda elmi-praktik konfrans keçirilib.**






Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, baş prokuror Kamran Əliyevin sədrliyi ilə keçirilən tədbirdə müxtəlif dövlət orqanlarının nümayəndələri, aparıcı ali təhsil müəssisələri, ixtisaslaşmış akademiya və elm ocaqlarını təmsil edən görkəmli hüquqşünaslar, həmçinin Baş prokuror yanında Elmi-Məsləhət Şurasının üzvləri və prokurorluq əməkdaşları iştirak ediblər.

Tədbirdən əvvəl Ulu Öndər Heydər Əliyev və vətənimizin azadlığı uğrunda canlarını qurban verən şəhidlərimizin əziz xatirəsi konfrans iştirakçıları tərəfindən birdəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfrans iştirakçılarını salamlayan baş prokuror Kamran Əliyev qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi və yenilməz, rəşadətli Azərbaycan Ordusunun misilsiz qəhrəmanlığı nəticəsində 10 milyonluq Azərbaycan xalqı 44 gün ərzində ərazi bütövlüyümüzü bərpa edib.

Əlavə olunub ki, 2023-cü il sentyabrın iyirmisində 24 saatdan da az müddətdə yekunlaşan "ildırımsürətli", lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycanın öz suverenliyini tam bərpa etməsi bir daha sübut etdi ki, ölkəmiz qüdrətli dövlətdir və onun sarsılmaz, qətiyyətli mövqeyə, dəmir iradəyə malik rəhbəri - Ali Baş Komandanı vardır.

Qeyd edilib ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişikliklərinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov Xankəndi şəhərində hazırda əhalinin öz yurdlarına qayıtması, regionun inkişafı ilə bağlı işlər görüldüyünü, habelə təsdiq olunmuş köç planına əsasən, Xocalı şəhəri, Kərkicahan qəsəbəsi və Malıbəyli kəndində, eləcə də Ağdərə rayonunun Umudlu kəndində bu il ərzində yüzlərlə ailənin yerləşdirilməsinin nəzərdə tutulduğunu bildirib.

Konfransda Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər nazirinin müavini xanım Umayra Tağıyeva, Azərbaycan Respublikası Milli Məclisinin VI çağırış deputatı Kamal Cəfərov, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri Vüqar Süleymanov, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, Qarabağ Universitetinin rektoru Şahin Bayramov, Ankara Universitetinin Hüquq fakültəsinin dekanı Muharrem Özen, Milli Aviasiya Akademiyasının "İqtisadiyyat və hüquq" fakültəsinin dekanı Ayxan Rüstəmzadə, Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin sədri Samir İdayətov, Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev, idarənin böyük prokuroru Zamir Paşayev və Elm-Tədris Mərkəzinin rəis müavini Talıb Cəfərov çıxış ediblər. Mövzu ətrafında səmərəli müzakirələr aparılıb.

Daha sonra, konfrans iştirakçıları "Azərbaycan Respublikasında ekoloji siyasətə dair" və "Azərbaycan Respublikasında ekoloji hüquqpozmalara qarşı mübarizə" mövzularında videoçarxları izləyiblər, "Azərbaycan Respublikası ərazisində ağackəsmə cinayətləri və inzibati xətaların araşdırılmasının xüsusiyyətləri ilə əlaqədar" metodik vəsaitin və "Ətraf mühitin mühafizəsinin hüquqi əsasları" adlı vəsaitin təqdimatı keçirilib.

Konfransın sonunda, Azərbaycan Respublikasının Baş Prokurorluğu, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Bakı Dövlət Universiteti arasında ECOLEAD layihəsinə dair Anlaşma Memorandumu imzalanıb və media nümayəndələrinin sualları cavablandırılıb.

Sonda baş prokurorun imzaladığı müvafiq əmrlə Qarabağ və Şərqi Zəngəzur bölgəsində çalışan prokurorluq əməkdaşları təltif ediliblər.

# Xidməti vəzifələrini yerinə yetirərkən həlak olan polis əməkdaşları torpağa tapşırılıblar





**İyunun 24-də paytaxtın Xəzər rayonunun Şüvəlan qəsəbəsində axtarışda olan şəxsin saxlanılması məqsədilə keçirilən əməliyyat zamanı həlak olan polis əməkdaşları - polis kapitanı Eldəniz Məmmədov, polis serjantı Mahir Ağayev və polis serjantı Mirəli Heydərov torpağa tapşırılıblar.**







AZƏRTAC xəbər verir ki, əvvəlcə polis əməkdaşları ilə vida mərasimi keçirilib. Mərasimdə onların ailə üzvləri, Daxili İşlər Nazirliyinin rəhbərliyi və şəxsi heyəti iştirak ediblər.

Polis kapitanı Eldəniz Məmmədov Sabunçu rayonunun Bakıxanov qəsəbəsində, polis serjantı Mahir Ağayev Xəzər rayonunun Binə qəsəbəsində, polis serjantı Mirəli Heydərov isə Kürdəmir rayonunun Cəyli kənd qəbiristanlığında dəfn olunublar.

Dəfn mərasimlərində Daxili İşlər Nazirliyinin yüksəkrütbəli şəxsləri, eləcə də şəxsi heyət, həlak olan polislərin doğmaları, rayon sakinləri, qazilər, müvafiq rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının əməkdaşları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə cənazə namazı qılınıb. Daha sonra polis əməkdaşları yaylım atəşi altında torpağa tapşırılıblar. Onların ruhlarına dualar oxunub, məzarları üzərinə tər güllər düzülüb, əklillər qoyulub.

Həlak olanların tabutlarının büküldüyü üçrəngli Dövlət bayrağı ailə üzvlərinə təqdim edilib.

Polis serjantı Mahir Ağayevin atası Mayıl Ağayev jurnalistlərə müsahibəsində hadisədən səhər tezdən xəbər tutduğunu bildirib: "Mahir 5 ilə yaxın idi ki, hüquq-mühafizə orqanlarının sıralarında xidmət edirdi. O, nişanlı idi, bir neçə aya toyu olacaqdı. Təəssüf ki, qisməti belə gətirdi".

Xatırladaq ki, iyunun 24-də paytaxtın Xəzər rayonunun Şüvəlan qəsəbəsində əvvəllər dəfələrlə məhkum olunmuş, axtarışda olan 1986-cı təvəllüdlü Allahverdiyev Rövşən Oqtay oğlu polis əməkdaşları tərəfindən saxlanılarkən silahlı müqavimət göstərib.

O, polis əməkdaşlarına mane olmaq məqsədilə ailə üzvlərini önə verərək yayınmağa və cavab tədbirlərinin qarşısını almağa cəhd edib, yaranmış vəziyyətdən istifadə edərək "Lancaster" markalı ov silahından atəş açaraq 3 polis əməkdaşını və 1 mülki vətəndaşı qətlə yetirib.

Davam etdirilən tədbirlərlə R.Allahverdiyev polis əməkdaşları tərəfindən zərərsizləşdirilib.

Faktla bağlı cinayət işi başlanılıb, istintaq hərəkətləri davam etdirilir.

# Xankəndi şəhər prokurorluğunun inzibati binası istifadəyə verilib





**Açılış mərasimində Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev iştirak edib. Baş prokurorluğun rəhbərliyinin də iştirak etdiyi tədbirə, həmçinin digər dövlət və hüquq-mühafizə orqanlarının əməkdaşları qatılıblar.**

Əvvəlcə mərasim iştirakçıları inzibati binanın foyesində Ulu Öndər Heydər Əliyevin barelyefi önündə dahi insanın unudulmaz xatirəsinə dərin hörmət və ehtiramlarını bildirib.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev deyib ki, Azərbaycan xalqı bu gün sözlə ifadə edilməsi mümkün olmayan misilsiz qələbə sevinci, yüksək fəxarət duyğuları, hədsiz fərəh, qürur hissləri yaşayır: "Ümummilli Lider Heydər Əliyev, eləcə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin prokurorluq orqanlarına göstərdikləri daimi diqqət və qayğı hər zaman hiss olunub.

Ölkə Prezidentinin cari ilin 24 may tarixli Sərəncamı ilə Xankəndi şəhər prokurorluğunun təsis edilməsi və qısa müddətdə qurumun bina, avadanlıq, rabitə, nəqliyyat vasitələri ilə təmin edilməsi, habelə digər maddi-texniki təminat məsələlərinin həlli bunun göstəricisidir" - deyə baş prokuror vurğulayıb.



Bildirilib ki, Xankəndi şəhər prokurorluğunun inzibati binasının qısa müddətdə istifadəyə verilməsi çox əlamətdar bir dövrə təsadüf edir.

Prokurorluq orqanlarının formalaşmasında Ümummilli Lider Heydər Əliyevin tarixi xidmətlərindən danışan baş prokuror Azərbaycan prokurorluğunun keçdiyi şərəfli yol və hazırkı fəaliyyəti barədə bəhs edib.

Kamran Əliyev prokurorluq orqanlarında aparılan kompleks islahatlar və sağlam iş mühitinin formalaşdırılması istiqamətində görülən məqsədyönlü tədbirlərdən söz açıb.

İnzibati binanın istifadəyə verilməsini prokurorluq əməkdaşlarının əməyinə verilən yüksək qiymət kimi dəyərləndirən baş prokuror Azərbaycan dövlətinin inkişafı naminə bundan sonra da böyük səylə çalışacaqlarını bildirərək kollektivə uğurlar arzu edib.

Daha sonra iştirakçılar inzibati binada yaradılan şəraitlə tanış olublar.

Məlumat verilib ki, binada vətəndaşların qəbulu otağı, prokuror, prokuror köməkçiləri, müstəntiq və inspektorlar üçün otaqlar, dəftərxana və arxiv yaradılıb.

Bildirilib ki, bina bütün zəruri avadanlıq, kompüter sistemi, kommunikasiyalar və mühəndis qurğuları ilə təchiz edilib, mebel və digər inventarlarla təmin olunub.

Sonda xatirə fotoşəkli çəkdirilib.

# *Baş Prokuror:* "Ekoloji hüquqpozmalarla bağlı 4 il ərzində 4,2 milyon manatın dövlət büdcəsinə ödənilməsi təmin edilib"

**2024-cü ildə COP29 tədbirinə Azərbaycanın evsahibliyi təsdiq edilib. Bu sözləri baş prokuror Kamran Əliyev Xankəndi şəhərində keçirilən "Ətraf mühitin gücləndirilməsində maarifləndirmə və hüquq-mühafizə tədbirlərinin rolu" mövzusunda elmi-praktiki konfransda deyib:**



"Prokurorluq olaraq biz də bu reallıqlara uyğun fəaliyyət göstərməliyik.

Azərbaycan Respublikası Baş Prokurorluğunda və yerlərdə ekoloji hüquqpozmalara qarşı mübarizə, maarifləndirmə və həmin qəbildən pozuntuların qarşısının alınması məqsədilə dərin ixtisaslaşma işi aparılıb. 2020-ci ildə təsis olunan Cinayət təqibindən kənar icraatlar idarəsi və yerlərdə həmin sahəyə cavabdeh olan rayon prokurorlarının köməkçiləri tərəfindən bu günədək 701 cinayət xarakterli məlumat araşdırılıb, 407 cinayət işi başlanılıb. 4.193.168 (dörd milyon yüz doxsan üç min yaz altmış səkkiz) manat məbləğində pulun dövlət büdcəsinə ödənilməsi təmin edilib.

Ümumilikdə, inzibati xəta haqqında işlər üzrə başlanılmış icraatlardan 418-i fiziki, 530-u vəzifəli, 84-ü hüquqi şəxslər barəsində olub. Bunların əhəmiyyətli hissəsi ekoloji pozuntularla bağlıdır.

Azərbaycan Respublikasının "Prokurorluq haqqında" Qanununun tələblərinə əsasən, idarə tərəfindən qanun pozuntularının, onları doğuran səbəb və şəraitin aradan qaldırılmasına dair müvafiq təşkilatlara, yaxud vəzifəli şəxslərə 229 təqdimat və qanun pozuntularından çəkindirmək məqsədilə 197 rəsmi xəbərdarlıq edilib.

Qanun pozuntularına yol vermiş şəxslərin məsuliyyətə cəlb olunması və dəymiş ziyanın ödənilməsi ilə yanaşı, Baş Prokurorluq tərəfindən maarifləndirici, qabaqlayıcı və bərpaedici effekt daşıyan ECOLEAD platforması formalaşdırılır. Biz bu layihəni Azərbaycan Respublikasının Ekologiya Və Təbii Sərvətlər Nazirliyi, Bakı Dövlət Universiteti və bu sahədə fəal olan qeyri-hökumət təşkilatları ilə qururuq.

ECOLEAD platformasının məqsədi maarifləndirmə və hüquq-mühafizə tədbirləri yolu ilə ətraf mühitin gücləndirilməsi, mühafizəsi sahəsində mütəxəssislərin əlaqələndirilməsi, bu sahələrdə mövcud təcrübəni bölüşməklə çoxtərəfli münasibətlərin səmərəli təşkil edilməsi və inkişafının təşviqi, ətraf mühitin əleyhinə qeyri-qanuni əməllərin araşdırılması, bu sahədə pozuntuların qarşısının alınması, toplanmış bilik və məlumatların paylaşılması, öz səlahiyyətləri daxilində funksiyalarını daha operativ və səmərəli icra etmək üçün əməkdaşlıq əlaqələrinin genişləndirilməsidir".

Baş Prokuror deyib ki, ECOLEAD platforması işinin əsasını "ECOLAB", "Ecoclinic" və "Cərimə Parkı - Təbiətin Qisası" komponentlər təşkil etməklə prokurorluq əməkdaşları, ekoloqlar, ali təhsil ocaqları və QHT-lərin birgə səyləri nəticəsində ətraf mühit əleyhinə cinayətlərin araşdırılması, bu sahədə pozuntuların qarşısının alınması, bu zaman toplanmış bilik və məlumatların paylaşılmasına yönəlir:

"Vahid istiqamətdə fəaliyyət göstərəcək peşəkarlar üçün formalaşan ECOLEAD platforması Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında münaqişədən sonrakı ekoloji problemlərin daha yaxşı həlli üçün tədqiqat ehtiyaclarını, ekoloji pozuntuların qarşısının alınması və həllinə maraqlı tərəflərin cəlb edilməsini, ekoloji sahədə peşəkarlararası dialoqun təkmilləşdirilməsinə xidmət edəcək".

# Davamlı inkişaf, səmərəli islahat, real nəticə

## Prezident İlham Əliyev Naxçıvanın geostrateji mövqeyini artıq qlobal səviyyəyə yüksəldib



**Tarixinin ən qüdrətli Azərbaycanı artıq Qafqazın lider statusundan Avrasiya məkanının güc mərkəzinə çevrilib. Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminatçısı, logistik qovşaq amilindən əlavə həmçinin əməkdaşlıq, sülh və inkişaf çağırışları ilə qlobal miqyasda etibarlı tərəfdaş kimi qəbul olunur.**

**Bu kontekstdə tam müstəqil siyasəti ilə bütün bu reallıqları yaradan Prezident İlham Əliyev regional liderlikdən qlobal nüfuz sahibinə çevrilib.**

**Ölkəmizin güc mərkəzinə çevrilməsi, inkişafına görə dünyada tanınmasının əsas şərtlərindən biri də bölgələrimizin davamlı yüksəlişidir. Təsadüfi deyil ki, Qarabağ və Şərqi Zəngəzurdakı quruculuğun bənzəri yoxdur. Həmin layihələr dünyanın ən nəhəng layihələridir.**

Azərbaycanda davamlı inkişafda olan bölgələrin ön sırasında dayananlardan biri də Naxçıvandır. Prezident İlham Əliyev Naxçıvanı inkişafına görə Azərbaycanın lider bölgəsi kimi səciyyələndirib. Ötən əsrin 90-cı illərində ağır blokada, erməni təcavüzü, çətin sosial-iqtisadi böhranla üzləşən Naxçıvanın bu gün qitələri birləşdirməsi, Orta dəhlizin mühüm qovşağına çevrilməsi, türk dünyasının əməkdaşlıq mərkəzi kimi tanınması, məhz Heydər Əliyev siyasətinin - İlham Əliyev fəaliyyətinin real nəticəsi, daha dəqiq desək, təntənəsidir!

### Blokada, çətin sınaqlar və qurtuluş missiyası

Türk dünyası üçün mühüm strateji əhəmiyyət kəsb edən, Şərqlə Qərbin qovşağında, böyük İpək yolunun üzərində yerləşən qədim yurdumuz Naxçıvan tarixən gərgin mübarizələr meydanına çevrilib. Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları nəticəsində Naxçıvan uzun müddət tam təcrid və ağır blokada şəraitində qalıb.

100 illik yubileyini qeyd edən muxtar respublikanın tarixinə qısa nəzər yetirsək görərik ki, bu yurdun ağır sınaqlardan qurtuluşu Ulu Öndər Heydər Əliyevin uzaqgörən, qətiyyətli siyasəti sayəsində reallaşıb. Dəqiq söyləsək, muxtar respublikanın son 50 illik siyasi dövrü məhz dahi şəxsiyyətin adı ilə bağlıdır.

Xüsusilə, Ümummilli Liderin 1990-1993-cü illərdə Naxçıvanda olması, nəinki Naxçıvanı, eləcə də Azərbaycanı böyük təhlükədən xilas edib. Dahi şəxsiyyətin Naxçıvanın blokadadan çıxarılması üçün atdığı ilk addımlardan biri qardaş Türkiyə ilə əlaqələrin qurulması olub. Həmin dövrdə Naxçıvanda Ulu Öndərin "Bir millət, iki dövlət" fikirlərinin reallığa çevrilməsi mərhələsi başlanıb. Dahi şəxsiyyətin 1992-ci il mart ayının 22-dən 24-dək Türkiyəyə səfəri çərçivəsində "Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əməkdaşlıq protokolu" imzalanıb. Həmin il mayın 28-də iki ölkə arasında iqtisadi, mədəni, sosial, siyasi əlaqələrin inkişaf simvolu hesab olunan Sədərək-Dilucu körpüsü istifadəyə verilib. Körpünün istifadəyə verilməsi ilə Naxçıvanda blokadanın ağır fəsadlarının tədricən aradan qaldırılmasına, əhalinin maddi rifah halının yaxşılaşdırılmasına, muxtar respublikanın dünyaya tanıdılmasına, Qərbə inteqrasiyasına başlanılıb. Eyni zamanda bu, Türkiyənin şərq vilayətlərinin inkişafına təkan verib, nəqliyyat əlaqələrinin inkişafı və beynəlxalq daşımalar üçün yeni istiqamət müəyyənləşdirib. Ulu Öndərin təşəbbüsü ilə yaradılan "Ümid körpüsü" iki qardaş xalqı bir-birinə qovuşdurmaq, yurddan-yurda, könüldən-könülə körpü salmaq baxımından mühüm əhəmiyyət kəsb edib. Bu körpü Azərbaycan-Türkiyə əlaqələrinin inkişafının başlanğıcı olub.

Naxçıvanlılar həmişə olduğu kimi, müdrikliyini göstərərək Ulu Öndərin ətrafında bir yumruq kimi sıx birləşib və erməni işğalçılarına tutarlı cavab veriblər. Ulu Öndərin qətiyyəti, müdrikliyi, cəsarəti, naxçıvanlıların ona olan inamı bu ağır sınaqdan çıxmaq üçün əlverişli imkan yaradıb.

### Naxçıvanda əsası qoyulan qardaşlıq Şuşa zirvəsində daha da möhkəmlənir

Ulu Öndər Heydər Əliyevin muxtar respublikanın inkişafına göstərdiyi xüsusi diqqət hazırda Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin prioritet istiqamətlərindən birini təşkil edir.

Əgər Ulu Öndər Heydər Əliyevin türk xalqları arasında əməkdaşlıq platformasına çevirdiyi "Ümid körpüsü" üzərində müstəqil türk dövlətlərinin mütəşəkkil birliyinin əsası qoyuldusa, Prezident İlham Əliyev Naxçıvanı türk dünyasının əməkdaşlıq mərkəzi statusuna sahibləndirdi. Avrasiyada yeni güc mərkəzi kimi tanınan Türk Dövlətləri Təşkilatının (yaradılarkən adı Türkdilli Ölkələrin Əməkdaşlıq Şurası) 15 il öncə, 2009-cu ildə yaradılmasına dair qərarın məhz Naxçıvanda keçirilmiş Zirvə görüşündə qəbul edilməsi də, bu qədim Azərbaycan yurdunun türk dünyası üçün böyük rəmzi əhəmiyyətə malik olduğunu göstərir.

Naxçıvan şəhəri 2018-ci il üçün "İslam mədəniyyətinin paytaxtı" elan edilib. Naxçıvanın islam mədəniyyətinin və gənclərin paytaxtı olması həm də keçmişlə gələcək arasında sağlam körpü, nəsillərarası qırılmaz mənəvi bağlar deməkdir.

İkinci Qarabağ müharibəsindəki şanlı Zəfərimiz isə yeni reallıqlar formalaşdırdı. Qars müqaviləsindən 100 il sonra - 2021-ci il iyunun 15-də Azərbaycan və Türkiyə prezidentlərinin imzaladıqları Şuşa Bəyannaməsi iki dost və qardaş ölkənin Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq etdi. Şuşa Bəyannaməsi Qars müqaviləsinin məntiqi davamı olmaqla, Cənubi Qafqazda münasibətlərin yeni istiqamətdə inkişafının əsasını qoydu. Bu gün istisnasız olaraq qeyd etməliyik ki, həm Qars müqaviləsi, həm də Şuşa Bəyannaməsi regionda sülhə, sabitliyə və əməkdaşlığa təminat verən mühüm tarixi-hüquqi sənədlərdir.

Prezident İlham Əliyevin milli maraqlara əsaslanan, müasir dövrün reallıqları və çağırışlarına cavab verən çoxşaxəli siyasətində türk dövlətləri ilə ortaq mənəvi dəyərlərə və müştərək strateji maraqlara əsaslanan münasibətlərin inkişafı xüsusi yer tutur. Dövlət başçısı türk dünyasında əməkdaşlığın dərinləşdirilməsinə, xüsusilə də Türk Dövlətləri Təşkilatının gücləndirilməsinə böyük önəm verir.

Azərbaycan Prezidentinin ideya və təşəbbüsü əsasında 2009-cu il oktyabrın 3-də imzalanan Naxçıvan Sazişi ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması, mütəmadi olaraq mühüm qərarların qəbul olunduğu Zirvə görüşlərinin keçirilməsi və digər amillər çoxtərəfli əlaqələrin gücləndirilməsi üçün etibarlı zəmin yaratmış, bu təsisat uğurlu inkişaf yolunu keçərək beynəlxalq səviyyədə böyük siyasi çəkiyə və nüfuza malik Türk Dövlətləri Təşkilatına çevrilmişdir. Naxçıvanda əsası qoyulan qardaşlıq bu gün Şuşa zirvəsində daha da möhkəmlənir, daha da təşkilatlanır.

Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Şuşa şəhərində Milli Qurtuluş Günü və Şuşa Bəyannaməsinin imzalanmasının üçüncü ildönümünə həsr olunmuş "Türk Dövlətləri Təşkilatı: geosiyasi reallıqlar və qlobal kataklizmlər fonunda yeni strateji hədəflərə doğru" mövzusunda keçirilən beynəlxalq konfrans da bunu bir daha təsdiqləyir.

Prezident İlham Əliyevin 2023-cü ilin iyulun 5-də imzaladığı "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi barədə sərəncamı isə Naxçıvanın yeni tərəqqisinin yol xəritəsi hesab edilir. Məhz bunun nəticəsidir ki, hazırda muxtar respublika dövlət proqramları və infrastruktur layihələrini uğurla gerçəkləşdirir, ölkənin iqtisadi qüdrətinin artırılmasında və intellektual potensialının gücləndirilməsində yaxından iştirak edir. Naxçıvan beynəlxalq miqyaslı mötəbər tədbirlərin ardıcıl keçirildiyi məkanlardandır.

Prezident İlham Əliyev Naxçıvanın geostrateji mövqeyini artıq qlobal səviyyəyə yüksəldib.

### Naxçıvanda inkişaf faizlərlə deyil, dəfələrlə ölçülür

Naxçıvan bütün sahələr üzrə böyük sürətlə inkişaf edərək, sözün əsl mənasında, möhtəşəm intibah mərhələsi yaşayır. Prezident İlham Əliyevin sərəncamı ilə Naxçıvanda Prezidentin Səlahiyyətli Nümayəndəsi İnstitutunun fəaliyyətə başlaması və məqsədyönlü islahatların uğurla həyata keçirilməsi ilə muxtar respublikada yeni inkişaf mərhələsinin başlanması təmin edilib və qədim diyar bu gün modern yüksəliş dövrünə qədəm qoyub.

Dövlət başçısının təsdiq etdiyi "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" isə qədim yurdumuzun modern inkişafını şərtləndirən çox mühüm sənəddir. Dövlət proqramının Təfsilatlı Tədbirlər Planında nəzərdə tutulan layihələrə nəzər yetirdikdə aydın şəkildə görünür ki, tezliklə muxtar respublikanın sosial-iqtisadi, mədəni həyatında yeni inqilabi yeniliklər olacaq.

Ümumiyyətlə, Naxçıvanın hazırkı inkişafı onu deməyə əsas verir ki, inkişaf faizlərlə deyil, dəfələrlə ölçülür. Bunu sosial-iqtisadi göstəricilərə nəzər yetirsək, aydın görə bilərik.

Məsələn, 2023-cü il maliyyə göstəriciləri baxımından Naxçıvan Muxtar Respublikası üçün uğurlu il olub. Ötən il iqtisadi inkişafın əsas göstəricisi olan ümumi daxili məhsul istehsalı 1 milyard 395 milyon 758 min manat olub, hər bir nəfərə düşən ümumi daxili məhsul istehsalı isə 2 min 988 manat təşkil edib.

2023-cü ildə Naxçıvan Muxtar Respublikası büdcəsinin gəlirləri 152,2 milyon manat plana qarşı 121,13 faiz və ya 184 385 484 manat məbləğində icra edilib, büdcəyə nəzərdə tutulandan 32 163 484 manat çox vəsait toplanıb. İl ərzində Naxçıvan büdcəsinin xərcləri 605 013 000 manat proqnoza qarşı 16,6 faiz və ya 100 696 957 manat az, 504 316 058 manat məbləğində icra edilib. Bu məbləğ 2022-ci ilin analoji xərc göstəricisindən (605 869 766) 101 553 723 manat azdır.

Bu isə o deməkdir ki, Naxçıvan büdcəsi ötən il səmərəli və qənaətlə xərclənib, şəffaflıq, dürüstlük əsas prinsip kimi götürülüb.

2023-cü ildə Azərbaycan Respublikasının mərkəzləşdirilmiş xərclərindən Naxçıvan Muxtar Respublikası büdcəsinə ayrılan dotasiya nəzərdə tutulandan (452 791 000 manat) 30,43 faiz və ya 137 791 000 manat az, 315 milyon manat məbləğində icra edilib. 2023-cü ildə alınmış dotasiya 2022-ci illə müqayisədə (425 milyon manat) 110 milyon manat az olub.

Bu da onu göstərir ki, artıq mərkəzdən asılılıq azalıb, daxildə yeni resurslardan, iqtisadi imkanlardan daha səmərəli istifadə edilib. Muxtar Respublika iqtisadiyyatının davamlı inkişafının təmin edilməsi, yerli resurs və xammalla işləyən, ixrac qabiliyyətli məhsullar istehsal edən sahələrin yaradılması istiqamətində tədbirlər görülüb.

Əminliklə deyə bilərik ki, bütün bu uğurlar Prezident İlham Əliyev tərəfindən Muxtar Respublikada həyata keçirilən islahatların ruhuna uyğundur.

2023-cü ildə muxtar respublikada 593 milyon 899 min manat dəyərində sənaye məhsulu istehsal edilib ki, bunun da 529 milyon 326 min manatı və ya 89,1 faizi malların, 64 milyon 573 min manatı və ya 10,9 faizi isə xidmətlərin payına düşüb. Ümumi sənaye məhsulunun 85 faizi qeyri-dövlət sektorunda istehsal edilib. Sənayenin inkişafı məqsədilə təsərrüfat subyektlərinə bank və kredit təşkilatları tərəfindən 2023-cü ildə 41 milyon 52 min manat kredit verilib ki, bu da bir il öncəki göstəricidən 3,5 dəfə çoxdur. Ötən il muxtar respublikanın kənd təsərrüfatında 358 milyon 429 min manatlıq məhsul istehsal edilib. 2023-cü ildə muxtar respublikada 1094 yeni iş yeri açılıb ki, bu da 2022-ci ildəki müvafiq göstəricidən 2,7 dəfə çoxdur. Açılmış iş yerlərinin 224-ü dövlət sektorunda, 870-i isə qeyri-dövlət sektorunda qeydə alınıb. Bütün açılmış iş yerləri daimi xarakterli olub.

Əhalinin sosial təminatının yaxşılaşdırılması istiqamətində də mühüm işlər görülüb. Belə ki, müvafiq nazirliyin və tabe qurumların fəaliyyəti ilə bağlı elektronlaşmaya dair, ümumilikdə, 17 elektron alt sistem yaradılıb ki, bunlardan 10-u tam və ya qismən tətbiq olunub.

Azərbaycanda dövlət siyasətinin əsas prioritetlərindən olan şəhid ailələrinə, veteranlara diqqət və qayğı hər zaman yüksək səviyyədə həyata keçirilib. Hər zaman şəhid ailələrinə, qazilərimizə xüsusi həssaslıqla yanaşan Prezident İlham Əliyev onların hərtərəfli təminatı üçün fərman və sərəncamlar imzalayıb. Postmüharibə dövründə şəhid ailələri, müharibə əlilləri və həssas təbəqədən olan digər şəxslər mənzil və avtomobillərlə təmin ediliblər və proses bu gün də davam etdirilir. Bütün bölgələrimizdə olduğu kimi, Naxçıvanda da bu kateqoriyadan olan ailələrə xüsusi həssaslıqla yanaşılır.

Ötən il Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu ("Dəstək" Fondu) tərəfindən 195 şəhid ailəsi və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxsə, o cümlədən "Zəfər düşərgəsi"ndə iştirak edən 30 nəfər şəhid övladı və 14 şəhid ailəsi üzvünə, ümumilikdə, 477 min 799 manat məbləğində vəsait xərclənib. Dövr ərzində 3 min 315 şəxs əlillik dərəcəsi alıb. İl ərzində aztəminatlı ailələrə ödənilmiş ünvanlı dövlət sosial yardımının məbləği 5 milyon 140 min 465 manat təşkil edib.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının İcraiyyə Komitəsinin 28 aprel 2023-cü il tarixli məktubuna uyğun olaraq muxtar respublikada yaşayan 2700 aztəminatlı, şəhid və qazi ailələrinə 245,768 manat dəyərində ərzaq sovqatı verilib.

Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının da fəaliyyətinə nəzər yetirsək, burada da uğurlara, atılan müsbət addımlara şahidlik etmiş olarıq. Ötən il Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası tərəfindən 540 nəfərə maddi dəstək göstərilib, 7700 nəfər aztəminatlı ailəyə sovqat göndərilib. Təkcə onu demək kifayətdir ki, ötən 3 ildə Naxçıvanda çox mühüm sosial layihələr həyata keçirilib və 14 min ailəyə yardımlar göstərilib.

Ümumilikdə, bu ilin son 5 ayının göstəriciləri də onu deməyə əsas verir ki, Naxçıvanda bütün sahələrdə yüksəliş davam edir. Bütün bunlar Prezident İlham Əliyevin həyata keçirdiyi islahatların bəhrəsidir desək, yanılmarıq.

Prezidentin Səlahiyyətli Nümayəndəliyinin fəaliyyəti göz önündədir. Naxçıvana hər səfərimdə bu dəyişiklik və inkişafı konkret faktlar, yeni quruculuq, abadlıq məkanlarının timsalında aydın görürəm. Eyni zamanda seçicilərin razılığı da göstərir ki, Naxçıvan yeni hədəflərə doğru düzgün yoldadır. Seçicilərimlə hər dəfə görüşəndə bu dəstəyə, qayğıya görə Prezident İlham Əliyevə təşəkkürlərini, minnətdarlıqlarını çatdırırlar.

### Naxçıvan qlobal "hab"a çevrilir

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda əksini tapmış inkişaf strategiyasının həyata keçirilməsinin 11 istiqamət üzrə ən əlverişli və münasib icra mexanizmləri, maliyyə mənbələri müəyyən edilib. Muxtar respublikanın inkişafının siyasi və iqtisadi cəhətdən qiymətləndirilməsi və proqnozlaşdırılması zamanı elmi prinsiplərə də istinad edilib. Bu mühüm sənəd hazırkı mərhələdə yeni Naxçıvanın meydana çıxmasına imkan yaradacaq.

Sənədə əsasən, Azərbaycan-Türkiyə dövlət sərhədində Araz çayı üzərində yeni körpü tikiləcək; Azad İqtisadi Zona yaradılacaq; vergidən və gömrük rüsumlarından azadedilmə güzəştləri tətbiq olunacaq; yeni aqro və sənaye parkları yaradılacaq; Batabatda və Ordubadda Tematik parklar salınacaq; Naxçıvan şəhərində tramvay xətti çəkiləcək; yeni bərpaolunan enerji (əsasən günəş) stansiyaları, həmçinin istilik-elektrik stansiyaları tikiləcək; UNESCO-nun maddi-mədəni irs nümunələri üzrə əsas siyahısına salınacaq tarixi-memarlıq abidələri müəyyənləşdiriləcək.

Naxçıvanda Azad İqtisadi Zonanın yaradılması muxtar respublikanın inkişaf konsepsiyasının əsas maddəsidir. Bu dövlət proqramının mövcud reallıqlar bölməsində regionun xarici dövlətlərlə sərhəddə yerləşməsi nəzərə alınmaqla bölgədə vergi və gömrük güzəştləri müəyyən edilməklə rəqabətqabiliyyətli ticarət qovşağının yaradılması imkanının dəyərləndirilməsi deməkdir. Muxtar respublikaya investisiyaların cəlb edilməsi və bu investisiyaların artırılması hərtərəfli inkişaf üçün vacibdir.

Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurla yanaşı, Naxçıvanı da "yaşıl enerji zonası" elan edib. Enerji resursları ilə zəngin olmasına və dünyada enerji resurslarının ixracatçısı kimi tanınmasına baxmayaraq, ölkəmizdə bərpaolunan enerji mənbələrindən istifadə hər zaman diqqət mərkəzində olub.

Əlverişli coğrafi mövqedə yerləşən Naxçıvanın münasib iqlim şəraiti burada bərpaolunan enerji istehsalı üçün yaxşı imkanlar yaradır. Bu da muxtar respublikanın region üçün strateji əhəmiyyətini getdikcə artırır. Bütün bunlar istilik-elektrik stansiyalarında yandırılan böyük miqdarda yanacağa qənaətlə yanaşı, ətraf mühitə atılan zərərli tullantıların miqdarını da xeyli azaldacaq.

Qədim Naxçıvan diyarı Şərqlə Qərbin qovşağında, tarixi ticarət yollarının üzərində yerləşdiyi üçün hələ Orta əsrlərdə dünya ipək ticarətinin əsas mərkəzlərindən birinə çevrilmişdi. Həm İrandan Gürcüstan və Dağıstana gedən ticarət yolu üzərində yerləşməsi, həm də Naxçıvan tacirlərinin Avropanın böyük sənaye mərkəzləri ilə geniş əlaqələr qurması bölgənin hərtərəfli inkişafına səbəb olmuşdu.

Naxçıvan Muxtar Respublikasını Azərbaycanla bağlayan dəmir yolu xətti 1941-ci ildən fəaliyyət göstərirdi. Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində 1991-ci ildən bu dəmir yolu xətti fəaliyyətini məcburi şəkildə dayandırdı və bununla da Muxtar Respublikanın Azərbaycanın digər bölgələri ilə quru əlaqəsi tamamilə kəsildi. Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirən və uzunluğu 638 kilometr olan yolun 44 kilometri Ermənistan üzərindən keçir və bu yol 30 il müddətində tam blokada şəraitində olub.

44 günlük Vətən müharibəsində Azərbaycanın möhtəşəm qələbəsi Avrasiyanın geoiqtisadi xəritəsində yeni imkanlar yaratdı. Beynəlxalq nəqliyyat sisteminin yenidən qurulması bir çox Asiya ölkəsi üçün, eləcə də Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan üçün çox əhəmiyyətlidir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının dəmir yolu nəqliyyatının bərpa edilməsinə dair razılaşdırmanın əldə olunması və bu regionu Azərbaycanın digər rayonları ilə əlaqələndirən yeni avtomobil yolunun çəkilməsinin planlaşdırılması qədim diyarın müasir inkişafında xüsusi əhəmiyyətə malik olacaq. Zəngəzur dəhlizi isə Naxçıvanın türk-islam dünyasına açılan qapı kimi rolunu artıracaq. Bununla yanaşı, Naxçıvana quru dəhlizin açılması, bütövlükdə, Azərbaycan iqtisadiyyatının, eləcə də turizmin inkişafı istiqamətində olduqca zəruri addımdır. Ölkəmizin coğrafi imkanları və turizm potensialının artırılması üçün həm işğaldan azad olunmuş torpaqların, həm də Naxçıvan ərazisinin tam formatlı şəkildə inteqrasiyasını təmin etmək üçün bu dəhliz böyük rola malikdir.

Zəngəzur dəhlizi Azərbaycanın Türkiyə vasitəsilə Avropaya, İran yolu ilə Asiyaya, Bakıdan keçməklə Rusiyaya doğru əlaqələrinin genişləndirilməsində böyük rol oynayacaq. Bununla da gələcəkdə regionda həm sosial-iqtisadi münasibətlər, həm də turizm əlaqələri daha da genişlənəcək.

Zəngəzur dəhlizinin açılması ilə Naxçıvana Türkiyə, Rusiya və digər ölkələrdən gələn turistlərin sayı da artacaq. Bu dəhliz türk dünyasına inteqrasiyada da mühüm rol oynayacaq. Türkiyənin Naxçıvan vasitəsilə Orta Asiyaya çıxışı isə qeyd-şərtsiz muxtar respublikanın iqtisadi inkişafına öz töhfəsini verəcək. Türkiyə və Orta Asiya iqtisadi əlaqələrinin ən əlverişli marşrutu üzərində olmaq Naxçıvanı turizm sahəsində daha ön sıralara daşıyacaq. Yəni bu dəhliz Orta dəhlizin əsas xəttini təşkil edəcək.

Ümumi olaraq, ölkə iqtisadiyyatının dayanıqlılığı nöqteyi-nəzərindən dəhlizin açılması uzun müddətli perspektivdə milli iqtisadiyyatımızda investisiyaların xüsusi çəkisinin artmasına səbəb olacaq. Şübhəsiz ki, investisiyaların artımı və digər ölkələrdən Azərbaycanın, o cümlədən Naxçıvanın dayanıqlı iqtisadi artımının sürətlə inkişaf etməsinə müsbət şərait yaradacaq. Eyni zamanda dəhlizin istifadəyə verilməsi ölkəmizdə və muxtar respublikada qeyri-neft sektoru üzrə istehsal edilən məhsulların dünya bazarına çıxarılması imkanlarının genişlənməsinə şərait yaradacaq.

*Yüksəlişinin yeni mərhələsində olan Naxçıvan Prezident İlham Əliyevin islahatlar kursuna uyğun olaraq daha möhtəşəm inkişaf yolunda inamla addımlayır. Tezliklə açılacaq Zəngəzur dəhlizi isə Naxçıvanı qlobal nəqliyyat-tranzit "hab"ına çevirəcək və qədim yurdumuz Avrasiya məkanının mühüm körpüsü statusuna sahiblənəcək.*

***Səttar MÖHBALIYEV,***
***Milli Məclisin deputatı,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri***

# Zəngilan Azərbaycan QHT-lərinin Əməkdaşlıq Forumuna evsahibliyi edir

**Azad edilmiş ərazilərdə - Şərqi Zəngəzurda ilk dəfə iyunun 24-də Azərbaycan Qeyri-Hökumət Təşkilatlarının Əməkdaşlıq Forumu işə başlayıb. Zəngilan Konqres Mərkəzində təşkil olunan forum Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi və Azərbaycan Milli QHT Forumunun birgə təşkilatçılığı ilə keçirilir.**







AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, forumda əvvəlcə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını fəda etmiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub. Sonra Dövlət himni səsləndirilib. Daha sonra Zəngilanda aparılan quruculuq və abadlıq işlərinə dair videoçarx nümayiş olunub.

Rəsmi açılış mərasimində çıxış edən QHT-lərə Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva forumun "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində təşkil olunduğunu diqqətə çatdırıb, tədbirdə QHT-lərin 200-ə yaxın əməkdaşının iştirak etdiyini bildirib.

Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev Şərqi Zəngəzurda aparılan bərpa və quruculuq işləri barədə geniş təqdimatla çıxış edib, azad olunmuş ərazilərdə QHT-lərin forumunun ilk dəfə Zəngilanda keçirilməsini yüksək qiymətləndirib.

Prezident Administrasiyasının QHT-lərlə iş və kommunikasiya şöbəsinin QHT-lərlə iş sektorunun müdiri Tural Əliyev bildirib ki, son dövrlər QHT-lərlə iş sahəsində kəmiyyətdən keyfiyyətə əsaslı keçid baş verib. Bu, Prezident İlham Əliyevin rəhbərliyi ilə QHT sektorunda dərinləşdirilən islahatların, yaradılan sağlam mühitin məntiqi nəticəsidir. QHT sektorunda təşəbbüskarlıq, ictimai nəzarət, hesabatlılıq, şəffaflıq, ixtisaslaşma xeyli dərəcədə yüksəlib. Bu gün cəmiyyət və dövlət həyatında elə bir prioritet sahə yoxdur ki, orada QHT-lər fəal olmasın.

T.Əliyev Prezident İlham Əliyevin müstəmləkəçiliyin yeni təzahürlərinə qarşı dünyaya ünvanlanmış mesajlarının böyük əks-səda yaratdığını vurğulayıb, cəmi bir neçə ay öncə yaranmış "Bakı Təşəbbüs Qrupu" İctimai Birliyinin müstəmləkəçiliyin yeni təzahürlərinə qarşı qlobal mübarizədə dünyada nüfuzlu QHT-yə çevrildiyini diqqətə çatdırıb.

Sektor müdiri onu da qeyd edib ki, Azərbaycan COP29-a evsahibliyi edəcək ölkə kimi iqlim dəyişmələri səbəbindən su altında qalmaq təhlükəsi ilə üzləşmiş kiçik ada dövlətlərinə qlobal dəstəyin təmin olunması üçün fəal iş aparır.

Onun sözlərinə görə, son bir neçə ay ərzində COP29-la əlaqədar 71 ölkədən 367 QHT və ictimai fəal müxtəlif birgə bəyanatlar verərək, Azərbaycanın qlobal iqlim dəyişmələri ilə mübarizəsinə güclü dəstək ifadə ediblər.

Prezident Administrasiyasının nümayəndəsi həmçinin maliyyə şəffaflığı və intizamı ən vacib məqamlardan biri adlandırıb: "Xarici donorlarla işləyən Azərbaycan QHT-lərini bir daha bu xüsusda əməkdaşlıqlarını yalnız Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin müvafiq bildirişi əsasında qurmağa çağırırıq. Bu sahədə xidməti müqavilələr dövrü geridə qalmaqdadır. Qanunsuz hesablaşmalar isə ciddi hüquqi məsuliyyət yaradır. Qrantların "qaranlıq dövriyyəsi" bir sıra hallarda məhz xarici donorlar üçün Azərbaycanın daxilinə sızma cəhdləridir. QHT-ləri bu məsələlərdə son dərəcədə diqqətli olmağa dəvət edirik".

Bir sıra xarici dairələrin hər fürsətdə qəsdən kosmopolit, yad, zərərli ideoloji fikirlər yaymaqla Azərbaycanda güclü olan ənənəvi milli-mənəvi dəyərləri, ailə dəyərlərini, yüksək vətənpərvərlik hisslərini, dini və etnik mühitdəki nümunəvi harmoniyanı zədələməyə çalışdığını bildirən T.Əliyev əlavə edib ki, Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsinə vəsilə olan, tarixi Zəfərimizin əsasını təşkil edən ideoloji, mənəvi dəyərlərə qarşı bu qəsdin, hücumun qarşısının alınmasında Azərbaycan QHT-ləri ön sıralarda yer alır.

Azərbaycan Milli QHT Forumunun İdarə heyətinin sədri Ramil İskəndərli çıxış edərək, QHT-lərin imkanlarından səmərəli istifadə olunması üçün ətraflı təhlil işlərinin aparıldığını bildirib.

Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev, Vətəndaşların Əmək Hüquqlarının Müdafiə Liqası İcraiyyə komitəsinin sədri Sahib Məmmədov QHT sektorunda uğurla transformasiya prosesinin getdiyini diqqətə çatdırıblar.

Daha sonra forum çərçivəsində "Azərbaycan QHT-ləri: nəticələr və hədəflər" adlı panel müzakirələr olub.

Forum işini sabah "Ermənistanın dağmədən sənayesinin ekoloji fəsadları" və "COP29 və Yaşıl Dünya Naminə Həmrəylik Hərəkatı" mövzularında panel müzakirələrlə davam etdirəcək.

# Məqsədimiz Qərbi Azərbaycan həqiqətlərini dünyaya çatdırmaqdır

**Azərbaycan təhsili dünya təhsil sisteminə inteqrasiya edir. Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) müxtəlif ixtisaslar üzrə müəllim hazırlanır. Onların dünya standartları səviyyəsinə çatması üçün yeni ixtisaslar da yaradılır.**



Bu il türk dili və ədəbiyyatı ixtisası üzrə 25 nəfərlik bir qrup açmışıq. Qrupun məzunları Bakıda istənilən türk liseylərində və məktəblərində işlə təmin oluna biləcəklər. Eyni zamanda həmin tələbələrimiz bakalavrı bitirən kimi, magistratura səviyyəsində təhsillərini davam etdirəcəklər. Magistr dərəcəsi aldıqdan sonra Türkiyənin müxtəlif universitetlərində çalışa biləcəklər. 2020-ci ildə ADPU və ABŞ-nin Corc Vaşinqton Universiteti arasında ikili diplom proqramı üzrə saziş imzalanıb. Bu il üçüncü məzun buraxılışımız oldu. Bununla yanaşı, universitetimizin həm MDB ölkələri, həm türk, həm də Avropa dövlətləri ilə əlaqələri var. Bu əlaqələr tələbə mübadiləsi və müəllimlərin ixtisas artırılması yönümündə qurulub. Müəllimlərimiz Rusiyanın, Danimarkanın və başqa ölkələrin mübadilə proqramlarında iştirak edirlər, beynəlxalq konfranslarda təmsil olunurlar, mükafatlar alırlar. Onlar Özbəkisan universitetlərində bizim dərslikdən istifadə edərək "Türk xalqları ədəbiyyatı" fənnini tədris edirlər.

Bu barədə AZƏRTAC-a ADPU-nun prorektoru professor Mahirə Hüseynova məlumat verib. M.Hüseynova xatırladıb ki, 2015-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Müəllimlər İnstitutu ADPU-ya qoşulub və onun 7 filialı (Qazax, Zaqatala, Şəki, Quba, Ağcabədi, Cəlilabad, Şamaxı) Pedaqoji Universitetin strukturuna çevrilib. Bakı Sənaye-Pedaqoji Kolleci Azərbaycan Dövlət Pedaqoji Kollecinə birləşdirilməklə ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci kimi fəaliyyət göstərməyə başlayıb. 2016-cı ildə Bakı Sənaye-Pedaqoji Kolleci Azərbaycan Dövlət Pedaqoji Kollecinə birləşdirilməklə ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci kimi fəaliyyət göstərir. Müəllim və tələbələrdən ibarət 21 mindən yuxarı kontingentimiz var. Beş bölgədə - Ağcabədi, Şamaxı, Quba, Cəlilabad, Şəkidə institutun filialları fəaliyyət göstərir. Hər bir bölgədə fəaliyyət göstərən filiallarla geniş əlaqələrimiz var.

Professor M.Hüseynova Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Beynəlxalq əlaqələr üzrə prorektorluğun təşkilatçılığı ilə fəaliyyətə başlayan Qərbi Azərbaycan Araşdırmalar Mərkəzi və Türkoloji Mərkəzin fəaliyyətindən, elmi araşdırmalardan bəhs edib. M.Hüseynova Pedaqoji Universitetdə Qərbi Azərbaycan Araşdırmalar Mərkəzi və Türkoloji Mərkəzin fəaliyyətə başlamasının həm universitet, həm də dövlətimiz üçün əhəmiyyətli hadisə olduğunu vurğulayıb.

Prorektor Elm və Təhsil Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi, Təhsil İnstitutu, Qərbi Azərbaycan İcması və Naxçıvan Dövlət Universitetinin tərəfdaşlığı ilə "Qərbi Azərbaycana qayıdış" mövzusunda keçirilən olimpiadanı yüksək qiymətləndirib: "Olimpiadanın təşkilində məqsəd şagirdlər arasında Qərbi Azərbaycanın tarixi, coğrafiyası, mədəniyyəti, ədəbiyyatı, görkəmli ictimai xadimləri, tarixi şəxsiyyətləri, toponimləri, folkloru haqqında maarifləndirmə işləri aparmaq və biliklərin dərindən öyrənilməsini təmin etməkdir. "Qərbi Azərbaycana qayıdış" olimpiadasının final mərhələsi Naxşıvanda təşkil olunub. IX və X sinif şagirdlərinin iştirak etdikləri olimpiadanın finalında 36 şagird bilik və bacarığını sınayıb. Olimpiadada 18 qalib seçilib. Gələcəkdə bu mövzuda Türkiyə ilə birgə tədbirlərin keçirilməsi planlaşdırılır. Bu məqsədlə bir qrup ziyalı Türkiyənin ölkəmizdəki səfirliyinin mətbuat müşaviri Alptekin Cihangir İşbilir ilə görüşüb. Məqsədimiz birgə tədbirlər keçirərək Qərbi Azərbaycan həqiqətlərini dünyaya çatdırmaqdır".

# Qarabağa qayıdış Qərbi Azərbaycana qayıdışın müjdəsidir

**Qərbi azərbaycanlıların öz doğma yurdlarına qayıdışı tarixi bir zərurətdir. Ədalətin bərpası, soydaşlarımızın təməl hüquqlarının təmin edilməsi istiqamətində növbəti addımdır. Hər kəsin öz əzəli vətənində yaşamaq hüququ var və bu hüquq beynəlxalq konvensiyalarda öz əksin tapıb.**



Azərbaycan xalqı Müzəffər Ali Baş Komandanın qüdrəti, apardığı uğurlu xarici və daxili siyasəti sayəsində Qərbi azərbaycanlıların da öz doğma torpaqlarına qayıdacağı günün heç də uzaqda olmadığına tam əmindir.

2020-ci ildə Azərbaycan Prezidentinin siyasi iradəsi, diplomatik gücü və hərbi sərkərdəlik bacarığı nəticəsində 30 ilə yaxın işğal altında qalan torpaqlarımız 44 gün ərzində düşməndən azad edildi. Vətən müharibəsində Azərbaycanın qazandığı Zəfər tariximizə yeni bir salnamə həkk etdi. Azərbaycan dövlətinin və xalqının qüdrətini, sarsılmaz iradəsini, ordumuzun gücünü beynəlxalq səviyyədə nümayiş etdirən möhtəşəm qələbə yeni reallıqlar yaratdı. Ölkəmiz 24 saatdan az bir vaxtda reallaşdırdığı antiterror tədbirləri ilə öz qətiyyətini bütün dünyaya növbəti dəfə nümayiş etdirdi. Dövlətimiz qalib dövlət, xalqımız isə qalib xalq kimi dünya tarixinə öz möhürünü vurdu. Azərbaycan Ordusu yazdığı tarixlə işğalçı Ermənistana və ona havadarlıq edən dövlətlərə ədalət, hüquq, milli qürur dərsi keçdi. Azərbaycan dövləti postsovet məkanında suverenliyini və ərazi bütövlüyünü bərpa edən ilk dövlət kimi tarixə düşdü. Azərbaycanın ağrılı problemlərindən olan Qarabağ məsələsi birdəfəlik həll edildi. Ardınca dövlətimizin başçısının uğurlu diplomatik siyasəti nəticəsində olduqca mürəkkəb geosiyasi mövqedə yerləşən ölkəmiz tarixi nailiyyətlərə, zəfərlərə, qələbələrə imza atmağa davam etdi. Azərbaycan ərazisində müvəqqəti olaraq yerləşdirilmiş Rusiya Federasiyası sülhməramlıları vaxtından əvvəl çıxarıldı, 4 kəndimiz bir güllə atılmadan geri qaytarıldı.

Qələbəmizdən doğan tarixi reallıqların nəticəsidir ki, qarşıda soydaşlarımızı Qərbi Azərbaycana qayıdış gözləyir. Ölkə rəhbərinin də qeyd etdiyi kimi: "Hazırda isə tarixi qələbəmizdən sonra yaranan yeni reallıqda ən mühüm vəzifələrdən biri Qərbi Azərbaycandan qaçqın düşmüş vətəndaşlarımızın öz yurdlarına qayıtması məsələsidir". Bu hədəfi Prezident İlham Əliyev 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündəki nitqində bəyan etdi. "Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar", - deyə dövlətimizin başçısı vurğulayıb.

Prezident İlham Əliyevin Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü zamanı müəyyənləşdirdiyi tapşırıqlara uyğun olaraq ölkəmizdə Qərbi Azərbaycana qayıdışla bağlı konsepsiya qəbul edildi. Sistemli layihələrin həyata keçirilməsinə başlanıldı.

Butün istiqamətlərdə olduğu kimi, ölkə Prezidenti cənab İlham Əliyevin Qərbi Azərbaycana qayıdışla bağlı səsləndirdiyi fikirlər və bu tezislərdən irəli gələn məsələlər Naxçıvanda daim diqqətdə saxlanılır. Muxtar Respublika ictimaiyyəti, ziyalıları, alimləri bu yöndə öz birliklərini nümayiş etdirirlər.

Bu istiqamətdə atılan ən mühüm addımlardan biri də ölkədə ilk dəfə olaraq "Qərbi Azərbaycana qayıdış" festival-konqresin reallaşdırılmasıdır. 23-24 noyabr 2023-cü il tarixlərində Naxçıvanda "Qərbi Azərbaycana qayıdış" adlı festival və hər il davam etməsi planlaşdırılan "Qərbi Azərbaycana qayıdışa gedən yol" adlı konqres keçirildi. Festival-konqresin əsas məqsədlərindən biri də tarixi ədalətin bərpa edilməsi yolunda Prezident İlham Əliyevin yurd-yuvasından didərgin, qaçqın düşmüş Azərbaycan türklərinin tarixi haqlarının bərpasına istiqamətlənmiş siyasətin elmi əsaslarla həm yerli, həm regional, həm də beynəlxalq səviyyədə işıqlandırılmasına nail olmaq, ölkənin müxtəlif universitet, akademiya və elmi-tədqiqat institutlarında, həmçinin qardaş Türkiyə universitetlərində fəaliyyət göstərən tədqiqatçıları bir araya gətirmək, onların Qərbi Azərbaycanla bağlı əldə etdikləri elmi yenilikləri dinləmək və fikir mübadiləsi aparmaq idi.

Festival-konqresdə Müzəffər Ali Baş Komandan, ölkə Prezidentinin ziyalılar, tədqiqatçılar qarşısında qoyduğu strateji tapşırıqların icrası istiqamətində ölkə alimləri, mədəniyyət və sənət adamları bir araya gəldilər. Qərbi Azərbaycandan zorla köçürülən soydaşlarımız bu elmi, mədəni-kütləvi tədbirlərdə birləşdilər.

Son yüzillik tariximizdə ilk dəfə Qərbi Azərbaycan maddi-mədəniyyət nümunələri, sənət əsərləri, ailə-məişət ənənələri, milli geyim kolleksiyaları, zəngin folklor və şifahi xalq ədəbiyyatı nümunələri, mahnıları, yallıları, aşıq havaları, rəqslər təqdim edildi. Mövzu ilə bağlı filmlərin təqdimatı, Naxçıvan Dövlət Universitetinin kulinariya sərgisi, tarixi və müasir rəsm əsərləri, dekorativ tətbiqi sənət əsərləri, kitab, monoqrafiya, məqalələr, yaradıcılıq nümunələri kompleks şəkildə nümayiş olundu. Naxçıvan Dövlət Universitetində keçirilən konqresdə 17 bölmə iclasında ölkəmizin müxtəlif elm, təhsil müəssisələrinin alimlərinin 200-dən artıq mövzuya dair məruzələri dinlənildi.

Bu il də 21-22 iyun tarixlərində keçirilən növbəti "Qərbi Azərbaycana qayıdış" festival-konqresi ötən il olduğu kimi Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə reallaşdırıldı.

Ötən ildən fərqli olaraq builki festival Zəngəzur Milli Parkında, Batabat yaylağında, konqres isə Naxçıvan Dövlət Universitetində keçirildi. Naxçıvan şəhərində Ulu Öndər Heydər Əliyevin Muzeyini ziyarətlə başlayan festival-konqresin rəsmi açılış tədbiri Zəngəzur Milli Parkında, Batabatda rəsmiləşdirildi. Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyasının "Dərələyəz" kompozisiyası ilə başlayan tədbirdə Qərbi Azərbaycana həsr olunmuş video-çarx nümayiş etdirildi. Festival-konqresi Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli açaraq Qarabağa və Şərqi Zəngəzura Böyük qayıdışın davamı olaraq Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Qərbi Azərbaycana da qayıdışın qısa vaxtda reallaşacağını tədbir iştirakçılarının diqqətinə çatdırdı. Azərbaycan Respublikasının Elm və Təhsil naziri Emin Əmrullayev, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli və digər çıxış edənlər Qərbi Azərbaycana qayıdışın ləyaqətli şəkildə reallaşacağına əminliklərini ifadə etdilər. Ardınca "Qərbi Azərbaycana qayıdış" olimpiadası qalibləri mükafatlandırılıb, Naxçıvan Dövlət Universiteti və Azərbaycan Milli Konservatoriyasının sənət adamlarının ifasında konsert proqramı, Naxçıvan Dövlət Universiteti Musiqi Kollecinin təqdimatında "Misri" kompozisiyası nümayiş olunub.

Builki festival-konqresdə Qərbi Azərbaycandan olan iki gəncin toy mərasimi keçirilib. Qərbi Azərbaycan toy adətləri: "Elçilik", "Nişantaxma", "Paltarbiçmə", "Çörəküstü", "Xına" "Gəlinköçürmə" kimi mərasimlər nümayiş olunub. Naxçıvan Dövlət Universitetinin Texnologiya Mərkəzi tərəfindən Qərbi Azərbaycan mətbəxinə məxsus olan kulinariya sərgisinə 60-dan çox yemək, 44 çeşid meyvə və meyvə qurusu, 30 adda müalicəvi bitki, 94 növ mürəbbə, 12 adda bitki çayı, 13 növdə şirniyyat, 20-dən çox adda xoşab və meyvə şirəsi çıxarılıb.



Festivalda Qərbi Azərbaycana məxsus 11 mahalı əks etdirən çadırlarda muxtar respublikanın icra hakimiyyətləri və dövlət qurumları tərəfindən müxtəlif sahələri özündə əks etdirən sərgilər təşkil olunub. Sərgidə Qərbi Azərbayan mədəniyyətinə aid milli geyim nümunələri, məişət əşyaları, quramalar, xalçalar, keçə sənəti nümunələri, bədii tikmələr, Qərbi Azərbaycan xəritəsini əks etdirən dekorativ sənət nümunələri, Qərbi Azərbaycanı təbliğ edən suvenirlər, müəllim və tələbələr tərəfindən hazırlanmış Qərbi Azərbaycana məxsus tarixi abidələrin maketləri, rəsm əsərləri, etüdlər təqdim edilib.

Festival-konqresin ikinci günü Naxçıvan Dövlət Universitetində davam edib. 7 istiqamət üzrə 30-a yaxın bölmədə 300-dən çox məruzə dinlənilib. Konqresdə ölkənin müxtəlif universitet, akademiya və elmi-tədqiqat institutlarında, həmçinin qardaş Türkiyə universitetlərində fəaliyyət göstərən tədqiqatçılar bir araya gələrək Qərbi Azərbaycanla bağlı əldə etdikləri elmi yenilikləri müzakirə edib, fikir mübadiləsi aparıb, Qərbi Azərbaycanın tarixi, mədəniyyəti, iqtisadiyyatı, incəsənəti ilə bağlı araşdırımalarını təqdim ediblər. Festival-konqresdə 10-dan çox Qərbi Azərbaycanın müxtəlif sahələrini əks etdirən kitab təqdimatları keçirilib. Festival-konqres ölkə mediası daxil olmaqla ümumilikdə 190 adda qəzet, jurnal, televiziya, xəbər saytlarında işıqlandırılmışdır. Eləcə də 20-dən çox xarici ölkə mediasında yer almış və həmçinin bundan narahatçılıq keçirən Ermənistan mediasında təşvişə səbəb olmuşdur.

Festival-konqresin gedişində Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin dediyi: "Bizi Qərbi Azərbaycana böyük qayıdış gözləyir" hədəfi istiqamətində bütün iştirakçılar tərəfindən birlik və əminlik ifadə edilmiş, Qərbi Azərbaycanda ermənilərin və onlara havadarlıq edənlərin xalqımıza qarşı məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasəti, milli faciə və vandalizm faktları geniş şəkildə ictimaiyyətə çatdırılmışdır. Ermənilərin doğma torpaqlarımızda yerləşdirilmələri, azərbaycanlıların planlı surətdə doğma yurdlarından qovulması ilə bağlı tarixi faktlara söykənilmiş, yeni, dolğun məlumatlar təqdim edilmiş, Qərbi Azərbaycana məxsus maddi mədəniyyət nümunələri nümayiş olunmuş, etnomədəni siyasətin qurbanı olmuş yer adlarımızın - toponimlərin, oykonimlərin, hidronimlərin dəyişikliyə məruz qalmasının tarixi faktlara söykənərək elmi əsaslarla təsdiqinə və dünya elmi ictimaiyyətinə çatdırılmasına çalışılmışdır.

Butün istiqamətlərdə olduğu kimi, ölkə Prezidenti cənab İlham Əliyevin Qərbi Azərbaycana qayıdışla bağlı səsləndirdiyi fikirlər və bu tezislərdən irəli gələn məsələlər festival-konqresin iştirakçıları tərəfindən gündəlik fəaliyyət istiqaməti olaraq müəyyən edilib.

Xalqımız Müzəffər Ali Baş Komandanın qüdrəti və apardığı uğurlu xarici və daxili siyasəti sayəsində Qərbi azərbaycanlıların da öz doğma torpaqlarına qayıdacağı günün uzaqda olmadığına tam əmindir və öz liderinin ətrafında sıx birləşərək yeni qələbələrə zəmin yaradır.

***Arzu ABDULLAYEV,***
***Naxçıvan Dövlət Universitetinin prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent***




# "Yaşıl" və davamlı inkişaf naminə qlobal və milli çağırışlar

Bu gün dünyada qlobal iqlim dəyişmələrinin mənfi təsirinə qarşı mübarizə, əsasən, iki istiqamətdə aparılır. Onlardan biri Çərçivə Konvensiyasının məqsədinə (Paris Sazişinin tələbi olaraq dünyada karbon qazının miqdarını azaltmaqla qlobal istiləşməni ən pis halda 2, yaxşı halda 1,5OC ilə məhdudlaşdırmaq) daxildir, yəni əsas məqsəd karbon emissiyasının azaldılması ilə daha çox dəyişilmənin qarşısının alınmasından, onun təsirlərinin yumşaldılmasından ibarətdir. Bununla bağlı, konvensiyanın tərəfləri öz üzərlərinə bir sıra öhdəliklər götürmüşlər, burada elmin rolu bu öhdəliklərin yerinə yetirilməsinin iqtisadi artıma, əhalinin rifah halına, aclıq və yoxsulluğa qarşı mübarizəyə ciddi təsir etməməsi üçün yolların tapılmasından ibarətdir.

Digər istiqamət təsərrüfat fəaliyyətlərinin, xüsusən kənd təsərrüfatı sistemlərinin, burada istifadə edilən bitki sortları və heyvan cinslərinin iqlimin dəyişmələrinə uyğunlaşmasına nail olunması, müvafiq stres amillərinə davamlı, adaptiv və məhsuldar genotiplərin, eləcə də yeni becərmə və yetişdirilmə texnologiyalarının yaradılması və tətbiqindən ibarətdir.

Klassik seleksiyanın imkanlarının tükəndiyi, əkin və otlaq sahələrinin əhəmiyyətli dərəcədə genişləndirilməsinin mümkün olmadığı, quraqlıq stresinin gücləndiyi müasir dövrümüzdə ərzaq təhlükəsizliyini təmin etməyin yeganə yolu seleksiya fəaliyyətlərində, əkinçilik və heyvandarlıq təcrübəsində məhz elmin müasir biotexnoloji və rəqəmsal metodlarından, genomiks kimi yüksək texnologiyalardan istifadə etməklə aparılan elmi-tədqiqatlar ola bilər. Bütün bunların vaxtında dərk edildiyi, müvafiq strategiyaların qurularaq həyata keçirildiyi ölkələrdə nəinki ərzaq təhlükəsizliyi problemi həll edilmişdir, bu ölkələr həmçinin aqrar bölməni ekologiyaya az ziyan vurmaqla, yüksək gəlir gətirən iqtisadiyyat sahəsinə çevirə bilmişlər. Bu gün inkişaf etmiş ölkələrdə davamlılıq kimi multimürəkkəb əlamətlərin genetik "arxitekturası"nın təyini üzrə irimiqyaslı genetik tədqiqatlar aparılır. Milli səviyyədə məqsədlərin gerçəkləşdirilməsi üçün Azərbaycan elmi də müvafiq problemlərin həlli istiqamətində dünya ilə ayaqlaşmaq məcburiyyətindədir.

Akademik Cəlal Əliyevin yaratdığı AR ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunda AR KTN Əkinçilik ET İnstitutu ilə əməkdaşlıqda yuxarıda qeyd olunmuş istiqamətlərdə bir sıra mühüm fundamental və tətbiqi nailiyyətlər əldə olunmuş, rəqəmsal fenomiks, genomiks, molekulyar, biokimyəvi, morfo-fizioloji və biofiziki parametrlərin bioinformatik proqramlarla kompleks müqayisəli analizinin nəticələri artıq davamlı sortların yaradılmasında birbaşa tətbiq edilmişdir.

Bütün tarix ərzində insan cəmiyyətinin yaşamaq üçün mübarizə gedişində təbiət üzərində apardığı irihəcmli eksperimentlər, o cümlədən Neolit inqilabı, ictimai-siyasi formasiyaların dəyişməsi, dünyanın daim yenidən bölüşdürülməsi uğrunda böyük müharibələr müəyyən qrup toplumların əsasən ötəri, konkret, fiziki və hegemonluq ehtiyaclarının ödənməsinə xidmət göstərməklə yekunda ətraf mühitdə ciddi dağıdıcı izlər buraxmışdır. Lakin bəşəriyyət ətraf mühitə az ziyan vurmaqla özünə uyğun nəticələrin məhz elmin və elm adamlarının iştirakı ilə əldə edilməsi üzrə bu günə kimi nadir rast gəlinən proseslərə də şahidlik etmişdir. Bunlardan biri dünyanın yaşıl örtüyünün qorunması, təbii landşaftların, meşə və otlaq ekosistemlərinin deqredasiyasının imkan daxilində azaldılması şərtilə əhalinin ərzaq, geyim, təsərrüfat ehtiyaclarının ödənməsində mühüm mərhələ olmuş "yaşıl inqilab" hesab edilə bilər.

"Yaşıl inqilab" termini ilə 1940-cı illərlə 1970-ci illərin sonları arasında dünyada ərzaq təhlükəsizliyini təmin etmək üçün kənd təsərrüfatı sistemləri və istehsalı ilə bağlı bir sıra tədqiqat və texnologiyaların yaradılması, inkişafı və ötürülməsi istiqamətində həyata keçirilən təşəbbüslər adlandırılmışdır.

"Yaşıl inqilabın atası" hesab olunan Nobel mükafatı laureatı Norman Borlaugun və ardıcıllarının ideyaları və tədqiqatları 1960-1970-ci illərdə milyarddan çox insanı aclıqdan xilas etməklə yanaşı, əkin sahələrinin meşələr, otlaqlar, savannalar, digər yaşıl örtük daşıyıcıları hesabına artırılmasının qarşısını almağa yardım etmiş, təbii ehtiyatlardan səmərəsiz istifadəni azaltmaq imkanı yaratmışdır. İnqilabi yenilik ondan ibarət idi ki, kənd təsərrüfatı istehsalı intensiv əsaslara keçirilir, aqrar sahəyə investisiyalar artırılır, sintetik gübrələrin və pestisidlərin kütləvi istifadəsi, proseslərin mexanikləşdirilməsi, yüksək məhsuldar sortların əldə edilərək tətbiq olunması və bunun üçün genetik yaxşılaşdırılma kimi tədqiqat fəaliyyətləri sistem halında birləşdirilirdi. Qeyd edilənlərin hesabına dünyada kənd təsərrüfatı məhsullarının, xüsusən də buğda, düyü, qarğıdalı kimi dənli bitkilərin məhsuldarlığının və ümumi istehsalının güclü artımı mümkün olmuşdu. Amma kimyəvi zəhərli vasitələrdən geniş istifadə nəticəsində bu inqilabın ətraf mühitə mənfi təsirləri də olmuşdur ki, bunlar ekosistemlərin keyfiyyətini aşağı salmışdır. Ona görə də bu gün dünyada "ikinci yaşıl inqilab"a cəhdlər edilməkdədir. Məqsəd yeni elmtutumlu innovativ texnologiyaları yaratmaq və kənd təsərrüfatında tətbiq etməklə daha məhsuldar, keyfiyyətli ərzaq məhsullarının əldə edilməsinə, aqroekosistemlərin bütövlüyünü saxlamaqla, ətraf mühitin sağlamlığına zərər verməməklə nail olunmasından ibarətdir.

*(əvvəli qəzetin 23 iyun tarixli nömrəsində)*

Ətraf mühitə, təbiətin gözəlliklərinə həssas münasibət, "yaşıl dünya"nın sərvətlərindən ekologiyaya, canlı növlərə zərər verilmədən istifadə olunması tarixən Azərbaycan coğrafiyasında yaşamış xalqların ənənəvi fərqləndirici xüsusiyyətlərindən olmuş, müvafiq dünyagörüşü yerli folklorda, sənət əsərlərində, tarixi mədəniyyət abidələrində, klassik ədəbiyyatda geniş şəkildə əks edilmişdir.

XX əsrin ikinci yarısında və XXI əsrdə Azərbaycan xalqının və dövlətçiliyinin siyasi və mənəvi liderliyi missiyasını böyük şərəf və uğurla həyata keçirmiş Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin daha da inkişaf etdirdiyi ekologiyanın sağlamlaşdırılmasına, təbiətin yaşıl örtüyünün genişləndirilməsinə istiqamətlənmiş siyasi kurs bu mənada olduqca xarakterikdir və bütün dünyaya nümunə göstərilə bilər.

Heydər Əliyev ölkəyə rəhbərlik etməyə başladığı andan karbohidrat ehtiyatları hasil edən, ərazisinin məhdudluğu ilə müqayisədə kifayət qədər karbon emissiyasına malik olan, neft-kimya sənayesinin miqyası və gücü, kənd təsərrüfatı sistemi ilə fərqlənən ölkənin ekoloji vəziyyətinin yaxşılaşdırılmasına, ətraf mühitin mühafizəsinə, təbiətdən səmərəli istifadə məsələlərinə hər zaman böyük diqqət yetirmiş, Azərbaycanın bioloji müxtəlifliyin qorunub saxlanmasını özünün dövlətçilik fəaliyyəti üçün başlıca məqsədlərdən biri kimi müəyyənləşdirmişdir.

Ulu Öndərin Azərbaycanın elm adamlarının, o cümlədən böyük təbiətşünas alim akademik Həsən Əliyevin "Həyəcan təbili" əsərində qaldırdığı problemlərin ciddi təhlili və həlli yollarının araşdırılmasına əsaslanan bu siyasətində doğma Azərbaycanın yaşıl aləminə, zəngin bitki örtüyünə, əsrarəngiz landşaftlarına, gözəl təbiətinə özünün formalaşdırdığı azərbaycançılıq ideyası prizmasından yanaşması mühüm rol oynamışdır.

1970-ci illərin əvvəllərindən başlayaraq Ulu Öndərin məqsədyönlü siyasəti və planlı fəaliyyəti sayəsində təbiətin Azərbaycana verdiyi imkan və potensialdan daha geniş və səmərəli istifadə edilməyə başlanmış, ölkənin bioloji ehtiyatlarının qorunub-saxlanması, nəsli kəsilmək təhlükəsi altında olan bir sıra bitki və heyvan növlərinin bərpa edilərək reintroduksiyasına nail olunması, areallarının genişləndirilməsi üçün geniş həcmdə işlər aparılmış, yeni-yeni yaşıl massivlərin, meşə zolaqlarının salınması kütləvi xarakter almış, prosesə geniş şəkildə dövlət resursları və əhali cəlb olunmuşdu.

1969-cu ildən başlayaraq, bu cür ərazilərin sayının artırılması və sahələrinin genişləndirilməsi xüsusilə intensivləşmişdir. Burada Ulu Öndərin qətiyyəti və uzaqgörənliyi sayəsində yaradılmış dövlət təbiət qoruqlarını, yasaqlıqları, o cümlədən 1969-cu ildə təşkil edilmiş və Heydər Əliyevin 2003-cü il 5 iyul tarixli sərəncamı ilə milli parka çevrilmiş Şirvan qoruğunu, 1978-ci ildə Ağ göl, 1981-ci ildə İsmayıllı qoruqlarının formalaşdırılmasını, Azərbaycan SSR Nazirlər Sovetinin 4 iyul 1974-cü il tarixli qərarı ilə Bəsitçay çinar meşəsinin qoruq elan edilməsini xüsusi qeyd etmək lazımdır.

Bildiyimiz kimi, quru yarımsəhra iqlimi zonasında yerləşən Bakı və Abşeron yarımadasında bir ağac əkib ərsəyə gətirmək üçün uzun illərin zəhməti və elmi əsaslı qulluq, resurslar tələb olunur. Tarix göstərdi ki, həqiqi vətənpərvərlik və xalqsevərlik, təbiətə real sevgi, güclü istək, dəmir iradə sayəsində səhralarda da "yaşıl dünya" yaratmaq mümkündür. Bu bir faktdır ki, 1970-ci ilə qədər, təqribən 50-60 il ərzində Bakı şəhərində adambaşına düşən yaşıl sahəni yalnız 6,5 kvadratmetrə çatdırmaq mümkün olmuşdusa, Ulu Öndərin təşəbbüsü ilə 7 sentyabr 1971-ci ildə Bakı şəhərinin yaşıllaşdırılması haqqında verilmiş mühüm qərar sayəsində 1975-ci ildə bu göstərici 17,5 kvadratmetr olmuşdu.

Böyük Liderin təşəbbüsləri ilə 1969-1982-ci illərdə Ceyranbatan gölünün su təchizatının yaxşılaşdırılması, yeni su kəmərlərinin və kanallarının çəkilməsi, Arpaçay, Vayxır, Şamxor su anbarlarının və s. yeni su obyektlərinin tikilməsi, Baş Mil-Muğan kollektorunun yenidən qurulması, Kür-Araz düzənliyində 280 min hektar sahədə torpaqların yuyularaq duzlardan təmizlənməsi qlobal iqlim dəyişmələrinin intensivləşdirdiyi stres amillərinə qarşı görülən vacib tədbirlər olmuşdur. Bu istiqamətdə atılmış addımlar sırasında həmçinin ümumi suvarılan əkin sahələrinin 1450 milyon hektara çatdırılması, 550 min hektar sahədə kompleks meliorasiya sistemlərinin yaradılması, 400 min hektar sahədə otlaqlara su çıxarılması göstərilə bilər.



Azərbaycan müstəqillik qazanandan sonra xalqın çağırışı ilə hakimiyyətə qayıdan və xilaskarlıq missiyasını uğurla həyata keçirən Ümummilli Liderin ilk addımlarından biri də "yaşıl dünya" məfkurəsinin yenidən ön plana çıxarılması olmuşdur. Təbiətə qarşı hər hansı dağıdıcı və ya etinasız hərəkətdən dərin narahatlıq hissi keçirən Ulu Öndərin ətrafda gördüklərinə etinasız yanaşması mümkün deyildi: "Mən 1993-cü ildə Bakıya gələrkən, bizim əkdiyimiz, becərdiyimiz bəzi ağacların kəsilməsini görərkən, elə bildim ki, məni yaralayıblar. Mən dəfələrlə demişəm, bir də deyirəm, kim hansı bir sağlam ağacı kəsirsə, hesab edin ki, o, mənim qolumu, barmaqlarımı kəsir... İnsan qurmalıdır, yaratmalıdır... hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir.

Azərbaycanda müvafiq tədqiqat və təhsil müəssisələrinə, nəbatat bağlarına göstərilən yüksək diqqət və qayğı, akademik Cəlal Əliyevin rəhbərliyi ilə Genetik Ehtiyatlar üzrə Milli Proqramın qəbulu və həyata keçirilməsi, Biomüxtəliflik üzrə Dövlət Komissiyasının, ölkədə ilk Milli Bitki Genbankının, digər toxum banklarının yaradılması, "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsi üzrə Milli Strategiya və Fəaliyyət Planı"nın (2006) qəbulu və sonrakı illərdə dəfələrlə yenilənməsi, tədqiqat institutlarının inkişafı və yenilərinin təşəkkülü, botanika bağları şəbəkəsinin genişləndirilməsi və s. Ulu Öndərin Azərbaycan təbiətinə məqsədyönlü hamiliyinin bariz nümunələri olmaqla həm xalqımız, həm də bütün tərəqqipərvər bəşəriyyət tərəfindən yüksək dəyərləndirilmiş və təqdir edilmişdir.

Ulu Öndərin "yaşıl dünya" ilə bağlı siyasi kursu Azərbaycanın təbiətinə, bioloji müxtəlifliyinə daim xüsusi həssaslıqla yanaşan Prezident İlham Əliyev tərəfindən 2003-cü ildən böyük uğurla davam və daha da inkişaf etdirilmişdir. Dövlət başçısının rəhbərliyi ilə Azərbaycanda ətraf mühitin sağlamlaşdırılması, biomüxtəlifliyin qorunub saxlanması istiqamətində inanılmaz dərəcədə böyük işlər görülmüşdür. Prezidentin aşağıdakı sözləri aparılan fəaliyyətlərin leytmotivi hesab edilə bilər: "İnsanın yaxşı həyatını təmin edən amillərdən biri də ekoloji vəziyyət, sağlamlıq və təbiətin, ətraf mühitin qorunmasıdır. İnsanların sağlamlığı, ekoloji vəziyyət, udduğumuz hava, içdiyimiz su - bütün bunlara biz çox böyük diqqət göstərməliyik..."

Heydər Əliyev Fondu və IDEA İctimai Birliyi tərəfindən respublikamızda nadir və həssas növlərin bərpası məqsədilə əhəmiyyətli tədbirlər, o cümlədən ceyran, bəbir, bizon, bezoar keçisi, muflon və maralların tarixi yaşayış məskənlərində bərpa edilməsi, fondun "Hərəmiz bir ağac əkək" kimi layihələri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə bir gündə 650 min ağacın əkilməsi təşəbbüsü, mütəmadi həyata keçirilən "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair Milli Strategiya"lar və fəaliyyət planları, 2010-cu ilin "Ekologiya ili" elan olunması, Cənubi Qafqazda ilk dəfə Azərbaycanda Vəhşi Təbiətin Bərpası və Reabilitasiya Mərkəzinin yaradılması, Ulu Öndərin 100 illik yubileyi münasibətilə xüsusilə böyük vüsət almış və bütün ölkəni (həmçinin işğaldan azad edilmiş əraziləri) əhatə edən ağacəkmə kampaniyaları ekologiyanın sağlamlaşdırılması istiqamətində atılan addımlara, görülən işlərə gözəl nümunələrdir. Bütün bu proseslərdə Mehriban xanım Əliyevanın rolu və xidmətləri də xüsusi qeyd edilməlidir. Mehriban xanımın özü və rəhbərlik etdiyi qurumlar tərəfindən Azərbaycan və azərbaycançılıq naminə, xalqımızın rifahı, haqq səsinin dünyaya çatdırılması üçün, biomüxtəlifliyin mühafizəsi, nadir və itmək təhlükəsində olan heyvan və bitki növlərinin bərpası istiqamətində görülən müqayisəyəgəlməz işlər xalq arasında olduğu kimi, dünyada da rəğbətlə qarşılanmış, həmçinin ölkəmizin və azərbaycanlı məfhumunun beynəlxalq imicinə da müsbət təsir etmişdir.

Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi strateji qərar olmaqla, "yaşıl iqtisadiyyat"ın, "yaşıl enerji"nin, "yaşıl texnologiyalar"ın, "yaşıl dünya"nın inkişafına, respublikada "yaşıl ətraf mühit"in və "yaşıl artım"ın təmin edilməsinə töhfə verəcəkdir.

Bildiyiniz kimi, enerjinin davamlılığı ətraf mühitə, iqtisadiyyata və cəmiyyətə təsirlərinə görə müəyyən edilir. Enerji o zaman davamlı hesab olunur ki, "bugünkü ehtiyacları gələcək nəsillərin öz ehtiyaclarını ödəmək qabiliyyətinə xələl gətirmədən ödəsin".

Ekoloji tarazlığın qorunub saxlanılması "yaşıl iqtisadiyyat"a keçidlə - enerjinin alınması, çevrilməsi və enerjidən istifadənin innovativ yollarla yenilənməsi ilə sıx bağlıdır. Dünyada mineral yanacaq ehtiyatlarının azalması fonunda bəşəriyyətin ekoloji təmiz, dayanıqlı enerjiyə ehtiyacı artmaqdadır. Bu rolu bərpaolunan enerji - günəş, külək, axar su və dəniz dalğalarının enerjisi, geotermal enerji, bioenerji, hidrogen və s.-nin oynaması mümkündür ki, bu da enerji təhlükəsizliyini və deməli, "yaşıl iqtisadiyyat"a keçidi təmin edir. Bu enerji növləri iqlim, region və mövsümdən asılı olmayan, tez bərpaolunan, iqtisadi və ekoloji cəhətdən sərfəli olmalıdır. Dünyada ekoloji təmiz, bərpaolunan enerji növlərinin tədqiqinə, bu sahədə yeni texnologiyaların yaradılması və tətbiqinə böyük maliyyə vəsaitləri xərclənir.

Azərbaycanda da bərpaolunan enerji növləri elmi yanaşmalarla öyrənilir, istifadəsinin praktiki məqsədlərlə əsaslandırılmasına dair intensiv tədqiqatlar aparılır. Bu tədqiqatlar multidissiplinar xarakterə malik olmaqla, böyük maddi vəsait, fizika, kimya, mühəndislik, fiziki-kimyəvi biologiya və biotexnologiyalar üzrə yüksək hazırlıqlı tədqiqatçıların uzun illər davam edən fəaliyyətini tələb edir.

"Yaşıl enerji"nin ən mükəmməl nümunəsini təbiət özü təqdim etmişdir, bu, bitkilərdə gedən, su və karbon qazının günəş şüaları altında üzvi maddələrə çevrilməsinə əsaslanan, Yez üzərində canlı həyatın əsası olan fotosintezdir. Hazırda dünyada süni fotosintez, müxtəlif üsullarla hidrogenin əldə edilməsi, saxlanılması və onun enerjisindən istifadə üzrə tədqiqatlar geniş vüsət almışdır. Günəş və külək enerjisindən, eləcə də müxtəlif enerji növlərinin istehsalı zamanı tullantısız texnologiyalardan optimal istifadə məsələləri də təmiz ətraf mühit üzrə elmi-tədqiqatların mühüm istiqamətləri sırasındadır. Bütün bu sahələrdə Azərbaycanda da tədqiqatların yüksək səviyyədə təşkili, müvafiq imkanların yaradılması, kadr hazırlığının gücləndirilməsi, dünya elmi ilə inteqrasiyanın təmin edilməsi dövrün tələbidir.

Perspektivlər haqqında mülahizələr yürütməklə yanaşı, Ulu Öndərin qayğı və diqqəti ilə hər zaman əhatə olunan Azərbaycan elmi tərəfindən "yaşıl dünya" tədqiqatlarına bu günə kimi verilmiş dəyərli töhfələri mütləq qeyd etmək lazımdır. Bunlar həm "yaşıl dünya"nın, həm də müvafiq elm sahələrinin populyarlaşdırılması üçün də əhəmiyyət daşıyır. Böyük alim Cəlal Əliyevin elmi yaradıcılığı fotosintez tədqiqatların ən yüksək zirvəsi hesab edilə bilər.

Bildiyimiz kimi, özünün insan resursları, iqlimi, flora və fauna müxtəlifliyi, bərəkətli torpaqları, şəfalı suları ilə həmişə seçilmiş Qarabağ bölgəsinin Ermənistan tərəfindən işğalı nəticəsində bir sıra beynəlxalq konvensiyalara (Orxuskaya - 1951, QAAQ - 1965, Ramsar - 1971, Pan-Avropa (Bolqarıstan) - 1995, BMT-nin Biomüxtəlifliyə dair Beynəlxalq Konvensiyası - 1992, Bern - 1999 və s.), BMT-nin Davamlı İnkişaf Məqsədlərinə, digər beynəlxalq sənədlər və qanunvericilik aktlarına zidd olaraq bu bölgənin unikal biomüxtəlifliyinə, təbii landşaftlarına, torpaq və su resurslarına ciddi ziyan vurulmuş, regionda 13197,5 ha sahədə meşə sahəsi misli görülməmiş dəyişikliklərə uğramış, qiymətli ağac növləri kəsilərək Ermənistana daşınmış, otlaq sahələri, kolluqlar, yaşayış məntəqələri qəsdən yandırılmışdır. Unikal təbiət abidələri hesab edilən, yaşı 1000 və 2000-ə çatan Şərq çinarları amansızcasına kəsilmişdir. Aqroekosistemlər, insanlar tərəfindən salınmış bağlar və yaşıllıq massivləri ya qəsdən tamamilə məhv edilmiş, ya da baxımsızlıq səbəbindən yer üzündən silinmişdir.

30 ilə yaxın bu cür ekoloji terrora məruz qalmış və Müzəffər Ali Baş Komandanın möhtəşəm rəhbərliyi, silahlı qüvvələrimizin, şəhid və qazilərimizin səyi ilə azad edilmiş və suverenliyi tam bərpa olunmuş Vətən torpaqlarının, qoruq və yasaqlıqların, təbii sərvətlərimizin, o cümlədən meşə resurslarının bərpası, yeni yaşıllıqların salınması dövrümüzün ən böyük çağırışıdır. Azad edilmiş ərazilərin yenidən qurulmasında, Böyük qayıdışda, həyata keçirilən genişmiqyaslı bərpa işlərində ekoloji tələblərin nəzərə alınması, ətraf mühitin qorunması dövlətin prioritetləri sırasındadır.

Bu gün Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında biomüxtəlifliyin bərpası və reintroduksiya üzrə işlər görülür, kütləvi ağacəkmə aksiyaları keçirilir (Təkcə Füzuli, Zəngilan və Ağdam rayonları ərazilərində 2000-dən çox müxtəlif növ ağac əkilmiş, 200 kq-dan artıq palıd və digər oduncaqlı bitkilərin toxumları səpilmişdir), Cəbrayılda təbiətə ceyranlar, su hövzələrinə müxtəlif növ balıqlar buraxılmışdır. Ölkə Prezidentinin regiona hər səfərində ağac əkməsi həm də təbliğat xarakteri daşımaqla, insanlarda böyük ruh yüksəkliyi yaradır. Yaşıl təbiətə və "yaşıl təbliğat"a töhfələr baxımından Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA İB-nin rəhbəri Leyla xanım Əliyevanın təşəbbüsü ilə uğurla həyata keçirilən "Gənclərin Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin ekoloji qiymətləndirilməsində iştirakı" layihəsini də qeyd edə bilərik.

Qüdrətli dövlət və yüksək rifah cəmiyyətinin qurulması istiqamətində ardıcıl səylər göstərən Azərbaycanın sosial-iqtisadi inkişafına dair 2030-cu ilə qədər reallaşdırılması planlaşdırılan beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı sənəddə yuxarıda qeyd edilən prioritet daxilində strateji dövrdə aşağıdakı iki məqsədin effektiv reallaşdırılmasına nail olunmalıdır:

- yüksəkkeyfiyyətli ekoloji mühit;
- "yaşıl enerji" məkanı.

Birinci mədsədin həyata keçirilməsi üçün uzun illər ərzində yaranan ekoloji problemlərin kompleks həlli və bu sahədə davamlı inkişafı diqqət mərkəzində saxlamaq, iqtisadi və demoqrafik artımdan ətraf mühitə gələ bilən riskləri azaltmaq lazımdır.

Ölkədə yüksək ekoloji tələblərə cavab verən yaşayış məntəqələrinin, "ağıllı" kənd və şəhərlərin salınması, mövcud şəhərlərin ekoloji durumun sağlamlaşdırılmasına, qapalı sənaye dövrlərinə, təmizləyici qurğulara, tullantıların utilizasiyasına istiqamətlənmiş tədbirlərin görülməsi, bütün bunlara külli miqdarda vəsait xərclənməsi 1-ci məqsədin reallaşdırılmasına ciddi tohfələr verir.

İkinci məqsədlə bağlı indiki və gələcək nəsillərin tələbatını dolğun ödəmək məqsədilə ekoloji baxımdan əlverişli olan "yaşıl texnologiya"ların tətbiqi genişləndirilməlidir. Alternativ və bərpaolunan enerji mənbələrinin ilkin istehlakda payı artırılmalıdır.

Bu istiqamətdə aparılan fəaliyyətlər Azərbaycan üçün yeni deyildir. Hələ 2004-cü ildə "Azərbaycan Respublikasında alternativ və bərpaolunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı" qəbul edilmiş və yerinə yetirilmişdir.

Bu sahədə görülən işlərin davamı olaraq Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 sentyabr tarixli fərmanı ilə Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi yaradılmış, 2021-ci il 31 may tarixində "Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanunu təsdiq edilmişdir.

SOCAR-ın metan tullantılarının sıfıra endirilməsi ilə bağlı könüllü öhdəlik götürməsi ölkəmizin iqlim problemlərinə həssaslığının təzahürüdür. Azərbaycan 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəfləmişdir. Azərbaycan Respublikasının Prezidenti tərəfindən işğaldan azad edilmiş torpaqlar "yaşıl enerji" zonası elan edilmiş, 2022-2026-cı illər üzrə tədbirlər planı təsdiqlənmişdir, bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur.

Artıq bu istiqamətdə çox vacib layihələr icra edilmişdir və edilir. Bunlardan biri kimi, ölkə Prezidentinin 25 dekabr 2023-cü il tarixli sərəncamı ilə 2024-cü ilin olkədə "Yaşıl dünya naminə həmrəylik ili" elan olunmasını qeyd etmək lazımdır. Bu sərəncam ölkədə "yaşıl iqtisadiyyat"ın, "yaşıl enerji"nin, "yaşıl texnologiya"ların tətbiqinə, geniş mənada "yaşıl artım"a hesablanmış strateji addımdır.

Azərbaycanın elmi ictimaiyyəti "yaşıl dünya"mızın qorunması da daxil olmaqla bütün istiqamətlərdə Ümummilli Liderin əsasını qoyduğu və Prezidentin uğurla davam və inkişaf etdirdiyi siyasi kursu tam dəstəkləyir, dövlətimizin bütün layihələrində, o cümlədən ekoloji mühitin sağlamlaşdırılması ilə bağlı tədbirlər planlarının icrasında fəal iştirak etməyə çalışır.

Martın 1-də AMEA Rəyasət Heyəti və AR Elm və Təhsil Nazirliyinin Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun birgə təşkilatçılığı ilə "Yaşıl dünyamızı qoruyaq" mövzusunda keçirilmiş konfrans, "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar tədbirlər planı çərçivəsində ilk addımlardan biri kimi əhəmiyyət daşımışdır.

Bu istiqamətdə növbəti maraqlı tədbir 5 aprel 2024-cü il tarixində AR ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunda keçirilmişdir. "Yaşıl enerji və yaşıl iqtisadiyyat problemləri" mövzusunda beynəlxalq iştirakla elmi seminarda müvafiq sahə mütəxəssisləri tərəfindən son illərdə "yaşıl enerji" tədqiqatlarında qazanılan, yeni, ekoloji təmiz energetik texnologiyaların yaradılması və tətbiqi sahəsində əldə edilən elmi-metodiki və texniki uğurların, yeni yanaşmaların nümayişi həyata keçirilmiş, problemin nəzəri-fundamental və elmi-praktiki aspektləri və gələcək əməkdaşlıq perspektivləri müzakirə olunmuşdur. Seminar yeni, qabaqcıl texnologiyaların öyrənilməsi, yaradılması və idxalına təkan verməklə, onların Azərbaycanda tətbiqinə müsbət təsir göstərəcəkdir.

23-24 may 2024-cü il tarixlərində Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə "Azərbaycanda ətraf mühitin sağlamlaşdırılmasında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda keçirilmiş elmi-praktiki konfrans "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində növbəti mühüm addım olmuşdur. Bu konfransın respublikada "yaşıl dünya"nın inkişafına və "yaşıl artım"ın təmin edilməsinə töhfə verəcəyinə şübhə yoxdur.

Azərbaycan tarixinin yeni mərhələsində Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən "yaşıl siyasət", ardıcıl tədbirlər, görülən irimiqyaslı işlər sayəsində ölkəmizdə təmiz ətraf mühit və "yaşıl artım"ın da tam təmin edilməsi istiqamətində böyük uğurlar qazanılacaqdır.

***İradə HÜSEYNOVA,***
***AMEA-nın vitse-prezidenti, akademik***




# Bakıda Qoşulmama Hərəkatı Gənclər Təşkilatının İqlim Fəaliyyəti Forumunun bağlanış mərasimi olub






**İyunun 24-də Bakıda Qoşulmama Hərəkatı Gənclər Təşkilatının (QHGT) təşkil etdiyi QHGT İqlim Fəaliyyəti Forumunun bağlanış mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, QHGT-nin baş katibi Nigar Bağırlı tədbir iştirakçılarının beş gün ərzində Bakı və Şamaxı şəhərlərində keçirilən forumda apardıqları fəal müzakirələrin və innovativ təkliflərin beynəlxalq iqlim prosesində önəmindən danışıb. Qeyd edib ki, müzakirələrin yekununda qəbul edilən sənəd COP29 sədrliyinə təqdim olunacaq.

Azərbaycan Xarici İşlər Nazirliyinin Beynəlxalq Təhlükəsizlik idarəsinin rəisi, COP29-un baş danışıqçısının müavini Samir Becanov çıxışında gəncləri forumu uğurla başa çatdırmaları münasibətilə təbrik edib.

S.Becanov COP29 sədrliyinin gənclərin iqlim danışıqlarında iştirakının dəyərindən bəhs edərək Qoşulmama Hərəkatına üzv ölkələrin gənclərini bu prosesdə fəal iştiraka çağırıb.

Sonra tədbir iştirakçılarına sertifikatlar təqdim olunub.

Forumda QHGT-nin bir sıra milli bölmələrinin nümayəndələri, yerli və əcnəbi gənclər, həmçinin dövlət qurumlarının və beynəlxalq təşkilatların nümayəndələri, ekspertlər iştirak ediblər.

Forum müddətində gənc iştirakçılar mədəniyyətlərarası qarşılıqlı əlaqə yaratmaq üçün imkanlar əldə edib və xüsusilə mühüm qlobal problemlərin həlli üçün nəzərdə tutulmuş müxtəlif sessiyalara qatılıblar.

Qeyd edək ki, Qoşulmama Hərəkatı Gənclər Şəbəkəsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2021-ci ildə yaradılıb. 2022-ci ilin iyulunda 60 dövlətin gənc nümayəndəsinin iştirakı ilə QH Gənclər Şəbəkəsi tərəfindən ilk dəfə keçirilən QH Gənclər Sammiti zamanı Şəbəkənin Təşkilata çevrilməsinə dair yekun sənəd olan Şuşa Akkordu qəbul edilib. Hazırda Qoşulmama Hərəkatı Gənclər Təşkilatının üzv dövlətlər üzrə 59 milli bölməsi nəzdində fəaliyyət göstərən yüzlərlə fəal gənc QH ölkələri arasında beynəlxalq dialoqa təkan verir.

# İqlim dəyişikliyinin ATƏT ərazisində təhlükəsizliyə təsirləri müzakirə olunub

**Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Fariz Rzayev cari ilin iyunun 21-də Maltada keçirilmiş ATƏT-in Malta Sədrliyinin İqlim Dəyişikliyi üzrə Yüksək Səviyyəli Konfransında iştirak edib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, konfransda iqlim dəyişikliyinin ATƏT ərazisində təhlükəsizliyə təsirləri, hazırkı durum və iqlim dəyişikliyi ilə birgə mübarizə imkanları müzakirə olunub.

Konfransda çıxış edən nazir müavini Fariz Rzayev Azərbaycanın da iqlim dəyişikliyinin təsirinə məruz qaldığını qeyd edərək bu çağırış ilə mübarizə xüsusunda görülən işlər barədə məlumat verib. Azərbaycanın ATƏT-in Nazirlər Şurası tərəfindən 2021-ci ildə Stokholmda qəbul edilmiş iqlim dəyişikliyinin törətdiyi çağırışlarla mübarizə üçün əməkdaşlığın gücləndirilməsinə dair qərarı dəstəklədiyi qeyd olunub, ölkəmizin ATƏT-in bir neçə regional layihəsində fəal iştirak etdiyi vurğulanıb.



Bildirilib ki, Azərbaycanın uzun sürən hərbi işğaldan azad edilmiş ərazilərinin "yaşıl enerji" zonasına çevrilməsi, burada "ağıllı kənd" və "ağıllı şəhər" konsepsiyalarının tətbiq edilməsi nəzərdə tutulur. Bu isə iqlim dəyişikliyi ilə mübarizə səylərinə töhfə verəcək.

Nazir müavini 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunduğunu qeyd edərək ölkəmizin həmçinin cari ilin noyabrında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi edəcəyini bildirib. COP29 ilə bağlı ölkəmizin baxışı barədə məlumat verilib, bu tədbirin iqlim dəyişikliyi ilə mübarizə xüsusunda beynəlxalq səylərə töhfə verəcəyi qeyd olunub.

Konfrans çərçivəsində nazir müavini Fariz Rzayev, həmçinin ATƏT-in Baş katibi Helqa Şmit və Maltanın Xarici və Avropa İşləri və Ticarət Nazirliyinin daimi katibi Kristofer Kutajar ilə görüşüb, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# *"The Jerusalem Post":* "Bakı Kommünikesi COP29 çərçivəsində kiçik ada dövlətləri ilə dialoqa çağırır"

**İsraildə ingilis dilində nəşr olunan ən böyük qəzet - nüfuzlu "The Jerusalem Post" nəşrinin 23 iyun tarixli nömrəsində inkişaf etməkdə olan kiçik ada ölkələrinə (Small Island Developing Countries - SIDS) həsr olunmuş məqalə dərc edilib.**




AZƏRTAC xəbər verir ki, "Dərhal hərəkətə keçmək lazımdır: İnkişaf etməkdə olan kiçik ada dövlətləri iqlim dəyişikliyi problemi ilə qarşılaşıb" sərlövhəli məqalənin müəllifi Vanuatu Respublikasının ilim dəyişikliyi üzrə xüsusi elçisi Ali Serimdir. O, coğrafi təcrid, təbii fəlakətlər, məhdud resurslar və iqlim dəyişikliyinin təsirləri daxil olmaqla, SIDS-in üzləşdiyi əsas problemləri ətraflı şəkildə araşdırır.

Müəllifin fikrincə, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (COP29) Tərəflər Konfransının Bakıda keçiriləcək 29-cu sessiyası SIDS tarixində yeni eradan xəbər verir. Məqalədə bu kontekstdə inkişaf etməkdə olan kiçik ada dövlətlərinə hərtərəfli dəstək verən Azərbaycanın COP29 iqlim sammitinin sədri kimi roluna xüsusi diqqət yetirilir. Prezident İlham Əliyevin bəyan etdiyi kimi, iqlim dəyişikliyinin mənfi təsirlərinə ən çox həssas olan inkişaf etməkdə olan kiçik ada dövlətlərinin üzləşdiyi problemlərin həlli Azərbaycanın COP29-da sədrliyinin gündəliyində prioritet məsələlərdən biri olacaq.

Qəzet müəllifin "tarixi sənəd" adlandırdığı Bakı Kommünikesindən də ətraflı bəhs edir. Onun bu ilin may ayında Azərbaycan paytaxtında Tuvalunun general-qubernatoru, Tonqa Krallığının Baş naziri və Baham adaları Birliyinin xarici işlər naziri tərəfindən imzalandığını xatırladan Ali Serim vurğulayır: "Kommünikedə qlobal istiləşmə fonunda artan ekzistensial təhlükələrlə üzləşən kiçik ada dövlətləri ilə COP29 çərçivəsində həyata keçirilən əməkdaşlıq və dialoqun təsdiqi iqlim dəyişikliyinə qarşı daha çox dayanıqlılığa, təcili qlobal fəaliyyətə və daha çox həmrəyliyə çağırır".

Məqalənin sonunda qeyd edilir ki, SIDS-ə dəstək təkcə bu dövlətlərdə iqlim dəyişikliyinə reaksiya deyil, həm də planetin biomüxtəlifliyinin qorunması səylərinə töhfədir. Müəllifin fikrincə, iqlim dəyişikliyinin nəticələrindən ən çox zərərçəkən ölkələrdə maliyyə problemlərini həll etmək üçün xüsusi fond yaratmaq lazımdır. Nəşr bildirir ki, bu, iqlimin maliyyələşdirilməsinin əsas müzakirə mövzularından biri olacağı COP29 konfransının məqsədlərinə tam uyğundur.

# Azərbaycan beynəlxalq əməkdaşlıq platformasına çevrilir

## COP29 dünyanın diqqətini respublikamıza yönəldəcək

*Əvvəli 1-ci səh.*

### Azərbaycan iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizənin önündədir

Qeyd edək ki, BMT İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası insanın iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP-un ilk tədbiri 1995-ci ilin martında Almaniyanın paytaxtı Berlində baş tutub. COP-a sədrlik rotasiya əsasında BMT-nin 5 regionunun - Afrika, Asiya, Latın Amerikası, Karib Hövzəsi və Avropa (Mərkəzi, Şərqi, Qərbi və digər) ölkələrinə keçir. Həmçinin bu regionlardakı qrup ölkələri arasında da sədrliklə bağlı növbələşmə mövcuddur. Azərbaycanın təşkilata sədrliyinə dair qərar da məhz Şərqi Avropa Qrupu ölkələrinin yekdil rəyi əsasında verilib.

COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı qərarın verilməsində ölkəmizin "yaşıl enerji"yə keçid sahəsində əldə etdiyi uğurlar böyük rol oynayıb. Azərbaycan ənənəvi enerjinin əsas ünvanlarından biri kimi tanınsa da, son illərdə alternativ və bərpaolunan enerjiyə keçid sahəsində böyük irəliləyişə nail olub. Prezident İlham Əliyevin sərəncamı ilə 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi də ondan xəbər verir ki, ölkəmizdə qarşıya qoyulan əsas məqsədlərdən biri iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizədir. Təsadüfi deyil ki, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilib. Buna uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır. O cümlədən işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonası elan olunub. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində "ağıllı şəhər" və "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilməsi, su-elektrik stansiyalarının yaradılması göstərir ki, ətraf mühitin qorunması prioritetdir. Bütün bunlar həm də ondan xəbər verir ki, Azərbaycan iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizənin önündədir.




### COP29 respublikamızın dünyaya möhtəşəm təqdimatı olacaq

Eyni zamanda Azərbaycanın məqsədlərindən biri iqlim dəyişmələrinə qarşı mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsidir. Prezident İlham Əliyev "Euronews" televiziyasına müsahibəsində bununla bağlı deyib: "Evsahibliyi edən ölkə kimi bizim əsas məqsədlərimizdən biri birliyi və həmrəyliyi yaratmaqdır. Biz COP zamanı və ondan sonra sədrliyimizin davam edəcəyi dövrdə elə müsbət mühit qurmaq istəyirik ki, ölkələr və şirkətlər bir-biri ilə istəklə işləsin və qarşılıqlı iddiaları kənara qoysunlar, planetin qorunması ilə əlaqədar əsas gündəliyə diqqət yetirsinlər".

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı ölkələrin təmsilçiliyi nöqteyi-nəzərindən ən mötəbər beynəlxalq təşkilatlardan belə geri qalmır. Şübhəsiz ki, Tərəflər Konfransının Bakıda keçiriləcək 29-cu sessiyası iqlim dəyişmələrinin qarşısının alınması və fəsadlarının aradan qaldırılması ilə bağlı qlobal mübarizəyə yeni təkan verəcək. Ən əsası, COP29 ölkəmizdə keçirilən digər mötəbər tədbirlər kimi beynəlxalq ictimaiyyətin diqqətini Azərbaycana yönəldəcək, respublikamızın dünyaya möhtəşəm təqdimatı olacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# *Aleksey BORİSOV:* "COP29-un uğurlu təşkili dünya arenasında mövqeyini möhkəmləndirməkdə Azərbaycana kömək edəcək

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un keçirilməsi Azərbaycana beynəlxalq aləmdə nüfuzunu möhkəmləndirməyə kömək edəcək, eləcə də iqlim dəyişikliyi ilə mübarizə üzrə qlobal səylərə töhfə verəcək.**

Bu barədə AZƏRTAC-a Rusiya BMT-yə Yardım Assosiasiyasının sədrinin birinci müavini, Ümumdünya BMT Assosiasiyaları Federasiyasının vitse-prezidenti Aleksey Borisov bildirib.




### COP qlobal dünya üçün nəyə görə vacibdir?

Agentliyin həmsöhbəti vurğulayıb ki, BMT-nin İqlim Dəyişikliyi Konfransı (COP) qlobal dünya əhəmiyyətli tədbirdir. Çünki iqlim dəyişmələri təkcə ətraf mühit deyil, həm də iqtisadiyyat, insanların sağlamlığı və təhlükəsizliyi üçün ciddi təhdiddir. COP ölkələrə bir araya gəlməyə, iqlim dəyişmələri problemlərini müzakirə etməyə, istixana qazlarının həcminin azaldılması və iqlim dəyişmələrinə uyğunlaşmaq üçün birgə hərəkətlər barədə tədbir və qərarları qiymətləndirməyə, yenilərini qəbul etməyə imkan verir.

"COP ən əsas beynəlxalq ekoloji sazişlərdən biri olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (BMT İDÇK) və Paris İqlim Sazişinin həyata keçirilməsi üzrə danışıq prosesinin ali orqanıdır. Bu gün COP həm də ona görə dəyərlidir ki, dövlət başçıları, nazirlər, digər dövlət xadimləri, eləcə də biznes, vətəndaş cəmiyyəti, akademiya, media, gənclər və bir çoxları daxil olmaqla, iqlim gündəliyinin geniş aktorlar dairəsini bir araya gətirir. İqlim məsələsini həll etmək üçün bu gün məhz belə sahələrarası yanaşma tələb olunur", - deyə ekspert qeyd edib.

### Azərbaycan - neft ölkəsi və "yaşıl iqtisadiyyat"dır

Bu gün karbon neytrallığına nail olmağın zəruriliyinə artıq heç kimin şübhə ilə yanaşmadığını qeyd edən ekspert, eyni zamanda müxtəlif tipli iqtisadiyyata malik ölkələrə iqlim fəlakətinin qarşısının alınması üçün nəyi və necə etmək lazım olduğu ilə bağlı razılığa gəlməyin çox çətin olması faktına diqqət çəkib.

"İki mövqeyin toqquşması göz qabağındadır. Birincilər, ilk növbədə, Avropa İttifaqı ölkələri və ABŞ 2050-ci ilə qədər sürətləndirilmiş enerji keçidinə və karbon neytrallığına nail olmaqda israrlıdır. Eyni zamanda istixana qazlarının emissiyalarının karbohidrogenlərin hasilatı və istifadəsi sahəsində "keçid" layihələri hesabına azaldılmasına nail olmaq yolverilməz hesab edilir. İnkişaf etməkdə olan dünya üçün belə yol yenisinin qurulması üçün lazımi vəsaitin ayrılacağı ümidi ilə iqtisadiyyatın köklü şəkildə pozulması deməkdir. İkincilər, o cümlədən Çin, Rusiya və Səudiyyə Ərəbistanı 2060-2070-ci illərə qədər karbon neytrallığına nail olmaq şərtilə hər bir ölkənin iqtisadiyyatının inkişafının xüsusiyyətini nəzərə alan daha yumşaq keçidin tərəfdarıdır. Bu yol inkişafda olan ölkələrə enerji və resurs səmərəliliyi istiqamətdə hərəkət edərək iqtisadiyyatını yenidən qurmağa imkan verəcək, eləcə də düşünülməmiş sürətləndirilmiş enerji keçidin səbəb ola biləcəyi sosial-iqtisadi risklərin səviyyəsini azaldacaq", - deyə o bildirib.

Mütəxəssisin fikrincə, istixana qazlarının emissiyasına böyük töhfə verən inkişafda olan ölkələrin maraqları nəzərə alınmadan planetdə karbon neytrallığına nail olmaq mümkün deyil. "Buna görə də tərəflər razılığa gəlməli olacaqlar. Azərbaycan "yaşıl iqtisadiyyat"lı neft ölkəsi və COP29-un ev sahibi olaraq təcrübəsini və nailiyyətlərini bölüşə bilər", - deyə A.Borisov əminliklə bildirib.

### Növbəti sessiyanın keçirilməsi yeri kimi Azərbaycanın seçilməsi ölkəyə yüksək etimadın göstəricisidir

Şərqi Avropa qrupuna aid ölkələrin yekdil qərarı ilə konfransın növbəti sessiyasının keçirilməsi məkanı kimi Azərbaycanın seçilməsi ölkəyə yüksək etimadın göstəricisidir.

"Şübhəsiz ki, Azərbaycan iştirakçılar və qonaqlar üçün rahat şərait yaratmaq, eləcə də davamlı inkişaf və iqlim siyasəti sahəsində nailiyyətlərini nümayiş etdirməyə səy göstərərək yüksək məsuliyyət və peşəkarlıqla bu cür böyük tədbirlərə evsahibliyi edir. Ölkə müasir infrastruktur, insan resursları, beynəlxalq tədbirlərin keçirilməsində qiymətli təcrübəyə malikdir. Azərbaycan iqtisadi forumlar, mədəni və idman tədbirləri də daxil olmaqla, müxtəlif miqyaslı tədbirlər keçirərək beynəlxalq arenada özünü etibarlı tərəfdaş kimi göstərib", - deyə o qeyd edib.

### Bakıda COP29-dan gözləntilər

Həll ediləcək əsas məsələlərdən danışan A.Borisov deyib ki, bu, əlbəttə, yeni itkilər və zərər fondunun vəsaitlərinə çıxış şərtlərinin konkretləşdirilməsi, qlobal yekunlaşma çağırışlarının praktik şəkildə həyata keçirilməsi, uyğunlaşma və maliyyələşmə üzrə kollektiv məqsədlər ətrafında razılaşmaların əldə olunması, eləcə də Paris sazişinin 6-cı maddəsinin qaydaları ətrafında böhranın həlli - karbon bazarlarıdır.

O, eyni zamanda xatırladıb ki, COP28-də danışıq komandaları uzun müddət ərzində ilk dəfə olaraq heç bir qərar qəbul etməyərək, karbon bazarları kimi əhəmiyyətli alət üzrə nəticə qazanmamışdılar.

"Əminəm ki, Azərbaycanın sədrliyi ölkələrin çoxtərəfli səmərəli dialoquna ciddi töhfə verəcək. Hər kəsin səsi eşidilsin, nəticələr isə ümumi qərarlar əsasında qəbul olunsun deyə maraqlı tərəflərin geniş dairəsinin fikrini dinləməyə və onu nəzərə almağa imkan verəcək", - deyə BMT-yə Yardım Assosiasiyasının sədrinin birinci müavini fikrini yekunlaşdırıb.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Azərbaycana qarşı yenə revanş niyyəti var

### Qərb Fransanın əli ilə Cənubi Qafqazda təhlükəli strategiya həyata keçirir



**"Fransanı önə verməklə Qərb, əslində, Cənubi Qafqaz regionunda çox dərin, amma region üçün təhlükəli olan strategiyanı həyata keçirir. Ermənistanın hücum təyinatlı silahlarla silahlandırılması gələcəkdə regionda münaqişənin yenidən alovlanmasını şərtləndirə bilər".**

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu qəzetimizə açıqlamasında deyib ki, Prezident İlham Əliyev Ermənistan Konstitusiyasında Azərbaycana olan ərazi iddialarının aradan qaldırılmasının vacibliyini səsləndirib və bu, baş verməyəcəyi təqdirdə, iki ölkə arasında sülh müqaviləsinin imzalanmayacağını bildirib. Ermənistanın bu istiqamətdə hər hansı bir addım atmaq istəmədiyi ona dəlalət edir ki, Azərbaycana qarşı yenə revanş niyyəti mövcuddur. Qərb dairələri də Ermənistanı bu istiqamətdə dəstəkləyirlər.

O bildirib ki, ABŞ xüsusi canfəşanlıqla Ermənistanda konstitusiya dəyişikliyinin edilməsi məsələsinə toxunmadan Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasını istəyir: "Entoni Blinken də Azərbaycan Prezidenti ilə telefon danışığı zamanı bu məsələyə toxunub. Bu özü də çox gizli məqamlardan xəbər verir. Gizli deyəndə, əslində, hər şey aydındır. Sadəcə olaraq Qərb bu cür gedişləri ilə gələcəkdə Ermənistana dəstək verəcəyini düşünür. Bunun müqabilində də Ermənistandan özünün geosiyasi maraqlarının təmin olunması üçün istifadə edəcək".

Deputat qeyd edib ki, Ermənistan Konstitusiyasının 116-cı maddəsinin üçüncü bəndinə əsasən, beynəlxalq öhdəliyi Konstitusiya ilə ziddiyyət təşkil edə bilməz. Yəni Ermənistan bu gün Azərbaycanla sülh müqaviləsi imzalayarsa, gələcəkdə bu, hüquqi cəhətdən etibarsız sayıla bilər, çünki Konstitusiyanın müvafiq maddəsi buna imkan verir.

Hazırda Ermənistanın intensiv silahlandırıldığını deyən E.Mirbəşiroğlu bildirib ki, bu ölkədən Cənubi Qafqaz regionunda Rusiyaya qarşı plasdarmın yaradılması üçün aktiv istifadə olunur. Bunun müqabilində isə Ermənistana Azərbaycana qarşı dəstək göstəriləcək. Bu dəstək demək olar ki, artıq göstərilir. "Aprelin 5-də Ursula fon der Lyayen, Entoni Blinken və Paşinyan arasında görüş zamanı da Ermənistana pərdəarxası təhlükəsizlik təminatlarının verilməsi məsələləri müzakirə olundu. Bir sıra iqtisadi dəstək sırf görüntü xarakteri daşıyırdı. Amma əsas məsələ ondan ibarət idi ki, Ermənistan təhlükəsizlik təminatı adı altında silahlandırılsın, eyni zamanda gələcəkdə regionda yenidən münaqişə vəziyyətinin yaradılması üçün ondan bir alət kimi istifadə edilsin. Bu, çox təhlükəlidir və ciddi problemlərin yaranacağından xəbər verir".

Deputat vurğulayıb ki, 30 il Azərbaycan torpaqlarını işğal altında saxlayan işğalçı dövlətin silahlandırılması heç bir beynəlxalq hüquq norma və prinsiplərə sığmır. İkinci Dünya müharibəsindən sonra Almaniyanın və Yaponiyanın silahlı qüvvələrinin formalaşdırılması ciddi şəkildə məhdudlaşdırılmışdı, çünki onlar işğalçılıq siyasəti həyata keçirmişdilər. Amma bu gün tam başqa bir təcrübəni görürük. İşğalçılıq siyasəti həyata keçirən Ermənistan sistemli şəkildə silahlandırılır və bu da region üçün çox ciddi təhlükələrdən xəbər verir. Preventiv olaraq bunun qarşısının alınması üçün region dövlətləri ciddi tədbirlər görməlidirlər.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

## Borel indi də hərbi canilərə azadlıq istəyir

**Qoca qitənin "demokratik" təsisatı olan Avropa İttifaqı Azərbaycana qarşı qərəz siyasətindən əl çəkmək istəmədiyini xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borelin səsləndirdiyi absurd və bir o qədər də gülünc çağırışın fonunda növbəti dəfə nümayiş etdirdi. Belə ki, Aİ Komissiyasının vitse-prezidenti C.Borel Avropa Parlamenti üzvlərinin suallarına cavabında "erməni məhbuslar"ın azad olunması və Qarabağ bölgəsini tərk etmiş ermənilərin hüquqları, o cümlədən öz evlərinə qayıtmaq hüququnun təmin olunması istiqamətində fikirlər səsləndirib.**

Diqqət edin! Borelin "erməni məhbuslar" adlandırdığı və azadlığını istədiyi şəxslər kimlərdir: milli kimliyimizə düşmən kəsilərək qoca, uşaq, qadın demədən xalqımızın qanına susayan, onlara qarşı bəşər tarixində rastlanmamış cinayət əməlləri törədən, Qarabağda, digər işğal etdikləri ərazilərimizdə əliyalın insanlarımıza divan tutmaları, o cümlədən Gəncədə, Tərtərdə, Bərdədə terror törədərək mülki insanlarımızı qətlə yetirmələri ilə öyünən qatillər, terrorçular - Vaqif Xaçatryan, Ruben Vardanyan, Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan...

Çirkinniyyətli çağırışından da aydın görünür ki, hazırda "humanist" C.Borel məhz bu qaniçən məxluqların, azərbaycanlılara qarşı soyqırımı törədən canilərin azadlığını əsas məqsədi kimi müəyyənləşdirib. Hansı ki Azərbaycan dövləti həmin terrorçuları beynəlxalq hüquq və qanunlar çərçivəsində mühakimə edir, layiqli cəzalarını çəkmələri üçün ədalət məhkəməsi qarşısında sorğulayır. Amma Borelin timsalında Avropanın qərəzli siyasətçiləri bu halı görməzdən gəlirlər və öz çaldıqları, daha doğrusu, erməni lobbisinin çaldığı havaya oynamaqla məşğuldurlar.

### İnsan qatillərinə ikili yanaşma

Əslində, məsələnin mahiyyətində Azərbaycana qarşı qərəz durduğunu buna oxşar bəzi beynəlxalq nümunələr də ortaya qoyur. Bosniya müsəlmanlarına qarşı cinayətlərdə ittiham olunan serbiyalı hərbi cinayətkarların Beynəlxalq Haaqa Məhkəməsinə verilmələri məlumdur. 2006-cı ildə Argentinanın hüquq-mühafizə orqanları serb Milan Lukiçi Haaqa beynəlxalq hərbi tribunalına təhvil verib. 2010-cu ildə Yuqoslaviya üzrə Beynəlxalq tribunalın hakimləri Bosniya serbləri ordusunun yeddi zabiti barədə hökm çıxarıblar. Onlar Bosniya müsəlmanlarına qarşı cinayətlərdə ittiham olunaraq, barələrində 5 ildən ömürlük həbs cəzası verilib. 2017-ci ildə Xorvatiyanın keçmiş Müdafiə Şurasının Bosniya və Herseqovinadakı başçısı Slobodan Pralyak müsəlmanlara qarşı soyqırımı törətdiyinə görə Beynəlxalq Haaqa Məhkəməsində mühakimə olunub. Həmin il məhkəmə prosesi zamanı o zəhər içərək intihar edib. 2023-cü ildə Beynəlxalq Haaqa Məhkəməsi keçmiş Yuqoslaviyanın prezidenti yanında dövlət təhlükəsizlik idarəsinin sədri Yovit Stanişiç və onun müavini Frank Simatoviçi 15 il müddətinə azadlıqdan məhrum edib.

Bəzi nümunələrini də gətirdiyimiz kimi, Bosniyada insanlara qarşı hərbi cinayət törətmiş canilər beynəlxalq məhkəmələrə verilərək cəzalarını alıblar. Lakin həmin hərbi cinayətkarların azad edilməsi barədə, indi Borelin erməni separatçı və hərbi cinayətkarlarına etdiyi kimi, avropalı siyasətçilərin hansısa çağırış etdiyini heç kəs xatırlamır.

O zaman sual ortaya çıxır ki, görəsən, azərbaycanlılara qarşı soyqırımı törədən, onları kütləvi qətl edən erməni hərbi cinayətkarlara, eyni zamanda Azərbaycanın suveren ərazilərində separatçılıqla məşğul olan canilərə nə üçün azadlıq tələb olunur? Bu qatil və terrorçuların Azərbaycanda beynəlxalq hüququn qanun və qaydalarına uyğun haqq etdikləri cəzaları almasına mane olmaq istənilir?

Əslində, Borelin bu anormal istəyinə hansısa ad vermək, onu şərh etmək belə olduqca çətindir...

### Bu kimi həbslərin tam hüquqi əsası var

Azərbaycan xalqına qarşı hərbi cinayətlər törətmiş, ərazilərimizdə separatçılıqla məşğul olmuş ünsürlər tutularaq törətdikləri cinayət əməllərinə görə ölkəmizin qanunları ilə mühakimə edilirlər. C.Borelin Avropa Parlamentinin üzvlərinin "erməni məhbusları" ilə bağlı suallara münasibəti ilə bağlı yerli medianın sorğusuna cavabında Azərbaycan Xarici İşlər Nazirliyindən də bildirilib ki, həbsdə qalan müharibə cinayətkarları, separatçılar ya müharibə cinayətləri, etnik təmizləmə, hərbi təcavüz, işgəncə və digər ağır cinayətlərdə ittiham olunur, ya da artıq bu cinayətlərə görə məhkum ediliblər, yaxud da onlarla bağlı istintaq prosesi davam edir. Cenevrə Konvensiyalarına, habelə ümumilikdə beynəlxalq və milli qanunvericiliyə uyğun olaraq, Azərbaycan bu kimi cinayətlərin araşdırılması və mühakiməsi üzrə hüquq və öhdəliklərə malikdir. Bu kimi həbslərin tam hüquqi əsası var və bu, saxlanılan şəxslərin hüquqlarına xələl gətirmir. Hətta saxlanılan şəxslər hərbi əsir olsalar belə, III Cenevrə Konvensiyasına əsasən, ittiham oluna biləcəkləri bir cinayət törətdiklərinə görə cinayət təqibi davam edən hərbi əsirlər, bu kimi məhkəmə prosesi bitənə və lazım gələrsə, cəzalarını çəkib bitirənə qədər məhbusluqda saxlanıla bilər.

XİN-dən o da bildirilir ki, Aİ tərəfinin öz diqqətini Ermənistanın azərbaycanlı hərbi əsirlərə və mülki məhbuslara, eləcə də itkin düşmüş azərbaycanlılara qarşı qəddar rəftarına dair sübutlara yönəltməyi daha məqsədəuyğun olardı. Ermənistanın hərbi təcavüzü başlayandan bəri 3890-dan çox azərbaycanlı itkin düşüb və onların taleyi naməlum olaraq qalmaqdadır. İtkin düşənlərin 3171 nəfəri hərbçi, 719 nəfəri (71 uşaq, 267 qadın və 326 ahıl şəxs daxil olmaqla) isə mülki şəxslərdir.



### Borelin riyakarlığı

Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi C.Borelin gülünc doğuran çağırışlarından biri də Qarabağ bölgəsini tərk etmiş ermənilərin hüquqları, o cümlədən öz evlərinə qayıtmaq hüququnun təmin olunması istiqamətindədir. Bütün dünya da gördü ki, Qarabağ bölgəsində yaşayan ermənilər özləri ölkəmizi könüllü şəkildə tərk etdilər. Kimsə onlara bununla bağlı hansısa təsir, təzyiq etmədi. Əslində, bu, erməni lobbisi və İrəvanın öz quraması idi ki, həm bu vasitə ilə dünyadan pul dilənsinlər, həm də lazım gələndə rüşvətxor, qərəzli Qərb siyasətçilərinin əli ilə bu məsələdən Azərbaycana qarşı təzyiq kimi istifadə etsinlər. Həmin ermənilərin öz evlərinə qayıtmaq hüququnun təmin olunması məsələsinə gəldikdə isə tam əminliklə demək mümkündür ki, bunu nə Qarabağ bölgəsində yaşayan ermənilərin özləri, nə də İrəvan istəmir. Səbəb isə yuxarıda açıqlanıb.

Məsələyə bir ayrı aspektdən yanaşaq. 1980-ci illərin sonlarında yüz minlərlə azərbaycanlı indiki Ermənistan ərazisindən deportasiya olunub. Ötən onilliklər ərzində bir dəfə də olsun Qərb təsisatları və siyasətçiləri onların dədə-baba yurdlarına qayıdışı ilə bağlı məsələ qaldırmayıb, İrəvana hansısa təzyiq etməyib. Hazırda da nə Ermənistan azərbaycanlıların öz tarixi yaşayış yerlərinə qayıdışı ilə razılaşmaq istəyir, nə də Aİ, Avropa Parlamenti kimi beynəlxalq qurumlar soydaşlarımızın öz tarixi yaşayış yerlərinə qayıdışı məsələsinin həllinə maraq göstərirlər.

Bütün bu faktlar da sübut edir ki, C.Borel həqiqətdən uzaq erməni yalanlarına əsaslanan fikirlər səsləndirməklə riyakarlıq edir. Və bu Aİ Komissiyasının vitse-prezidentinin Azərbaycana qarşı ilk qərəzli münasibəti deyil, dəfələrlə onun ölkəmizlə bağlı siyasi riyakarlığının şahidi olmuşuq. Ancaq Borelin bu fitnəkar əməllərinin bir qara qəpiklik siyasi dəyəri yoxdur. Necə deyərlər, milçək özü bir şey deyil, könül bulandırır...

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

## Qatilə azadlıq istəmək cinayətdir

### Cozep Borel hər zaman Azərbaycana qarşı düşmən mövqeyində olub



**"Avropa İttifaqının Azərbaycana qarşı qərəzli münasibəti uzun illərdir özünü göstərir. Sözsüz ki, bu münasibət beynəlxalq hüquq normalarına tamamilə ziddir".**

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, əraziləri uzun illər işğal altında olan və öz qətiyyəti ilə torpaqlarını azad edən bir dövlətə qarşı belə münasibət siyasi xəyanətkarlıqdır. Avropa İttifaqı humanist, demokratik dəyərləri sözdə təbliğ etsə də, əməldə onun əksini nümayiş etdirir. Bu gün də Aİ rəsmiləri, məsul şəxsləri öz ənənələrini davam etdirir, heç bir reallıqlara əsaslanmayan faktlarla erməni təcavüzkarlarının yanında olduqlarını göstərirlər. Bu hal Avropa İttifaqının Xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Cozep Borelin fəaliyyətində də özünü aydın göstərir: "Özünü sülhün, əmin-amanlığın, münasibətlərin yaxşılaşdırılmasının tərəfdarı kimi qələmə verən bu şəxs çıxışları, təklifləri ilə illərdir Azərbaycana düşmən mövqeyində olduğunu təsdiqləyir. O, bu gün də öz fitnəkar əməllərindən əl çəkmir. Son çıxışında erməni məhbuslarının azad edilməsi, etnik təmizləmə barədə reallığa əsaslanmayan fikirlər irəli sürməklə təcavüzkarların yanında olduğunu bir daha təsdiqlədi. Halbuki onun məhbus adlandırdığı insanlar, cinayətkarlar uzun illər Azərbaycan torpaqlarının işğal altında qalmasını təmin edib, yüzlərlə insanın qətlinə şərait yaradıb və bilavasitə öz çirkin məqsədləri ilə ölkəmizin suverenliyinə böyük zərbələr vurublar. Belə cinayətkarları, insan qatillərini məhbus adlandırmaq və onların tez bir zamanda həbsdən azad olunmasını tələb etmək cinayətkarlıqdır və cinayətkarın yanında olmaq deməkdir".

Deputat qeyd edib ki, Borel fikirləri ilə dünyada, eləcə də Avropada sülhün, əmin-amanlığın təmin olunmasının tərəfdarı olmadığını bir daha göstərir. Çünki belə olmasaydı, o, Azərbaycanın düşdüyü vəziyyəti, uzun illər çəkdiyi əzab-əziyyətləri göz önünə gətirər, real faktlara əsaslanaraq dağıdılmış şəhər və kəndlərin taleyinə acıyar, qətlə yetirilmiş insanların ruhu qarşısında öz günahlarını etiraf edər, belə sərsəm fikirlər söyləməzdi. Bu bir həqiqətdir ki, Azərbaycan Ordusu antiterror tədbirləri keçirəndən sonra Qarabağ bölgəsində yaşayan ermənilər öz razılıqları ilə bu torpaqları tərk etdilər. Onlara qarşı heç bir müqavimət olmadı. Belə olan halda Aİ nümayəndəsinin bu insanların zorla öz ev-eşiklərindən çıxarılması barədə fikirlər səsləndirməsi və onların geri qaytarılmasının təmin olunması barədə təkliflər verməsi gülünc görünür. Digər tərəfdən, əgər Borel belə xeyirxah, insanlığa acıyan bir şəxs idisə, o, Ermənistandan qovulan 250 mindən artıq insanın da taleyini göz önünə gətirməli və onların öz evlərinə qayıtması barədə təkliflər verməli idi.

T.Rzayev xatırladıb ki, həmin şəxslər 1988-ci ildən sonra Ermənistanda erməni təcavüzkarlarının çox böyük təqiblərinə, təhqirlərinə məruz qalıb, qətlə yetirilib və zorla öz ata-baba yurdlarından qovulublar: "Göründüyü kimi, Avropa İttifaqı Cənubi Qafqazda sülhün, əmin-amanlığın bərpa olunmasının tərəfdarı deyil. Avropanın bir çox ölkələri bu gün Ermənistanı silahlandırmaq, Cənubi Qafqazda müharibəni alovlandırmaq üçün cəhdlər göstərirlər. Sözsüz ki, Cozep Borel də bu yoldadır və o, təcavüzkar Ermənistanı dəstəkləməklə yeni müharibənin qızışdırılmasına rəvac verir. Ona görə də hər bir Azərbaycan vətəndaşı, eləcə də reallıqları qiymətləndirən insanlar Borel kimi insanların təkliflərini nifrətlə qarşılayır və bu təkliflərin həyata keçirilməsinin mümkün olmadığı fikrindədir. Çünki hər bir cinayətkar öz əməllərinə görə qiymət almalıdır".

Komitə sədri vurğulayıb ki, Azərbaycan dövləti mübarizəsində qətiyyətlidir. Prezident İlham Əliyev də dəfələrlə xatırladıb ki, biz sülhün, əmin-amanlığın, əməkdaşlığın tərəfdarıyıq və bu yolda səylərimizi əsirgəməyəcəyik. Əks təqdirdə, bizə qarşı yönələn hər bir cəhdin, məkrli niyyətin qarşısı qətiyyətlə alınacaq.

*Ə.QARDAŞXANOVA, "Azərbaycan"*

# Üzü "demokrat", astarı kolonial

## XXI əsr Fransasının XVI əsr davranışı

**Fransa özünü dünyaya demokratik dövlətlərdən biri kimi təqdim etməyə çalışsa da, XVI əsrdən üzübəri nəhəng kolonial tarixçəyə malikdir. Bu ölkə artıq XVII əsrdən kolonial siyasətin birbaşa iştirakçısı olub. Fransızlar yeni ərazilər ələ keçirmək üçün hərbi dəniz donanmasından istifadə edib, kolonial ticarət şirkətlərinin yaradılmasını dəstəkləyib, onlara imtiyazlar və subsidiyalar verib. Bütün bunların sayəsində fransız koloniyalarının ərazisi ağlasığmaz dərəcədə artıb.**

Böyük fransız inqilabı koloniyalarda milli azadlıq hərəkatının güclənməsinə təkan versə də, Fransa müstəmləkələrinin böyük bir qismini qoruyub saxlaya bilib. Hələ XIX əsrin əvvəllərində fransız koloniyalarının ümumi ərazisi 30 min kvadratkilometr idi. Təsadüfi deyildir ki, 1894-cü ildə Fransada Koloniyalar Nazirliyi yaradılmışdı, baxmayaraq ki, işğal etdiyi ölkələrdə milli azadlıq hərəkatı və partizan müharibələri davam edirdi. Birinci Dünya müharibəsi illərində Fransa müstəmləkələri ərazisinə görə Böyük Britaniyadan sonra ikinci yerdə idi. Müharibədən sonra isə Fransanın işğal etdiyi ərazilər bir qədər də genişləndi. Amma İkinci Dünya müharibəsindən sonra fransız koloniyaları çökməyə başladı. Bu koloniyaları əldən buraxmamaq üçün yeni Fransa İttifaqı yaradıldı.

Bəs Fransanın kolonial siyasətinin kökündə hansı maraqlar dayanırdı? Sadəcə bir faktı qeyd edək: vaxtilə dünyada hasil edilən qızılın 79, almazın 76, kobaltın 75, platinin 50, vanadiumun 40 və uranın 21 faizi Afrikanın payına düşürdü. Fransa isə Afrika müstəmləkəçiliyinin formalaşdırılmasında mühüm rol oynamışdır. Bu mühüm rolun nədən ibarət olduğunu da faktlarla izah edək: Afrikanın 35 faizi 300 il müstəmləkə kimi Fransanın nəzarətində olmuşdu. 5 əsrə yaxın davam edən müstəmləkçilik tarixində 2 milyondan çox afrikalı qətlə yetirilmiş, demək olar ki, bütün üsyanlar qəddarcasına yatırılmışdır. Hətta 1994-cü ildə Ruandada 800 min insan öldürülmüşdür.

Fransa bu gün də Afrika ölkələrinin bir hissəsini nəzarətində saxlayır. Mərkəzi və Qərbi Afrikanın 15 ölkəsi birbaşa Fransanın təsiri altındadır. Bu nəzarət valyuta ittifaqı, ədalətsiz ticarət müqavilələri və hərbi qəyyumluqlar vasitəsilə həyata keçirilir. Xatırladaq ki, fransızlar 1945-ci ildən Fransız Afrikasında yeni pul vahidi tətbiq edirlər. Əvəzində koloniyaların pul ehtiyatlarının 50-65 faizi Fransa xəzinəsinə keçirilir. Bundan başqa, koloniyaların pul ehtiyatlarının 20 faizi xarici öhdəliklərin yerinə yetirilməsinə ayrılır. Beləliklə, bütün koloniyalar pul vəsaitlərinin yalnız 15-30 faizinə nəzarət edə bilirlər.

Bir çox tərəqqipərvər ölkələr, o cümlədən Azərbaycan Afrika xalqlarının və ölkələrinin öz hüquqları uğrunda apardıqları mübarizəyə dəstək verir. Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə BMT-nin Nyu Yorkdakı baş qərargahında "Müstəqillik və fundamental azadlıqlara doğru: müstəmləkiçiliyə son qoyulmasında C-24 komitəsinin rolu" mövzusunda keçirilmiş beynəlxalq konfrans da bu dəstək çərçivəsində reallaşan tədbir idi. Tədbirdə kolonial ölkə olan Fransanın Yeni Kaledoniya, Korsika və Martinikdə zorakılıqları pislənmişdir. Qeyd olunmuşdur ki, BMT-nin müstəmləkə altında olan ölkələr və xalqlara müstəqillik verilməsi haqqında bəyannaməsinin icrası ilə bağlı xüsusi komitə - C24 yaradılsa da, müstəmləkəçilik siyasəti hələ də davam edir. Beləcə, Azərbaycan koloniyalarda əziyyət çəkən xalqların tələblərini və səsini dünya ictimaiyyətinə çatdırmaq üçün ciddi addımlar atır. Bu baxımdan, Bakı Təşəbbüs Qrupu beynəlxalq platforma rolunu oynayır.




*Bahadur İMANQULİYEV, "Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Dünya Bankı "Qlobal iqtisadi perspektivlər" hesabatını açıqlayıb

### Azərbaycanda bu il 2,3, 2025-2026-cı illərdə 2,4 faiz iqtisadi artım olacağı proqnozlaşdırılır




**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi Dünya Bankının "Qlobal iqtisadi perspektivlər" adlı hesabatının iyun buraxılışını şərh etmişdir. Hesabatda iqtisadi artımın qısamüddətli perspektivdə yaxşılaşdığı bildirilsə də, bu yaxşılaşmanın müvafiq standartlara görə hələ də zəif olduğu vurğulanır.**

2024-2025-ci illərdə dünya əhalisinin 80 faizindən çoxunu əhatə edən iqtisadiyyatların təxminən 60 faizində iqtisadi artımın 2010-cu illərin orta səviyyəsindən aşağı olacağı proqnozlaşdırılan hesabatda qlobal iqtisadi artımın 2024-cü ildə 2,6 faiz səviyyəsində olacağı göstərilir. Bu rəqəm 2010-2019-cu illərin orta göstəricisindən yarım faiz bəndi aşağı səviyyədədir. Azərbaycan iqtisadiyyatı üçün təqdim edilən proqnozlar isə 2024-cü il üçün 2,3, 2025-2026-cı illər üçün isə 2,4 faiz səviyyəsindədir. Bu, ölkənin iqtisadi dayanıqlılığını və gələcək illərdə mülayim böyümə gözləntilərini əks etdirir.

Dünya Bankı bildirir ki, qlobal iqtisadiyyat geosiyasi gərginliklər, ticarətin parçalanması, uzun müddət davam edən yüksək faiz dərəcələri və iqlimlə bağlı fəlakətlər də daxil olmaqla bir sıra risklərlə qarşı-qarşıyadır. Bu risklərin aradan qaldırılması üçün qlobal əməkdaşlığı genişləndirmək, xarici ticarəti qorumaq, yaşıl və rəqəmsal keçidi dəstəkləmək, borcları azaltmaq və ərzaq təhlükəsizliyini yaxşılaşdırmaq vacibdir.

Dünya Bankının ekspertləri tərəfindən inkişaf etməkdə olan bazarlara və iqtisadiyyatlara (EMDE) dövlət investisiyalarını artırmaqla, uzunmüddətli iqtisadi artımı təşviq etməklə məhsuldarlığı yaxşılaşdırmaq və özəl investisiyaları stimullaşdırmaq tövsiyə olunur. Xüsusən xarici şoklara yüksək dərəcədə məruz qalan kiçik dövlətlər üçün cari fiskal problemlərin həlli məqsədilə hərtərəfli fiskal islahatlar çox vacib faktor kimi qeyd edilir.

Hesabatda 2025-ci və 2026-cı illərdə inflyasiyanın tədricən aşağı düşməsi, faiz dərəcələrinin endirilməsi və xarici ticarətin güclənməsi fonunda qlobal artımın bir qədər də sürətlənərək orta hesabla 2,7 faizə çatacağı göstərilir. Bununla belə, hələ də pandemiyanın yaratdığı iqtisadi problemləri aradan qaldırmaq üçün hökumətlərin apardıqları fiskal siyasətin qlobal artımı bir qədər zəiflətməsi gözlənilir.

Hesabatda qlobal inflyasiyanın tədricən azalacağı proqnozlaşdırılır ki, bu da mərkəzi banklara 2024-cü ilin sonu və 2025-ci ildə pul siyasətini yumşaltmağa imkan verəcək. Lakin qabaqcıl iqtisadiyyatlarda faiz dərəcələrinin əvvəlki onilliklərlə müqayisədə yenə də daha yüksək qalacağı ehtimal olunur. Belə ki, qlobal iqtisadiyyata inflyasiya təzyiqləri davam edərsə, faiz dərəcələrinin aşağı salınması daha kiçik rəqəmlərlə aparıla və ya ümumiyyətlə, gecikdirilə bilər.

Ekspertlər belə hesab edirlər ki, proqnozlaşdırılan risklərin qarşısını almaq və iqtisadi artımı stimullaşdırmaq üçün güclü iqtisadi siyasət aparılmalıdır. Yaşıl və rəqəmsal keçidi dəstəkləmək, beynəlxalq ticarəti qorumaq, ərzaq və enerji təhlükəsizliyini təmin etmək üçün hökumətlər tərəfindən qlobal səylərə ehtiyac var. Dünya Bankının nəticələrinə görə, dövlət investisiyalarının səmərəliliyinin yüksəldilməsi, insan kapitalının keyfiyyətinin artırılması, davamlılığın və inklüzivliyin gücləndirilməsi üzrə səylər dayanıqlı inkişaf məqsədlərinə nail olmaq və uzunmüddətli artım perspektivlərini gücləndirmək üçün çox vacibdir.

Qeyd edək ki, bütün bu tövsiyələr hələ iki il öncə Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın əsas prioritetlərində öz əksini tapmışdır.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

**Alim təklif edir**

## Ekoloji fəlakətin qarşısını almağın daha bir yolu

### Avtomobillərdən atmosferə atılan zəhərli qazların miqdarını azaltmaq mümkündür

**Yaşadığımız dövrün gündəmdən düşməyən mövzusu - ekologiya Azərbaycan alimlərini də daim düşündürür. Ölkəmizin COP29-a evsahibliyi etməsi ərəfəsində mövzu təbii ki, daha da aktuallaşıb. Onlar da dünyanı ekoloji fəlakətdən qorumaq üçün təkliflərini səsləndirir, əllərindən gələni əsirgəmirlər.**

Bu alimlərdən biri də **texnika elmləri doktoru, professor Rafiq Mehdiyev**dir. O, 40 ilə yaxın dövr ərzində Azərbaycan Texniki Universitetində, 20 il isə qardaş Türkiyədə - İstanbul Texniki Universitetində daxili yanma mühərrikləri (DYM) sahəsində elmi araşdırmalar aparıb. DYM sahəsində 35-dən artıq, sadəcə, qeyd olunan, əksəriyyəti isə tətbiq edilən və Rusiyada, ABŞ-də, Almanyada, Yaponiyada, Fransada, İngiltərədə, İtaliyada patentlərlə qorunan elmi-texniki ixtiraların müəllifidir. İnkişaf etmiş ölkələrin aparıcı jurnallarında 300-dən artıq məqaləsi dərc edilib, ali məktəb tələbələri üçün 2 kitab çap etdirib. Müxtəlif ölçülü və konstruksiyalı yeni mühərriklərin layihələndirilməsi, prototip olaraq istehsal edilib sənayedə tətbiqi üçün müxtəlif testlərin aparılması nəticəsində zəngin təcrübəyə yiyələnib.

Ekoloji baxımdan əhəmiyyətli olan yeni ixtirası barədə isə alimin özü danışır:

- Müasir dövrdə ətraf mühitin həddindən artıq çirklənməsi və Yer kürəsi temperaturunun gündən-günə yüksəlməsi ilə əlaqədar meydana çıxan problemlər dünya enerji istehsalı payında 90 faizdən çox yeri olan neftdən istehsal edilən karbohidrogen tərkibli yanacaqların avtomobillərin, dəniz nəqliyyatının, traktorların və iş maşınlarının daxili yanma mühərriklərində tətbiq edilən mövcud yanma mexanizminin qüsurları ilə bağlıdır. Bu mühərriklərin atmosferə atdığı işlənmiş ziyanlı qazların miqdarını azaltmaq üçün indiyədək də qüvvədə olan, yanma kamerasında yanacaqla havanın yanmadan əvvəl tam - homogen qarışdırılması əsas üsul sayılmaqdadır. DYM ilə işləyən nəqliyyat vasitələrinin, xüsusi olaraq minik avtomobillərinin istehsalının sürətlə artması, işlənmiş qazların tərkibindəki karbon qazı ($CO_2$), dəm qazı (CO) və azot oksidlərinin ($NO_x$) mühitə göstərdikləri ziyanlı ekoloji təsir təbiətdə anormal hadisələrin yaranmasına səbəb olmuşdur. Bu qazları müəyyən dərəcədə azaltmaq üçün müxtəlif filtrləyici sistemlər tətbiq edilirsə də, həmin sistemlər iş prosesində effektivliyini tez bir zamanda itirirməklə yanaşı, mühərriklərin yanacaq qənaətliliyi və güc göstəricilərinə də mənfi təsir göstərməkdədir. Məlum olduğu kimi, xalqımızın Ümummilli Lideri Heydər Əliyev respublikamızda avtomobil sənayesinin yaradılması üçün uzun müddət mübarizə aparmış və Sovet İKP MK Siyasi Bürosunun qərarı ilə Gəncə Avtomobil Zavodunun açılmasına nail olmuşdur. 1992-ci ildən etibarən fəaliyyətə başlaması planlaşdırılan zavodda istehsal ediləcək avtomobillərdə bizim ABŞ, İngiltərə, Almaniya, İtaliya və Yaponiyada patentlərimizlə qorunan ikimərhələli yanma mexanizmi ilə çalışan benzinli mühərrikin də tətbiqi nəzərdə tutulmuşdur. Sovet dövlətinin süqutu ilə inşası bitməkdə olan Gəncə Avtomobil Zavodu fəaliyyətə başlaya bilməmiş və ildə 120 min avtomobil istehsalı proqramı, necə deyərlər, yarı yolda qalmışdır.

Qeyd edək ki, həm benzin, həm də dizel mühərriklərinin qeyd olunan ekoloji, qənaət və performans göstəricilərini yaxşılaşdırmaq üçün professor Rafiq Mehdiyev "MR-Proses" adlandırılan yeni ikimərhələli yanma mexanizmini ixtira edib. Karbohidrogen yanacaqlarının yanma nəzəriyyəsi sahəsində elmi kəşf səviyyəsində olan bu texnoloji yenilik daxili yanma mühərrikləri tarixində ilk nailiyyət hesab edilir və Azərbaycan patenti ilə qorunur. Bununla bağlı müəllif belə deyir:

- Patentdə benzinlə işləyən mühərriklərdə yanacaqla hava qarışığının effektiv və ekoloji təmiz ikimərhələli yanma mexanizmi haqqında məlumat verilir. Bu mexanizm onunla fərqlənir ki, yanma kamerasına daxil olan hava ilə yanacaq bir-birinə mərhələli şəkildə qarışdırılır: yanma kamerasının tam həcmində yer alan havanın təxminən yarısı daxil olmuş yanacağın hamısı ilə qarışdırılaraq zəngin qarışıq yaradılır, havanın qalan 50 faizi isə yanma başlayanadək yanacaqla əsasən qarışdırılmamış qalır. Nəticədə yanma prosesi iki mərhələdə cərəyan edir: ilk mərhələdə zəngin tərkibli qarışığın yanması nəticəsində tam yanma məhsulları ilə yanaşı, natamam yanma məhsulları da (CO və $H_2$) yaranır. İkinci mərhələdə natamam yanma məhsulları havanın qalan hissəsi ilə qarışaraq yanma prosesini davam etdirir. Bu yolla gerçəkləşdirilən yanma prosesi mühərrikin performans və yanacaq qənaətliliyinin artırılmasına və işlənmiş qazların ziyanlı və zərərli komponentlərinin xeyli azaldılmasına imkan verir. Bunun səbəbi benzinli mühərrikin sıxma dərəcəsi yanacağın oktan ədədindən asılı olmayaraq (detonasiya qorxusu yoxdur) dizelin sıxma dərəcəsi səviyyəsində olduğundan və tam yük rejimində belə kasıb yanacaq-hava qarışığından istifadə edilməsidir. Bu imkan verir ki, mühərrikin yanacaq sərfini və işlənmiş qazlarla ətrafa atılan karbon qazının miqdarı iki dəfə azaldılsın. Yüksək sıxma dərəcəsinə sahib olan bu mühərrik dizel prinsipi - öz-özünə alışma ilə də işləyə bilir. Bu halda adi dizellə müqayisədə yanacaq sərfi 10-12 faiz azalır, işlənmiş qazlarla ətrafa atılan azot oksidin miqdarı isə 5-6 dəfə az olur. Bu da imkan verir ki, heç bir əlavə təmizləyici - filtrləmə sistemi tətbiq etmədən işlənmiş qazların ekoloji səviyyəsi Avro-6 standartına uyğun olsun. Belə bir qənaətə gəlmək olur ki, bu yanma mexanizminin geniş tətbiqi müasir dövrdə ekologiyaya mənfi təsirinə görə krizis dövrü yaşayan qlobal avtomobil sənayesinin yenidən dircəlişinə səbəb ola bilər.



Müsahibimiz təəssüflə qeyd edir ki, Gəncə Avtomobil Zavodunun ilkin layihələndirildiyi kimi fəaliyyət göstərməsi mümkün olmadı: "Əgər zavod əvvəl nəzərdə tutulduğu kimi işləsəydi, yeni ixtiradan yararlanaraq ad çıxara bilərdi. Lakin indi Azərbaycanın dost ölkələrin birində (məsələn, Özbəkistanda) Azərbaycan patenti ilə qorunan ixtiranı birgə həyata keçirmək imkanı var". Alimin fikrincə, bu yolla ixtiraya yarı-yarı olsa da, sahib çıxmaq mümkündür.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Azərbaycan Dünya Fermerlər Təşkilatının illik yığıncağında təmsil edilib

**İtaliyanın paytaxtı Romada BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) baş ofisində Dünya Fermerlər Təşkilatının (WFO) illik yığıncağı keçirilib.**

Tədbirdə müxtəlif ölkələrdən dövlət qurumları, özəl sektor, beynəlxalq təşkilatların nümayəndələri, aqrar sahədə çalışan mütəxəssislər, ailə təsərrüfatları, kooperativlərin təmsilçiləri və fermerlər iştirak edib. İclasda Azərbaycanı Aqrar Kredit və İnkişaf Agentliyinin sədr müavini Leyla Cabbarlı təmsil edib.

Tədbiri giriş sözü ilə açan FAO-nun baş direktoru Qu Dongyu yeni çağırışlara uyğun dayanıqlı kənd təsərrüfatı sistemi məsələsinə toxunub. O, ətraf mühiti qorumaqla məhsuldarlığın artırılmasının mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. FAO rəsmisi qeyd edib ki, qlobal çağırışların təsirləri fonunda aqrar sahənin intensiv inkişafı və daha dayanıqlı aqroərzaq sistemlərinin qurulması müasir texnologiyaların tətbiqindən birbaşa asılıdır. Qu Dongyu əlavə edib ki, rəqəmsal texnologiyaların tətbiqi aqrobiznes dəyər zəncirinin formasını dəyişdirməklə istehsal proseslərinin səmərəliliyinə, iqlim dəyişikliklərinə uyğunlaşmağa imkan verəcək.

Tədbirdə çıxış edən mütəxəssislər iqlim dəyişikliyinin aqrar sahəyə təsiri ilə bağlı öz bilik və təcrübələrini bölüşüb, iqlim dəyişikliyi və qlobal istiləşmə fonunda torpaq və su resurslarından səmərəli istifadənin təşkilinin zəruriliyini diqqətə çatdırıblar.

Açılış mərasimindən sonra aqrar sahənin aktual mövzularına dair panel sessiyalar keçirilib. "COP28-dən COP30-a: Kənd təsərrüfatı və qida sistemlərinin İqlim Fəaliyyətinə inteqrasiyası" mövzusunda keçirilən panel sessiyada çıxış edən AKİA-nın sədr müavini Leyla Cabbarlı ölkəmizdə kənd təsərrüfatı sahəsində aparılan islahatlardan söz açıb, Azərbaycanda aqrar inkişaf strategiyasının əsas istiqamətləri, həyata keçirilən innovativ layihələr barədə tədbir iştirakçılarına ətraflı məlumat verib. Leyla Cabbarlı Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsinin əhəmiyyətinə toxunub, iqlim dəyişikliyinin kənd təsərrüfatı sahəsinə təsirinin minimuma endirilməsi məqsədilə həyata keçirilən tədbirlərdən söz açıb. O bildirib ki, Azərbaycan hökuməti ətraf mühitə mənfi təsirlərin yumşaldılması, istixana qazlarının azaldılması, təbii resurslardan səmərəli istifadə, biomüxtəlifliyin, ekosistemlərin qorunmasına xüsusi diqqət yetirir. Bununla yanaşı, ölkəmizdə kənd təsərrüfatı məhsullarının istehsalçılarına davamlı dövlət dəstəyi bu sektorda istehsal göstəricilərinin mütəmadi yüksəldilməsini stimullaşdırmaqla innovativ texnologiyaların tətbiqi imkanlarını genişləndirir.

Panel sessiyalarda ərzaq təhlükəsizliyinin təmin olunmasında aqrar innovasiyaların rolu, innovativ həllərin tətbiqi ilə məhsuldarlığın artırılması, torpaq və su resurslarından daha səmərəli istifadə olunması, aqrar sahədə innovasiya və rəqəmsallaşmanın tətbiqi istiqamətində gələcək əməkdaşlıq istiqamətləri müzakirə olunub.

Tədbir digər panel çıxışları və sual-cavab sessiyaları ilə davam etdirilib.

*"Azərbaycan"*



## 15 rayonda Sosial Reabilitasiya mərkəzləri fəaliyyətə başlayıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin əlilliyi olan uşaqlarla bağlı layihəsi çərçivəsində 15 rayonda Sosial Reabilitasiya Mərkəzləri fəaliyyətə başlayıb.**

Agentliyin sosial sifarişləri əsasında Sabirabad, Zərdab, İmişli, Ağcabədi, Şamaxı, Tərtər, Ağstafa, Qobustan, Balakən, Masallı, Daşkəsən, Bərdə, Yevlax, Saatlı, Göygöl rayonlarında yaradılan bu mərkəzlərdə 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə sosial reabilitasiya xidmətləri göstərilir.

Həmin uşaqlar və ailələri qeyd edilən mərkəzlərdə sosial-psixoloji, reabilitasiya, ailəyə dəstək və maarifləndirmə xidmətlərindən yararlanırlar.

Layihənin məqsədi əlilliyi olan uşaqların sosial reabilitasiya xidmətləri ilə əhatə olunaraq, onların cəmiyyətə inteqrasiyasının dəstəklənməsidir. Layihə çərçivəsində əlilliyi olan 750 uşağa xidmətlərin göstərilməsi nəzərdə tutulur.



## ƏƏSMN-in e-xidmətlərinə 1,4 milyondan çox müraciət qeydə alınıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət sahələri üzrə əhaliyə təqdim olunan elektron xidmətlərə 2024-cü ilin yanvar-may aylarında 1 milyon 400 mindən çox müraciət qeydə alınıb.**

Ölkənin sosial reyestri olan e-sosial.az portalından həmin dövrdə 1 milyon 813 min dəfə istifadə olunub. 106,2 min təyinat e-infrastruktur üzərindən, proaktiv qaydada həyata keçirilib.

Son illərdə sosial sahədə geniş elektronlaşma proqramı icra olunub. Hazırda nazirliyin 159 xidmətindən 145-dən və ya 90 faizdən çoxu elektron qaydada təqdim edilir. Həmçinin 50-dən çox proaktiv xidmət, geniş funksional imkanlara malik e-sosial.az portalı, "Əmək və Məşğulluq" altsistemi yaradılıb.

Nazirliyin e-sistemlərinin 80-dək qurumun informasiya bazaları ilə inteqrasiyası həyata keçirilir. Həmin qurumlardan sorğular da daxil olmaqla, bu ilin 5 ayında nazirliyin e-sistemləri üzərindən sorğu, müraciət və xidmət sayı 263 milyon olub.






ŞUŞA İslam dünyasının mədəniyyət paytaxtıdır






● Milli-mədəni irsimiz

# Şuşa başdan-başa yenidən qurulur

## Tarixi abidələri, yaşayış məhəllələri, turizm infrastrukturu ilə birgə




**"İşğal edilmiş torpaqların hər bir qarışı, hər bir şəhər bizim üçün doğmadır, əzizdir. Mənim üçün hər bir kəndin dəyəri, qiyməti o biri kəndlə müqayisədə, o biri şəhərlə müqayisədə eynidir, bərabərdir. Ancaq siz də yaxşı bilirsiniz ki, Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu, bizim tarixi şəhərimizdir, qədim mədəniyyət ocağıdır ".**

**İlham ƏLİYEV**

**Qafqazın sənət məbədi Şuşa bir çox üstün məziyyətləri, unikal xüsusiyyətləri ilə yanaşı, həm də tarixi abidələr məkanıdır. Bunu belə də dəyərləndirən Ümummilli Lider Heydər Əliyev qala-şəhərimizin Azərbaycan üçün müstəsna əhəmiyyətini vurğulayaraq demişdir: "Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur". Bu, həm də Ulu Öndərin layiqli davamçısına bir mesajı idi. Prezident İlham Əliyev də böyük qürur hissi ilə ata vəsiyyətini yerinə yetirdi.**

Artıq dördüncü ildir ki, azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda nəhəng təmir-bərpa-quruculuq işləri həyata keçirilir, keçmiş məcburi köçkünlər doğma yurdlarına qayıdırlar. Bu prosesin bir qolu da əzəmətli keçmişimizin izlərini, nişanələrini yaşadan maddi-mədəni irs nümunələrinin, tarixi abidələrimizin bərpasıdır. Çünki ermənilər 30 illik işğal dövründə təkcə dinc əhaliyə qarşı soyqırımı törətməmişlər, həm də əsrarəngiz təbiətə - flora və faunaya divan tutmuş, məscidləri, mədəniyyət abidələrini, müqəddəs ziyarətgahları, tanınmış şəxsiyyətlərin ev-muzeylərini barbarcasına çapıb-talamışlar. Bir yandan söküb-dağıdıblar, digər tərəfdən, "humanist" cildinə girərək "bərpa"sı üçün beynəlxalq fondlara müraciət ediblər. Məhz "Şuşanın bərpası"ndan ötrü Ermənistan hakimiyyəti 2000-ci ildə İrəvan şəhərində "Shousi" mədəniyyət fondu və "Şuşi" nəşriyyat evi yaratmışdı. Həmin fond Şuşanın "dünya ermənilərinin dini və mədəniyyət mərkəzi" kimi inkişaf etdirilməsi layihəsini irəli sürmüşdü. Şuşada tarixi abidələrlə bağlı aparılan monitorinqin mədəni dəyərlər üzrə tədqiqatçı-eksperti, Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin üzvü Faiq İsmayılov deyir ki, ermənilər bu "layihə" çərçivəsində 350 hektarlıq qoruq zonasındakı 300 tarixi və mədəniyyət abidəsini, 550 qədim yaşayış binasını sökərək şəhərin landşaftına ciddi zərər vurmuşlar. Çünki məqsədləri "Shousi" mədəniyyət fondunun xətti ilə şəhərdəki tarixi binaları və abidələri erməniləşdirmək idi. Ermənistanın Arxitektura və İnşaat Universitetinin tələbələri Şuşada 220 binanın memarlıq quruluşunun sxemlərini çəkmiş və divarlarının ölçülərini götürüb "bərpa" üçün hazırlamışlar. Hayastanın nazirlər kabinetində isə konsepsiya bəyənilərək icrasına hər il 30 milyon dram vəsait ayrılırdı.

Nə yaxşı ki, tarixi Zəfər azğınların bu niyyətini gözlərində qoydu. Ötən ayın sonunda "Qarabağda və Şərqi Zəngəzurda tarixi abidələrin qorunub saxlanması problemləri" mövzusunda Şuşada keçirilən plenumda şəhərdəki 200-ə yaxın tarixi-memarlıq abidəsindən 18-nin bərpa olunması bildirildi. Qeyd olundu ki, bərpa prosesində yerli mütəxəssislərin böyük rolu var. Həmçinin xatırlandı ki, Şuşanın beynəlxalq müstəvidə tanıdılması və təcrübə mübadiləsi çərçivəsində ötən il türk dünyası memarlarının "Şuşa simpoziumu" keçirilmişdir. Bu il isə islam dünyası memarlarının görüşü nəzərdə tutulur.

Xəbər verildiyi kimi, bir neçə gün öncə dövlət başçısı və Birinci vitse-prezident Şuşada Çöl Qala məscidində aparılan bərpa işləri ilə tanış olublar. Tarixi abidənin restavrasiyası Heydər Əliyev Fondunun layihəsi, "PAŞA Holdinq"in dəstəyi ilə həyata keçirilir. XIX əsrdə Şuşa şəhərində fəaliyyət göstərən bu dini ocaq 17 məsciddən biridir və Çöl Qala məhəlləsinin Qasım bəy Zakir küçəsində yerləşir. Tarixi abidə XIX əsrdə Kərbəlayi Səfixan Qarabaği tərəfindən inşa olunub, minarəsiz formadadır. Şuşa şəhərinin əksər məscidləri kimi, düzbucaqlı, ümumi girişi isə asimmetrik şəkildə düzülmüş əsas fasaddan ibarətdir. İnteryeri tamamilə islam memarlığına uyğundur.

Çöl Qala məscidinin yaxınlığında isə XIX əsrə aid Çöl Qala bulağı var. Bulağın divarları dördbucaq formada, ətrafdakı məscidlərin üslubunda tikilib. İşğal dövründə bulaq da dağıdılmış, daş kitabələri məhv edilmişdir. Ümumiyyətlə, qala-şəhərimizdə tarixi binalarda yerləşən Dövlət Musiqili Dram Teatrı, Qarabağ və Şuşa şəhərinin tarix muzeyləri, Üzeyir bəy Hacıbəylinin, Bülbülün, Mir Möhsün Nəvvabın xatirə muzeyləri, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Dövlət Rəsm Qalereyası, 4 texnikum və 2 institut filialı, orta və orta ixtisas musiqi məktəbləri, kitabxanalar, 2 sanatoriya, görkəmli sənət adamlarının ev-muzeyləri, 70 yerlik turist bazası, 1200 yerlik internat məktəbi və s. dağıdılmışdır.

Lakin bütün bu fəlakətlər qara, qorxulu yuxu kimi artıq geridə qalıb. Hazırda 12 əsas məhəllədə birmərtəbəli, ikimərtəbəli və beşmərtəbəli binalar tikilir, inzibati və sosial obyektlər inşa edilir. Cənub yaşayış massivində 23 binadan ibarət yaşayış kompleksi artıq hazırdır. Böyük qayıdış başlanıb, bir qrup sakinə evlərinin açarları təqdim olunub. Bir sözlə, Şuşa başdan-başa yenidən qurulur.

***Qurban MƏMMƏDOV***

● İncəsənət xadimləri

# Nazim Hikmətin mənəvi övladı - Münəvvər Rzayeva



**Heykəltaraşlığa marağı kiçik yaşlarında rəssamlıqdan başladı. Bəlkə də ona görə ki, 1929-cu il iyunun 6-da dünyaya gəldiyi Şuşanın sanki mahir, qüdrətli bir rəssamın fırçası ilə yaradılmış füsunkar, əsrarəngiz təbiəti uşaqlıq illərindən duyğularını qanadlandırır, arzulanı işıqlandırmışdı. Atası Məcid kişinin Şuşada tanınmış xalça ustası olması, sənətkar ailəsində böyüməsi də Münəvvər Rzayevanın peşə seçiminə güclü təsir göstərdi.**

Orta məktəbi başa vurub xəyallarını gerçəkləşdirmək üçün Bakıya üz tutdu. Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə (indiki Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kolleci) daxil olması arzuları yolunda atdığı ilk uğurlu addımlardan oldu. 1950-ci ildə Rəssamlıq Məktəbini bitirən gənc Münəvvər bu sahədə ali təhsil almaq üçün Moskvaya getdi. V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq Akademiyasının Heykəltaraşlıq fakültəsində Nikolay Tomskinin sinfində oxumağa başladı.






Tələbəlik illəri bir-birindən maraqlı, şirin xatirələrə çevrilə-çevrilə ömründən ötüb keçirdi. Moskvada 1954-cü ilin soyuq noyabrında böyük türk şairi Nazim Hikmətlə tanışlığı isə Münəvvər üçün o xatirələrin bəlkə də ən unudulmazı oldu. Doğma Vətənindən ayrı düşmüş, orada qalan yaxınlarının, oğlunun, həyat yoldaşı Münəvvərin həsrətini çəkən şair azərbaycanlı tələbə qızın adını eşidəndə qüssə içində: "Bura gəldiyim vaxtdan ilk dəfə Münəvvərin adını eşidirəm, ona görə də bir an özümü pis hiss etdim", - dedi.

Münəvvər Rzayeva Nazim Hikmətə onun büstünü hazırlamaq istədiyini söylədi. Təklifi şair tərəfindən qəbul olundu. Heykəl üzərində iş aylarla davam etdi...

Münəvvər kiçik yaşlarında atasını itirmişdi. Bəlkə də buna görə 1954-cü ilin soyuq qışında ağır sətəlcəm olanda Nazim Hikmətin keçirdiyi rahatsızlıq onu kövrəltdi. Şair Münəvvərin qayğısına qalır, müalicəsi üçün ən yaxşı həkimlərə müraciət edirdi. Gənc qız çətinliklə xəstəlikdən qurtuldu. O zaman Nazim Hikmətdən gözləmədiyi bir təklifi eşitdi: "Münəvvər, mənim oğlum var, istəyirəm qızım da olsun. Sən mənim qızım olarsanmı?". Bu təklifi sevinclə qəbul edən Münəvvər şairin yanına köçdü. Günlərin birində Nazim Hikmət Münəvvər Rzayevaya xatirə olaraq verdiyi portretinin arxasına bu sözləri yazdı: "Adaşın mənə görə bəxtiqara oldu, sənə faydam toxunar inşallah, qızım".

1956-cı ildə Münəvvər Rzayeva ali təhsilini başa vurdu. Nazim Hikmət mənəvi qızına Bakıya qayıtmaması üçün israr etdi. Ancaq onu fikrindən daşındıra bilmədi. Münəvvər Vətəni üçün çox darıxmışdı, orada yolunu gözləyən anası vardı. Bir də sevdiyi, dərs aldığı sənət sahəsində görəcəyi işlər çox idi. Münəvvər Rzayeva məşhur şairin şöhrətinə, "Nazim Hikmətin qızı" adına sığınmadan yalnız öz istedadı, əməyi ilə tanınmaq arzusunda idi.

Gənc heykəltaraş 1956-cı ildə Azərbaycana qayıtdı. Amma qərib şairi, onun son sözlərini unutmadı. Nazim Hikmət ona demişdi: "Münəvvər, bilirəm, mən öldükdən sonra abidəmi hazırlayacaqsan. Onun üstündə uzaqda qalmış bir qadın surəti, bir də mənim gözlərimi həkk et. Yaşamaq istəyirəm. Baxmaq, görmək istəyirəm".

Münəvvər Rzayeva Nazim Hikmətin vəsiyyətinə əməl etdi. Şairin büstünü hazırladı. Hazırda həmin büst Zaqatala muzeyindədir.

1943-cü ildən müxtəlif sərgilərdə iştirak edən Münəvvər Rzayeva 1953-cü ildə Azərbaycan Rəssamlar İttifaqının üzvü seçildi. Mədəniyyət Nazirliyinin Dövlət Komissiyasının üzvü oldu. Azərbaycan Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyində bərpaçı rəssam kimi fəaliyyət göstərdi, bir sıra heykəlləri bərpa etdi.

O, təkcə istedadına güvənməklə böyük sənətkar olmağın mümkünsüzlüyünü yaxşı bildiyi üçün yorulmaq bilmədən çalışdı. Bu səyi, zəhməti sayəsində məhsuldar rəssam kimi tanındı. Adı incəsənət tarixinə Azərbaycan monumental heykəltaraşlığının ilk qadın nümayəndəsi kimi yazıldı.

Münəvvər Rzayeva Bakıda və Azərbaycanın digər bölgələrində qoyulmuş yüzədək heykəl və büstün müəllifidir. Onun əsərləri Azərbaycan Milli İncəsənət Muzeyində, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində, Ordubadi muzeyində, Siyəzən Mədəniyyət Evində, Bədii Fondda və digər yerlərdə saxlanılır. Mütəxəssislər özünəməxsus dəstxətə malik olan heykəltaraş Münəvvər Rzayevanı psixoloji portret ustası hesab edirlər.

Heykəltaraş əsərlərini yaratmaq üçün qranit, mərmər, bürünc, ağac və digər materiallardan istifadə edirdi. Yaradıcılığında sənət adamlarının, eləcə də dövlət xadimlərinin və əmək qəhrəmanlarının heykəlləri, büstləri, barelyefləri əsas yer tutur. O, Məhsəti Gəncəvi, Mirzə Ələkbər Sabir, Hüseyn Cavid, Mikayıl Müşfiq, Nazim Hikmət, Bəhmənyar, Sergey Yesenin, Nəriman Nərimanov, Mehdixan Vəkilov, Nigar Rəfibəyli, Sevil Qazıyeva və digər heykəllərin, büstlərin müəllifidir. Qusar rayonunda yerləşən dağın 3763 metr hündürlüyündəki "Heydər zirvəsi"nə bərkidilən Heydər Əliyevin tunc barelyefi heykəltaraşın sonuncu işlərindən biridir.

Azərbaycanın ilk monumentalçı qadın heykəltaraşı, Əməkdar rəssam Münəvvər Rzayeva 2004-cü il iyunun 6-da - doğum günündə vəfat etdi.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

● Vətən müharibəsi

# Şuşa uğrunda döyüşlər xarici mütəxəssislərin yazılarında



**Tarixi hadisələr, tarixi döyüşlər heç vaxt unudulmur. Həmişə yazılır, xatırlanır. Şuşanın azad olunması uğrunda gedən döyüşlər də tarixilik qazanıb.**

Belə olmasaydı, Şuşa döyüşləri ölkəmizdən kənarda da peşəkarlar tərəfindən öyrənilməz, geniş şərh olunmazdı. Amerikalı mütəxəssislər Müasir Müharibə İnstitutunun saytında institutun Şəhər Müharibəsi araşdırmalarının rəhbəri, layihənin həmmüəllifi Con Spenser və Seton Hall Universitetinin Diplomatiya və Beynəlxalq Münasibətlər Məktəbində beynəlxalq əlaqələr üzrə bakalavr təhsili alan Harşana Qurhunun müəllifləri olduğu "Şuşa uğrunda döyüş və 2020-ci il Dağlıq Qarabağ Müharibəsinin qaçırılan dərsləri" adlı məqalə yazıblar. Məqalədə Şuşa uğrunda gedən döyüşlər, bu döyüşlərdə böyük hünər göstərmiş zabit və əsgərlərimizin qəhrəmanlığından yazılır. Məqaləni nəzərdən keçirdikcə təhlillərin daha çox Azərbaycan Ordusunun üstünlüyü üzərində qurulduğu aydın hiss edilir. amerikalı şərhçilər yazırlar: "2020-ci il Dağlıq Qarabağ müharibəsi kifayət qədər diqqət mərkəzində olub. 6 həftəlik müharibə haqqında edilən şərh və təhlillər döyüşün gələcəyi üçün bir sıra iddialar ortaya qoydu: hərbi kampaniyalarda müharibənin şəhər xarakteri barədə açıq xatırlatmalar təklif etməsi bu müzakirələrdən tamamilə kənarda qalan bir məqamdır. 1988-1994 və 2016-cı illərdə Azərbaycan və Ermənistan arasında müasir dövrdə bölgədə bir neçə böyük döyüş əməliyyatları baş verib. 2020-ci ilin sentyabrında Azərbaycanın torpaqlarının azad edilməsi üçün həyata keçirdiyi əks-həmlə əməliyyatını isə dünya diqqətlə izlədi".

Məqalədə diqqət daha çox Şuşa uğrunda gedən döyüşlərə yönəldilib: "Müharibənin ən vacib döyüşü Şuşa şəhərində baş verdi. Şuşa azad olunduqdan sonra Ermənistan təslim oldu və işğal etdikləri ərazilərdən çıxaraq, məğlub tərəf kimi müqavilə bağladı. Şuşa şəhəri və ətrafdakı on kənddən ibarət olan böyük Şuşa bölgəsi Dağlıq Qarabağın mərkəzində yerləşir. Tez-tez "Azərbaycanın mədəniyyətinin beşiyi" kimi xarakterizə olunan Şuşada Azərbaycan ziyalıları, şairləri və yazıçıları doğulublar. Şuşada məscid və məqbərələr kimi bir çox mühüm mədəni abidələr yerləşir... Şuşa 1992-ci ildə Ermənistan tərəfindən işğal olundu. O zaman ərazidə 23 mindən çox azərbaycanlı olduğu təxmin edilir. Döyüş zamanı və sonra şəhərin çox hissəsi dağıdıldı və Azərbaycan əhalisinin çoxu öldürüldü, qovuldu və ya didərgin salındı".

Məqalə müəllifləri uğrunda gərgin döyüşlər getmiş Şuşanın gözəlliyini də təsvir edirlər: "Şuşa bölgədəki digər şəhər və rayonların zirvəsində dayanır. Gözəl görünüşü və dağlıq ərazisi işğal olunmuş bütün rayonun nəzarət altında saxlanılması üçün strateji üstünlük verir. Şəhər, həmçinin nəhəng təbii qaladır. Üç tərəfdən, şəhərin kənarlarından hündür qayalar ucalır və şəhərin qərb kənarı boyu şimaldan cənuba yalnız böyük bir yol keçir. 2020-ci il müharibəsi zamanı həm Azərbaycan, həm də Ermənistan üçün, mübaliğəsiz, mədəni əhəmiyyətini və əsas coğrafi üstünlüyünü nəzərə alaraq, Şuşaya nəzarət etmək hər iki tərəfin ən əsas məqsədi idi".

Məqalədə zabit və əsgərlərimizin qəhrəmanlığı da öz əksini tapıb. "Oktyabrın 28-30-da Şuşanı təcrid etmək və şəhərin müdafiəsini pozmaq üçün mövqe tutan 400 nəfərlik Azərbaycanın xüsusi təyinatlı qüvvələri meşələr və yarğanlar arasında güclü müdafiə olunan Laçın dəhlizindən və ətraf kəndlərdən keçiblər. Məlumata görə, onlar şəhərə bir çox istiqamətdən daxil olublar və fərqli hədəflərə yaxınlaşmaq üçün 100 nəfərlik qruplara bölünüblər. Ermənilər Azərbaycan qüvvələrinin əsas yollardan hücum edəcəklərini gözləyirdilər. Lakin əsgərlərin çoxu atəş dəstəyi olmadan ermənilərin qorumadığı dik qayalıqlara dırmaşdılar. Qaranlıq, davam edən Laçın hücumları və müdafiəçilərin uğursuz xəyalları Azərbaycanın xüsusi təyinatlı qüvvələrinin görünməz meşələr və dağlıq ərazilərlə Şuşa müdafiəsini qırmaq üçün qərarlı hərəkətdə olmalarını təmin etdi.

Noyabrın 4-də Azərbaycanın piyada qoşunlarının Şuşanın cənubundakı Daşaltı kəndi yaxınlığında olan yol uğrunda döyüşdükləri barədə xəbərlər gəldi. Həmin günə qədər Azərbaycan silahlı qüvvələri Şuşanın cənubundakı dağ silsiləsini və Şuşanı Laçın şəhərinə bağlayan Laçın dəhlizinin əsas hissələrini də azad etmişdilər. Noyabrın 5-də axşam saatlarında Azərbaycanın xüsusi təyinatlı qüvvələrinin bir qismi əsas yola çatdı və Şuşanın müdafiəsinə kömək etmək istəyənləri təcrid etdilər. Bu, şəhərin ən azı üç əsas istiqamətdən açıq şəkildə mühasirəyə alındığı üçün Şuşaya az miqdarda yardım gələcəyi demək idi. Noyabrın 6-da Azərbaycan qoşunları şəhərin kənarına çatdı... Noyabrın 7-də ərazini duman bürüdü. Bu, Azərbaycan qüvvələrinin müharibə boyu onlara bu cür üstünlük qazandıran havadan müşahidə və zərbə qurğularının istifadəsini əhəmiyyətli dərəcədə məhdudlaşdırdı. Əks-hücuma baxmayaraq, Azərbaycan qüvvələri öz mövqelərini qorudular. Şuşa meşələrində müdafiə xətti qurdular və üç erməni əks-hücumunu dəf etdilər. Şuşa İcra Hakimiyyətinin binasını ələ keçirərək, erməni qüvvələrini qovmağa başladılar, şəhərdəki binaları və daha geniş əraziləri təmizlədilər. Şuşa uğrunda döyüş sonda binadan-binaya yaxın döyüşə çevrildi.

Noyabrın 8-də Prezident İlham Əliyev xalqa Azərbaycan Ordusunun Şuşanı işğaldan azad etdiyi müjdəsini verdi. Şuşanın azad edilməsi Azərbaycan üçün böyük bir strateji qələbə idi və nəticədə, müharibənin taleyini həll etdi. Şuşa uğrunda gedən döyüş göstərir ki, qələbə üçün geniş təsəvvür və müharibə oyunlarını da əhatə edən müdafiə planlarına sahib olmaq lazımdır".

Şuşa uğrunda gedən döyüşləri həmişə iftixar hissi ilə xatırlayacağıq. Çünki Şuşanın azadlığı naminə aparılan döyüşlər tarixi döyüşlərdir. Ona görə də unudulmur, öyrənilir və gələcəkdə də öyrəniləcək.

***Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"***

## Bülbülün anadan olmasının 127-ci ildönümünə həsr edilmiş tədbir keçirilib

Bülbülün Memorial Muzeyinin və Bülbül Vokal Məktəbinin birgə təşkilatçılığı ilə Azərbaycan professional vokal sənətinin banisi, SSRİ Xalq artisti, professor Bülbülün anadan olmasının 127-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan muzeyin direktoru Fərqanə Cabbarova dahi Bülbülün əziz xatirəsinin hər il olduğu kimi bu il də 24 il yaşadığı evdə yad edildiyini vurğulayıb.

Tədbirdə Bülbül məktəbinin davamçısı, Əməkdar artist Ramil Qasımov çıxış edərək bu məktəbin davamçısı olmasından qürur duyduğunu, Bülbül ənənələrini yaşatmaq, gələcək nəsillərə ötürmək məqsədilə yaratdığı Bülbül Vokal Məktəbindən bəhs edib.

Bülbülün anadan olmasının 127-ci ildönümünə həsr olunmuş tədbirdə Bülbül Vokal Məktəbinin tələbələri çıxış ediblər.

## Əlcəzairdə Şuşa haqqında kitab çapdan çıxıb




Əlcəzairdə akademik Zemfira Səfərovanın "Azərbaycanın musiqi qalası - Şuşa" kitabı çapdan çıxıb.

AZƏRTAC ölkəmizin Əlcəzairdəki səfirliyinə istinadla xəbər verir ki, 2024-cü ildə Şuşa şəhərinin "İslam dünyasının mədəniyyət paytaxtı" elan olunması çərçivəsində diplomatik nümayəndəliyimizin dəstəyi ilə AMEA-nın həqiqi üzvü, akademik Zemfira Səfərovanın müəllifi olduğu "Azərbaycanın musiqi qalası - Şuşa" kitabı ərəb dilində bu ölkənin "DJIL Print" nəşriyyatı tərəfindən nəfis şəkildə çapdan çıxıb.

Kitabda Şuşa şəhərinin 1750-ci ildə Qarabağ xanı Pənah Əli Xan tərəfindən əsasının qoyulması, burada Azərbaycanın görkəmli musiqiçiləri, bəstəkarları və ifaçılarının yetişməsi haqqında ərəb ictimaiyyətinə müfəssəl məlumat verilir. Bununla yanaşı, bu qədim mədəniyyət paytaxtında "Məslisi-üns", "Məclisi-fəramuşan" kimi ədəbi və musiqili məclislərin təşkil edildiyi, "Qarabağın konservatoriyası" adı verilmiş bu şəhərin 30 ilə yaxın erməni işğalı altında olduğu və 44 günlük Vətən müharibəsi zamanı azad edildiyi diqqətə çatdırılır.

Müəllif Şuşanın Azərbaycan, Şərq və bütövlükdə dünya mədəniyyəti üçün əhəmiyyətindən də söz açır.

Kitabda Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Şuşanın işğaldan azad olunması münasibətilə xalqa müraciəti də yer alıb.



# Avro-2024





## Fatih Terim hamını milliyə dəstək olmağa çağırdı



**Türkiyə millisinin sabiq baş məşqçisi Fatih Terim komandanın "Avro-2024"ün 2-ci turunda Portuqaliyaya 0:3 hesabı ilə uduzduğu matç haqqında danışıb. Matçı dəyərləndirən təcrübəli mütəxəssis komandada müəyyən boşluqlar olduğunu bildirib: "Portuqaliya topa daha çox sahib idi. Millimiz müdafiə olunarkən nə bloklar arasındakı boşluqları bağlaya bildi, nə də ötürmələri edə bildi. Portuqaliya daha çox qol vura bilərdi. Bunu qəbul etməliyik. Bəli, Gürcüstanla oyunda qələbə və gözəl qollar oldu, amma o görüşdə etdiyimiz səhvlər bizi daha diqqətli olmağa dəvət etməli idi. Ancaq mən belə diqqət görmədim".**

Fatih Terim onu da bildirib ki, milli komandaya dəstək olmaq lazımdır: "Məşqçimizə və komandamıza güvənirik. Bu etimadı turnir başa çatana qədər, fərdi olaraq heç kimi günahlandırmadan, səmimi şəkildə göstərməliyik. İnsanlar pis gündə tanınır. Bizim də pis günümüz olub. İndi də məşqçimizə və komandamıza kömək etməliyik.  Portuqaliyaya hər komanda məğlub ola bilər".

Qeyd edək ki, Türkiyə millisi 2 oyundan sonra 3 xalla F qrupunda 2-ci pillədədir. Komanda qrupda sonuncu oyununu iyunun 26-da Çexiyaya qarşı keçirəcək.

## Qorxulu anlar

**"Avro-2024"ün A qrupunun 3-cü turunda keçirilən Şotlandiya - Macarıstan oyununda (0:1) qorxulu anlar yaşanıb. Macarıstan millisinin futbolçusu Varqa Barbanas matçın 70-ci dəqiqəsində rəqib qapıçı Qunn ilə toqquşub və yerə yıxılıb.**

Zərbədən huşunu itirən Varqaya bir müddət meydançada ilkin müdaxilə edilib. Komanda yoldaşları və mühafizə xidməti futbolçunun görüntülənməməsi üçün onun ətrafında dayanıblar. Xərək vasitəsi ilə meydandan çıxarılan oyunçu təcili yardım maşını ilə xəstəxanaya göndərilib. Daha sona Varqanın huşunun yerinə gəldiyi açıqlanıb.

## "Çox risk etdik"




**"Biz hesabı bərabərləşdirməklə stadionu oyatdıq. İsveçrə ilə oynamaq narahat idi, onlar çox aqressiv oynayırdılar. Biz uzun müddət yaxşı müdafiə olunduq və qapımıza vurulan qoldan sonra çox risk etdik. Heç-heçə layiqli nəticədir".**

Bu sözləri Almaniya millisinin baş məşqçisi Yulian Naqelsmann qrup mərhələsinin 3-cü turunda İsveçrə ilə oyundan (1:1) sonra deyib.

O, komandanın futbolçusu Füllkruqun son dəqiqələrdə vurduğu qolla bağlı deyib: "Füllkruq yenə yaxşı qol vurdu. O, bizim üçün önəmlidir. Sevinirik ki, ehtiyat oyunçular skamyasından meydana buraxa biləcəyimiz elə bir futbolçumuz var. Əvəzedicilərdə həlledici qollar vura bilən oyunçuların olması vacibdir. Başlanğıc heyəti seçmək üçün rəqibi təhlil edirik və sonra ehtiyat oyunçular skamyasından müxtəlif oyunçular matça cəlb edə bilərik".

## Mikautadze tarixə düşdü



**Avropa çempionatında ilk xalını qazanan Gürcüstan yığmasında çexlərin qapısına vurulan qolun müəllifi Georgi Mikautadze adını yarışın tarixinə yazdırıb. Mikautadze komandasının ilk iki oyununun hər birində qol vuraraq uelsli Qaret Beylin nəticəsini təkrarlayıb.**

Gürcü qolçu bunu Türkiyə və Çexiya ilə matçlarda edib. Uelsli forvard isə 2016-cı ildə slovaklara və ingilislərə qarşı oyunların hərəsində bir qol vurub. Ancaq Beyl həmin il qitə çempionatında debüt edən komandasının Rusiya ilə 3-cü oyununda da fərqlənib. Mikautadze bu tarixi uğuru təkrarlamaq üçün indi Portuqaliya ilə matçda da qol vurmalıdır.

Gürcü futbolçu həm də Avropa çempionatları tarixində yığmasının ilk iki debüt qolunu vuran 6-cı, "Avro-2012"də İsveçin qapısından iki top keçirən ukraynalı Andrey Şevçenkodan sonra isə bunu edən ilk futbolçu olub.

Qeyd edək ki, Gürcüstan - Çexiya matçı 1:1 hesabı ilə başa çatıb.

## Günün təqvimi

**25 iyun, 3-cü tur**

**D qrupu: 20:00. Niderland - Avstriya**

**D qrupu: 20:00. Fransa - Polşa**

**C qrupu: 23:00. İngiltərə - Sloveniya**

**C qrupu: 23:00. Danimarka - Serbiya**

## Levandovski uğursuzluğun səbəbini açıqladı



**Polşa millisinin hücumçusu Robert Levandovski Avstriyaya 1:3 hesabı ilə uduzaraq pley-offa çıxmaq şanslarını itirdikləri oyundan sonra fikirlərini bildirib.**

O deyib: "Heç bir xal qazanmadıq və bu, əlbəttə ki, bizim üçün utancvericidir. Biz başa düşürük ki, hər şey səhv getdi. Burada bir çox amillər var idi. Matça pis başladıq, ilk 20 dəqiqədən sonra qol epizodları yaratdıq. Rəqibin cərimə meydançasında olduq".

35 yaşlı hücumçu bildirib ki, buraxılan qol tarazlıqlarını pozub: "Bundan sonra tarazlığımızı saxlamaq bizim üçün çətin oldu. Biz daha çox risk etdik. Rəqibin yaratdığı iki-üç qol epizodu baha başa gəldi".

Qeyd edək ki, Polşa millisi D qrupunda 0 xalla sonuncu pillədə qərarlaşıb. Milli qrupun son matçında bu gün qarşılaşacaq.

*Hazırladı:*
*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

## "Döyüşdük, çox qaçdıq"



**"İlk növbədə futbolçularımı təbrik etməliyəm. Bu, taktiki oyun idi. Döyüşdük, çox qaçdıq. Belə rəqiblə qarşılaşmaq çətindir. Amma oyunumuzdan razıyam. Bu, böyük bir sınaq idi".**

Bu sözləri İsveçrə millisinin baş məşqçisi Murat Yakın "Avro-2024"ün 3-cü turunda Almaniya ilə keçirilən oyundan sonra mətbuat konfransında deyib.

İsveçrə millisi güclü rəqibi ilə 1:1 hesablı heç-heçə edərək qrup ikincisi kimi pley-offa yüksəlib. Türkəsilli mütəxəssis matçı və mərhələ adlamaqlarını belə şərh edib: "Hücumçularımız yaxşı iş gördülər. Ümumi komanda hücumda və müdafiədə yaxşı çıxış etdi. İndi növbəti oyuna hazırlaşmağa bir həftə vaxtımız var. Yenilməz olduğumuz üçün şadam. Bu, birincilik üçün kifayət etmədi, amma hər halda müsbət haldır. İsveçrə millisi çox çalışan və düzgün komanda ruhuna malik kollektivdir".

Qeyd edək ki, İsveçrə millisi qrupun digər oyunlarında Macarıstana qalib gəlib, Şotlandiya ilə heç-heçə edib.

## Mbappe Polşaya qarşı oynayacaq?



**Fransa yığmasının baş məşqçisi Didye Deşam komandanın hücumçusu Kilian Mbappenin zədəsi ilə bağlı açıqlama verib. Təcrübəli mütəxəssis hücumçunun Polşa ilə matçda oynaya bilmə ehtimalı barədə məlumat verib. Deşam bərpa prosesinin uğurlu keçdiyini bildirib:**

"Mbappe Polşaya qarşı meydana çıxa biləcəkmi? Hər şey uğurlu keçir, onun bərpa prosesi gedir. O, maskaya uyğunlaşmağa çalışır. İndidən dəqiq bir söz söyləmək mümkün deyil".

Qeyd edək ki, Mbappe ilk turun Avstriya ilə oyununda zədələnib. O, Niderlandla görüşü ehtiyat oyunçular skamyasında keçirib.

# Yayda qida zəhərlənməsindən necə qorunaq?

**Yay mövsümündə ən vacib məsələlərdən biri qida məhsullarının düzgün saxlanılmasıdır. Çünki qızmar havalarda zəhərlənmələrin əsas səbəbi məhz qidaların düzgün saxlanılmaması, eləcə də meyvə-tərəvəzin yaxşı yuyulmamasıdır.**

### Konservləşdirilmiş qidaların istifadəsi azaldılmalıdır

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinin həkim-toksikoloqu Aynur Məmmədova qeyd etdi ki, yay mövsümündə zəhərlənmələrin artmasının əsas səbəbi qida məhsullarının düzgün saxlanılmamasıdır: "Elə qidalar var ki, onlar yalnız soyuducularda saxlanılmalıdır. Soyuducudan çıxardıqdan sonra müəyyən bir müddət ərzində istifadə edilib yenidən geri qoyulmalıdır. Soyuq mühitdə mühafizə edilməli qida məhsullarının zəncirvari prinsipinin pozulması onlara bakteriyaların düşməsini asanlaşdırır. Münbit şəraitdə isə mikroblar bölünərək artır. Ümumiyyətlə yay aylarında konservləşdirilmiş, mayonezli, souslu və kremli məhsulların istifadəsi minimuma endirilməlidir".

A.Məmmədovanın sözlərinə görə, konservləşdirilmiş qidaları qarışdıranda onların saxlanma müddəti daha da azalır: "Elə buna görə də toy, doğum günü və ya digər yığıncaqlarda qida zəhərlənmələri daha çox baş verir. Mayonez, yaşıl noxud, duzlu xiyar kimi məhsulların istifadə edildiyi müxtəlif növ salatları uzun müddət açıq havada saxlamaq olmaz. Vəziyyəti daha da qəlizləşdirən isə belə məclislərdə bir deyil, bir neçə qarışıq, təhlükəli tərkibli qidaların qəbuludur. Eyni vaxtda həm salat, həm müxtəlif turşular yeyərkən xüsusilə ehtiyatlı olmaq lazımdır".

Meyvə, tərəvəz və göyərtilərin təmiz yuyulmasının vacibliyini vurğulayan mütəxəssis qeyd edib ki, zəhərlənmələrin digər əsas səbəbi sanitar-gigiyena qaydalarına düzgün riayət edilməməsidir: "Meyvə-tərəvəzləri yaxşı yetişdirmək, yabanı ot və böcəklərdən qorumaq üçün müxtəlif peptisid və toksik maddələrdən istifadə edilir. Bu qida məhsulları yaxşı yuyulmadıqda müxtəlif allergiya və zəhərlənmələr qaçılmaz olur".

### Yüngül yeməklərə üstünlük verilməlidir

A.Məmmədova bildirib ki, qida zəhərlənmələrinin ilkin əlamətləri halsızlıq, ürəkbulanma, qusma, ishal, təzyiqin düşməsi, nəbzin zəifləməsi, soyuq tər, dəri rənginin ağarması, qarında yaranan köp və tutmaşəkilli ağrılardır: "Daha ağır hallarda isə bayılma, görmənin və beyin fəaliyyətinin pozulması, hallüsinasiyalar, əzələ zəifliyi kimi simptomlar müşahidə edilir. Zəhərlənmənin əlamətləri adətən, qida qəbulundan 1-2, bəzən 6-8 saat sonra özünü büruzə verir".

Qida zəhərlənmələri mədə-bağırsaq sistemində, qaraciyər, mədəaltı vəzidə xroniki xəstəliyi olanlar, uşaqlar, yaşlılar və hamilələr üçün daha risklidir. Mütəxəssisin sözlərinə görə, bu zaman ən təhlükəli hal orqanizmin susuzlaşmasıdır. Uşaqlarda isə su itkisi daha sürətli gedir. Buna görə də azyaşlılarda qusma halları gün ərzində 2-3 dəfədən çox olarsa, xəstə mütləq xəstəxanaya aparılmalıdır. Əks halda, ciddi fəsadlar yarana bilər.



Həkim-toksikoloq qeyd edib ki, qida zəhərlənmələri zamanı vaxt itirmədən tibbi yardım çağırılmalıdır: "Bu mümkün olmadıqda ilk yardım olaraq mədə-bağırsaq yuyulmalı, daha sonra xəstəyə aktivləşdirilmiş kömür verilməlidir. Hər 10 kq çəkiyə bir tablet kömürü əzib bir stəkan su ilə qəbul etmək lazımdır. Zamanında tibb məntəqəsinə müraciət edilsə, xəstənin orqanizmi 1-3 saat ərzində tam bərpa olunacaq. Zəhərlənmənin birinci günü xəstəyə hər hansı qida vermək tövsiyə edilmir. Bu, həzm sisteminin daha tez bərpasına kömək edəcək. Növbəti günlərdə isə xüsusi pəhriz təyin olunur".

A.Məmmədova vurğulayıb ki, yay aylarında daha yüngül yeməklərə üstünlük verilməlidir: "Çünki orqanizm isti havalarda ağır qidaları gec həzm edir. Ona görə daha çox ağartı məhsulları, bol su, mövsümi meyvə-tərəvəz qəbul edilməli, yağlı, ağır yeməklərdən imtina olunmalıdır. Ümumiyyətlə, aldığımız bütün qida məhsullarının qablaşdırılmasına, istehsal tarixi və yararlılıq müddətinə diqqət etməliyik. Açıq məhsul almaqdan isə mümkün qədər çəkinmək lazımdır. Sadə sanitar-gigiyena qaydalarına əməl etməklə, təmizliyi qorumaqla, müəyyən məqamlara diqqət etməklə qida zəhərlənmələrindən yayınmaq mümkündür".

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Kəlbəcər və Laçında yerləşən kiçik su-elektrik stansiyalarına karbon sertifikatlarının alınması proseduru davam edir

**2024-cü ilin əvvəlində Kəlbəcər rayonunda yerləşən "Çıraq-1", "Çıraq-2", "Soyuqbulaq", "Qamışlı" və "Meydan", eləcə də Laçın rayonunda yerləşən "Mirik" və "Qarıqışlaq" kiçik su-elektrik stansiyaları üçün karbon sertifikatlarının alınması və bununla karbon kreditləri üzrə könüllü bazarda iştirakın təmin edilməsi məqsədilə "Azərenerji" ASC və "SOCAR Trading" əməkdaşlığı çərçivəsində Qətərdə yerləşən "Global Carbon Council" və İsveçrədə yerləşən "Gold Standard" qurumlarına müraciət edilmişdir.**

Yuxarıda qeyd edilən qurumlar tərəfindən yeddi kiçik su-elektrik stansiyası üzrə sənədlərə ilkin baxış keçirilib və qeydiyyat proseduru çərçivəsində sahə auditi təyin olunub. Sahə auditi mərhələsinin icrası məqsədilə audit şirkəti cəlb olunub. Bu mərhələ 10 iyun 2024-cü il tarixindən başlayaraq, üç gün ərzində Azərbaycanda səfərdə olan ekspert tərəfindən həyata keçirilib.









Qeydiyyat proseduru davam edən yeddi kiçik su-elektrik stansiyasının fəaliyyəti nəticəsində il ərzində 45 - 50 min ton karbon dioksid qazının atmosferə atılmasının qarşısının alınması nəzərdə tutulub.

Qeyd edək ki, işğaldan azad edilən ərazilərdə həyata keçiriləcək bu layihə Azərbaycandan karbon kreditləri üzrə könüllü bazarda iştirak üçün müraciət edilən ilk layihələrdəndir.

*"Azərbaycan"*

# Bakıda yağış yağacağı ehtimalı var

**Azərbaycanda iyunun 25-nə gözlənilən hava proqnozu açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin günün birinci yarısında havanın qısamüddətli tutulacağı, bəzi şəhərətrafı ərazilərdə az yağış yağacağı ehtimalı var. Mülayim cənub küləyi əsəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 30-35° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı - 756 millimetr civə sütunundan 752 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-80, gündüz 50-60 faiz təşkil edəcək.

Abşeron çimərliklərində mülayim cənub küləyi əsəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulba) 25-26°, cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 19-24°, gündüz 32-37° isti olacağı proqnozlaşdırılıb.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy, Göygöl rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacağı, şərq küləyi əsəcəyi güman edilir. Havanın temperaturu gecə 11-16°, gündüz 18-23° isti, bəzi yerlərdə 25-30° isti olacaq.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 10-15°, gündüz 18-23° isti, bəzi yerlərdə 25-30° isti olacağı güman edilir.

Gəncə şəhərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz, Naftalan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 17-22°, gündüz 32-37° isti olacağı proqnozlaşdırılıb.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısa müddətə leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 17-22°, gündüz 29-34° isti, dağlarda gecə 10-15°, gündüz 20-25° isti olacağı ehtimalı var.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Ağdaş, Biləsuvar, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər arabir duman olacağı, şərq küləyi əsəcəyi gözlənilir. Havanın temperaturu gecə 20-24°, gündüz 32-37° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında gecə və səhər bəzi dağlıq ərazilərdə, gündüz isə bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq, şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-23°, gündüz 29-33° isti, dağlarda gecə 17-20°, gündüz 22-25° isti olacağı proqnozlaşdırılıb.

# Fransanı ağır maliyyə böhranı gözləyir

**Fransanın maliyyə naziri Brüno Le Mer bildirib ki, parlament seçkilərində millətçilər, yaxud solçular qalib gələrsə, ölkə maliyyə böhranı riski ilə üzləşəcək. Belə ki, onlar dövlət xərclərini artırmağı planlaşdırıblar.**



Öz növbəsində, Parisdəki Amundi aktivləri üzrə baş menecer Ameli Derambur qeyd edib ki, siyasi risklərin Fransanın aktivlərinə mənfi təsir göstərməsi qaçılmazdır. Maliyyə bazarları "Milli Birlik" Partiyasının hakimiyyətə gəlməsinin nəticələrini böyük maliyyə itkiləri, milliləşdirmə riskləri və digər fəsadlarla qiymətləndiriblər.

Avro 0,4 faiz ucuzlaşaraq 6 həftədən çox müddətdə ən aşağı səviyyəyə düşüb. Analitiklər bildiriblər ki, Avropa bazarlarında eniş millətçi partiyaların müxtəlif ölkələrdə uğur əldə etməsindən sonra baş verib.

Fransada 6-9 iyun tarixlərində keçirilən AP seçkilərində Marin Le Penin rəhbərlik etdiyi "Milli Birlik" partiyası səslərin 31,8 faizini qazanıb. Makronun "İntibah" partiyası isə seçicilərin cəmi 15,2 faizi tərəfindən dəstəklənib.

Bundan sonra Fransa lideri Milli Assambleyanın buraxıldığını və növbədənkənar parlament seçkilərinin keçiriləcəyini bəyan edib.

Marin Le Pen isə vurğulayıb ki, əgər insanlar onlara güvənərsə, partiya Fransada hakimiyyəti ələ keçirməyə hazırdır.

"Europe 1" radiostansiyası iyunun 30-da və iyulun 7-də keçiriləcək parlament seçkilərində millətçilərin qələbə qazanacağı halda Fransa prezidentinin öz ətrafı ilə dövlət başçısı vəzifəsindən istefa verməsinin mümkünlüyü ilə bağlı müzakirələr apardığını bildirib.

Eyni zamanda qeyd edilib ki, belə bir addım Makronun üstünlük verdiyi variant deyil, lakin bu perspektiv kampaniyada qarşıdan gələn seçkilərin dramatikləşdirilməsi rolunu oynaya bilər.

Bundan əlavə, Böyük Britaniyada çıxan "Financial Times" qəzeti yazıb ki, Fransada dörd sol partiya parlament seçkilərində vahid namizədlər irəli sürmək üçün birləşməyə hazırdır. Proqnozlara əsasən, bu halda Makronun ikinci tura çıxmaq şansı daha da azalacaq.

"Bloomberg" agentliyinin verdiyi xəbərə görə, Fransada investorlar qarşıdan gələn parlament seçkiləri və onların nəticələrindən narahatdırlar. Çünki prezident Emmanuel Makronun siyasəti ölkə iqtisadiyyatını yoxsullaşdırır.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
№ 129 (9584) 23 iyun 2024-cü il BAZAR
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR
Böyük tarixdən başlanan Zəfər yolu
1993-cü il 24 iyun tarixi Azərbaycanın dövlətçilik salnaməsinin şərəfli səhifələrindəndir
"Biz planetin qorunması üçün müsbət mühit yaratmaq istəyirik"
"Euronews"da Prezident İlham Əliyevin müsahibəsi yayımlanıb
Azərbaycanın "yaşıl enerji" potensialı böyük, hədəfləri aydındır
Prezident İlham Əliyev bunu "Euronews"a müsahibəsində bir daha vurğulayıb
Fransanın müstəmləkə siyasəti beynəlxalq səviyyədə ifşa olunur
Bakı Təşəbbüs Qrupu müstəqillik istəyən xalqların mütəşəkkil mübarizə platformasına çevrilib
5 ayın makroiqtisadi göstəriciləri ilin sonuna nikbin nəticələr vəd edir
"COP29-a Aparan Yol..." Zəngilanda başa çatdı
Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Yüksək Səviyyəli 29-cu Toplantısı dünyaya vacib mesajlar verdi
azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Parisdə azərbaycanlı Fransa qəhrəmanı Əhmədiyyə Cəbrayılova həsr edilmiş filmin nümayişi olub

**Parisdə Azərbaycan səfirliyinin Mədəniyyət Mərkəzində İkinci Dünya müharibəsi zamanı antifaşist müqavimət hərəkatının görkəmli nümayəndəsi, əfsanəvi partizan Əhmədiyyə Cəbrayılova həsr olunmuş "O, Xarqo idi" adlı sənədli filmi nümayiş etdirilib. Sənədli filmin nümayişi Azərbaycan səfirliyinin təşkilatçılığı ilə reallaşıb.**



AZƏRTAC xəbər verir ki, Mədəniyyət Nazirliyinin "Salnamə" film - kinostudiyasının istehsal etdiyi sənədli filmin təqdimatında Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva, Fransanın Azərbaycandakı keçmiş səfirləri Jan Perrən və Şantal Puare, UNESCO yanında daimi nümayəndə Elman Abdullayev, "O, Xarqo idi" sənədli filminin ssenarist və rejissoru Tahir Tahiroviç və Əhmədiyyə Cəbrayılovun nəvəsi Müşfiq Cəbrayılov, fransız siyasətçiləri və incəsənət xadimləri, azərbaycanlı diplomatlar, eləcə də yerli ictimaiyyətin və Azərbaycan diasporunun nümayəndələri iştirak ediblər.

Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva çıxış edərək, ölkəmizin İkinci Dünya müharibəsində faşizm üzərində qələbəyə verdiyi çoxsaylı mühüm hərbi, iqtisadi və strateji töhfələrdən danışıb. Faşizmlə mübarizədə sovet ordusunun yanacaq ehtiyacının 90 faizinin məhz Azərbaycanın qarşıladığını vurğulayıb. Səfir qeyd edib ki, həmin dövrdə 3 milyon əhalisi olan Azərbaycandan 600 min əsgər 1941-1945-ci illərdə nasistlərə qarşı müharibəyə yollanıb və onların bəziləri müxtəlif Avropa ölkələrinin azadlığı uğrunda partizan hərəkatlarına qoşulublar. 130-dan çox azərbaycanlı İkinci Dünya müharibəsində qəhrəman adına layiq görülüb, 170 mindən çox əsgərimiz müxtəlif orden və medallarla təltif olunub. Müharibədə kişilərlə yanaşı, azərbaycanlı qadınlar da şücaət göstəriblər.

Səfir L.Abdullayeva Əhmədiyyə Cəbrayılovun Fransanın azadlığı uğrunda mübarizəsindən, Müqavimət Hərəkatında fəaliyyətindən, bu ölkənin Tarn və Qaron departamentində Kabertat partizanlarına qoşulmasından, müxtəlif əməliyyatlarda qəhrəmanlığından söhbət açıb.

Səfir Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun torpaqlarımızı azad etməsindən, igid oğullarımızın qəhrəmanlığından danışıb, Azərbaycanın sülhün, ədalətin bərqərar olmasında maraqlı olduğunu vurğulayıb.

Bir çox Avropa ölkəsində azərbaycanlı əsgərlərin partizan hərəkatlarında göstərdikləri qəhrəmanlıqlar xatırladılıb. Sonra "O, Xarqo idi" sənədli filmi nümayiş olunub.

Filmin nümayişindən sonra tədbirdə iştirak edən "O, Xarqo idi" sənədli filminin ssenarist və rejissoru Tahir Tahiroviç əfsanəvi partizan Əhmədiyyə Cəbrayılovun anadan olmasının 100 illiyinin geniş qeyd edilməsi ilə bağlı Prezident İlham Əliyevin Sərəncamına əsasən keçirilən silsilə tədbirlər çərçivəsində bu filmin lentə alınmasından, onun yaranması ideyasından, ekran əsərində hər bir hadisənin arxiv materiallarına əsaslanmasından, filmin ərsəyə gəlməsindən və məqsədlərindən bəhs edib.

Əhmədiyyə Cəbrayılovun nəvəsi Müşfiq Cəbrayılov babası ilə bağlı xatirələrindən danışıb. O, Ə.Cəbrayılovun faşistlərə qarşı fransız partizanlarla birgə çiyin-çiyinə mübarizə aparması, müxtəlif xalqlardan olan partizanların Fransanın azadlığı uğrunda qardaşlığı ilə bağlı xatirələrini tədbir iştirakçıları ilə bölüşüb.

Fransanın Azərbaycandakı keçmiş səfirləri Jan Perrən və Şantal Puare ölkəmizdə səfir olduqları zaman Fransa qəhrəmanı Ə.Cəbrayılovun doğma şəhəri Şəkiyə səfərlərindən, onunla söhbətlərindən, onun ölümündən sonra qəbrini ziyarət etmələrindən, Əhmədiyyə ilə birgə partizan hərəkatında olmuş Rene Şambarın Şəkidə dostunun qəbrini ziyarət etməsindən danışıblar.

Həyat yoldaşı Fransanın Azərbaycandakı səfirliyində çalışmış Aleksanr Vattən Fransanın azadlığı uğrunda mübarizə aparmış azərbaycanlı partizanlarla bağlı arxivlərdə işləməsindən, onlarla bağlı hazırladığı kitabdan söz açıb.

Tədbir çərçivəsində müharibə vaxtı azərbaycanlı əsgərlə ailə qurmuş, Azərbaycanda yaşamış və 50 ildən sonra ölkəsinə səfər etmiş fransız xanım İvon Bottonun xatirəsi də yad edilib.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Polis təqaüdçüsü Oruc Zalov xidməti vəzifələrini yerinə yetirərkən həlak olmuş polis əməkdaşları

**ELDƏNİZ MƏMMƏDOV,**
**MAHİR AĞAYEV və MİRƏLİ HEYDƏROVUN**

ailə üzvlərinə və Azərbaycan polisinə dərin hüznlə başsağlığı verir.

---

Hüseynbala Mirələmov ailəsi ilə birlikdə Neft-Kimya Prosesləri İnstitutunun direktoru akademik Vaqif Abbasova qardaşı

**MÜTƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Müdafiə Sənayesi Nazirliyi Milli Aerokosmik Agentliyinin baş direktoru, professor Natiq Cavadov Milli Məclisin deputatı Ülvi Quliyevə anası

**DİNA PƏNAHOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Müdafiə Sənayesi Nazirliyi Milli Aerokosmik Agentliyinin baş direktoru, professor Natiq Cavadov İsa Qaraşova və Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru, professor Hüseyn Qaraşova atası

**TAPDIQ QARAŞOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4477
Sifariş 1407

Qiyməti 60 qəpik